**HACI HƏSƏN HÜSEYNİ**

# HƏZRƏTİ-RÜQƏYYƏ (Ə)

**BAKI-2018**

## ÖN SÖZ

***Bismilləhir-Rahmanir-Rahim!***

*Fələyin yazdığını mən poza bilsəydim həmən,*
*Onu arzumla, məramımla yazardım təzədən.*
***Ömər Xəyyam.***

İslamın müqəddəs kitabı olan Qurani-Kərimdə dəfələrlə bildirilir ki, hər şey Allahın əmrindədir. Heç bir şey onun izni olmadan baş verə bilməz, nə bir an tez, nə bir an gec ola bilməz.

Şübhəsiz ki, bunlar aşkar dəlillərlə sübuta yetirilib. Bunların hər birində də insanların hamısı üçün bir ibrət nəzərdə tutulub.

Bu kitabın araya-ərsəyə gəlməsi səbəbi Ömər Xəyyamın manşetdəki rübaisinin bu bəndində açıq şəkildə bildirilib. Həqiqətən baş vermiş bu tarixi hadisələri müxtəlif mənbələrdə müxtəlif təqdimatda eşitmişik, hər zaman da qəlbimiz nisgillə göynəyib. Əsərin «İntiqam» bölməsində Əmir Teymurun Şam əmirlərinə xitabən dediyi sözlər, onları lənətlə damğalaması, «Əfsus! Əfsus! Mən o gün dünyada olmamışam, ta o binamusların nəslini yer üzündən kəsəm» deməsi azacıq insafı olan hər insanı ən azı Əmir Teymurun özü qədər kövrəldir.

Mən dünyanın heç bir xalqının din tarixində Həzrəti

Rüqəyyənin (ə) faciəsi qədər kədərli bir hadisənin şahidi olmamışam. Əgər Əmir Teymurun yerində mən olsaydım, heç müsəlman olmasaydım belə bu hadisəyə laqeyd qala bilməzdim. Həzrəti Rüqəyyaənin (ə) möhtəşəm bir ülviyyətə çatması hadisənin göynədici iztirabından, ürək parçalayan təsirindən məni xilas edə bilmədi. Hər an bir möcüzənin olacağına olan ümidimin boşa çıxmasından doğan təəssüf hissi gözlərimdən damla-damla axdı və Əmir Teymur kimi dəfələrlə “kaş ki” – dedim.

Bu müqəddəs varlığın, bir tazə fidanın şiddət nəticəsində şəhadətə yetməsində Allahın nəzərdə tutduğu ibrəti anlamağa çalışıram. Kərbəla müsibətinin tarixdə buraxdığı iz bu günə qədər öz təsirini saxlayıb. Bu, həqiqətən insanlıq tarixində əsrlərlə yad ediləcək və unudulmayacaq bir hadisədir ki, hər il məhərrəmlik təziyəsində xatırlanır. *İnsanlıq niyə bu hadisəni unutmamalıdır və qeyd etməlidir?*

Əsərin bütün qayəsi, məqsədi, səbəbi və əhəmiyyəti bu sualın cavabının dərk edilməsinə xidmət edir.

Hacı Həsən Hüseyni bir dindar olmaqdan daha çox bir humanist olaraq insanlığın bu faciəsini düşünür. Bu səbəbdən bu gün bu hadisənin şərhinə yönəldilmiş daha bir kitabın ərsəyə gəlməsi aktualdır. İnsan xəlq olub Allah onu yaradıb Yer üzünə endirdiyi gündən onları faili-muxtar etdi. Elə o zamandan da insanlıq tarixində qan tökülür, düşmənçilik və nifaq düşür. Ən dahi adamlar belə bu nifaqın qarşısını alıb onlar arasında əbədi bir barışığa nail ola bilmədi. Hesab edirəm ki, Hacı Həsən də axtarışda olanlardandır. İnsanlığı sülhə dəvət edən minlərlə əsərlər yazılıb. Bu məqsədlə dahi şəxsiyyətlər nə bəlalara dözməyibər. Məsələn bu mənada Xristianlığın rəhbəri olan Həzrət İsa (ə) hər cür fiziki işkəncəni öz bədəninə qəbul edərkən Al-

lahdan bu rəzalətə görə onu bağışlamağını xahiş edirdi. Eyni zamanda ətrafa bir mesay göndərirdi ki, bu cahillikdir. İnsan bu hərəkəti cahilliyi üzündən edir. Hər bir dinin müqəddəs borcu insanı bu vəhşilikdən uzaq tutmaqdır. Məhz Yer üzünün qaranlığa qərq olmaması üçün seçilmiş insanlar bəşəriyyətin hidayəti üçün göndərilir.

Lakin, yenə qan tökülür, yenə düşmənçilik davam edir. Bu nöqtədə müəllifin fikri Cavidin fikri ilə üst-üstə düşür

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Tarixi hadisənin təfərrüatı müsəlman aləminə bəllidir. Hacı Həsənin qəhrəmanı bu hadisənin yalnız bir personajıdır. Lakin, çox parlaq bir personaj. Əslində bu personaj vasitəsilə bir daha hadisəyə qayıdılır, əyani formada təqdim edilir. Biz bu sıradan olan personajları müqəddəs adlandırırıq. O müqəddəslərin hamısının həyatı insanlıq üçün bir nümunədir. Allah bununla insanlıq üçün bir ibrət nəzərdə tutub.

Zamanla bir çox humanistlər də təkrar bu mövzulara qayıdarkən yer üzündə zülmün artdığına işarə edərək onlara olmuşları xatırlatmamağa çalışmışlar. Hacı Həsən də bu missiyanın tərəfdarlarındandır. Sözügedən kitab da bu qəbildən bir mesaydır.

Hacı Həsən bir din xadimi və publisistdir. Qələmini və ruhunu süngü edərək zülmə və cəhalətə qarşı mübarizə aparmaqdadır. Eyni zamanda öz şəxsi nümunəsində cəmiyyətə daha bir mesay göndərir: hər kəs olduğu yerdə mübarizə aparırsa, cəmiyyət qarşısında borcunu yerinə yetirərsə, pisliklər azalar, dünya gözəlləşər, zülm yox olar.

Hacı Həsən bütün varlığı ilə dünyaya bu mesajı hayqırır. Buna görə Rüqəyya onun ruhuna bu qədər yaxın və əzizdir.

Kitabın həcmi mümkün qədər yığcam nəzərdə tutulmuşdur. Bu onun oxucu auditoriyasının imkanını nəzərə alaraq hesablanmışdır. Belə ki, az sözlə böyük fikri lakonik olaraq oxucu üçün asanlaşdırsın və oxunaqlığı təmin etsin. Hesab edirəm ki, düzgün mövqedir və nəticəsi müsbət olacaqdır.

Yeri gəlmişkən, Hacı Həsənin bu əsərinin dili bir qədər əvvəlki əsərlərindən fərqlidir. Bəzən qəhrəmanların dilində, bəzən isə müxtəlif dövrlərdə hadisəyə münasibət bildirənlərin dilində danışır Həsən Hüseyni. Bu da kitaba marağı xeyli artırır.

"Lənətlənmiş şəcərə" adlı birinci fəsil Yezid qövmünün Allahın lənətinə gəlməsinin səbəblərindən danışır. İnsanın hansı həddə günaha yol verə biləcəyi, qəzəbin insanı nə qədər kor edə biləcəyi heyrət doğurur. Hətta, heç bir günahı olmayan körpələri və qadınları qəzəb alovunda yandırarkən qazandığı günahın onun öz nəslinin əbədi lənətinə səbəb olacağını düşünməyəcək dərəcədə kor ola bilən insan anlaya bilsəydi ki, şəcərəsinə necə bir zülmü qıyıb, yəqin ki, heç düşünmədən öz həyatını məhv edərdi. Çünki, bütün bu lənətin cəzasını onun üzündən günahsız nəsil də çəkəcək.

İkinci və üçüncü fəsillərdə hadisələrin mahiyyəti və müxtəlif mənbələrdə hadisəyə münasibət açıqlanır. Yuxarıda qeyd etdiyim kimi ən təsirli fəsillərdən biri içində "İntiqam" başlığı olan ikinci fəsildir.

Dördüncü fəsil "Nahiyeyi-Müqəddəsə ziyarət" adlanır və sırf dualardan ibarətdir. Hesab edirəm ki, bu hissə ilə

Hacı Həsən duanın insan üçün nə demək olduğunu və onun qaydalarını izah etməyə çalışır.

Beşinci fəsil hadisələrin tamamlanması, nəticələri və tarixi əhəmiyyəti barədədir.

Haqqında söhbət açılan müqəddəsin – Həzrəti Rüqəyyənin (ə) Allah tərəfindən seçilmişlərdən olduğunu sübut edən bir sıra dəlillər kitabda öz əksini tapıb. Xüsusilə, “Həzrəti Rüqəyyənin (ə) şəfaəti” bölümündə müəllif böyük bir ülviyyətlə yanaşır qəhrəmanına. Onun zəif vücudunun ilahi gücünü böyük bir sevgi ilə vəsf edir. Hətta, xristian olmasına baxmayaraq bu həzrətin üstünə gələn imanlının şəfaət tapması onu göstərir ki, Allah öz bəndələrini hansı dinə mənsub olmasından asılı olmayaraq eyni cür sevir və hər bəndəni yalnız insan olaraq yaratdığı üçün insan olaraq da qəbul edir. Yetər ki, imanı kamil olsun. Eyni zamanda müəllif bununla bildirmək istəyir ki, müqəddəslər Allahın yer üzündə əmin-amanlığı bərpa etmək vasitəçiləridir.

Müəllifin hadisələrə münasibəti belədir: Müqəddəslərin cəmiyyətdə rolu, təkrarlanması və unudulmaması Allahın iradəsiilədir.

Bu hadisələrdən uzun əsrlər keçib. Ayrı-ayrı əsrlərdə bu günə qədər müxtəlif istiqamətlərdən Allahın izni ilə bu müqəddəs xatırlanıb. Bu xatırlanmanı müəllif xüsusilə vurğulayır.

Hər il müsəlman dünyası Məhərrəm ayında sadəcə olmuş saysız hesabsız hadisələrdən birini – amma, çox təsirli bir hadisəni xatırlayır. Ona öz münasibətini bildirir. O hadisələrin ayrı-ayrı qəhrəmanları yenidən yada düşür. Bu artıq yetişməkdə olan nəsil üçündür. Müəllifin bu qədər əmək sərf etməsinin səbəbi də elə budur.

Ümumiyyətlə, əsər V.Şekspir faciələrinin təsiri gücündədir. Haradasa demək olar ki, tam tarixi faciə əsəridir. Bu hadisənin ayrı-ayrı detalları daim xatırlansa da Həzrəti Rüqəyyənin (ə) qəhrəman olaraq seçildiyi bir tarixi mənzum hekayəti xatırlamıram. Bildiyim qədəri ilə bu ilkdir. Hacı Həsən bu kitaba faciə əsəri yaratmaq fikri ilə yanaşmamışdır. Amma, əsərin quruluşu bu nəticəyə gəlməyə imkan verir.

**Müstəqil jurnalist: Dilbər Ağayeva**

# MÜƏLLİFDƏN

Bismilləhir-Rahmənir-Rahim!

*Ya Rəbb, rəhi-eşqində məni şeyda qıl,*
*Əhkami-ibadətin bana icra qıl.*
*Nəzzareyi-sün`ində gözüm bina qıl.*
*Övsafi-həbibində dilim guya qıl.*

(Ya Rəbb, eşqinin yolunda məni divanə et. İbadətinin hökmlərini mənə öyrət. Gözümə fərasət nuru bəxş et ki, yaratdığına tamaşa edə bilim. Dostunu tərif etdikdə dilimə natiqlik ver. (M.Fizuli "Hədiqətüs-şühəda")

İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimdə qadın haqqı, ana haqqı yüksək tutulub. Peyğəmbərimizin(s) saysız-hesabsız hədislərində ananın-qadının haqqını müdafə edən, onu qoruyan bir çox hədisləri misal gətirmək olar. Nəzərə alsaq ki, Qurani-Kərim uzun illər şəriətlə idarə olunan ölkələrdə Qanun külliyatı olub, qadınların haqqının hansı mərtəbədə müdafiə olunduğunun şahidi olaraq. Burada elmi məlumatlarla birgə mənəvi dəyərlər də nəzərə alınıb.

İnsan sivilizasiyası uzun bir yol keçib. Dünyanın bütün ölkələrində gender problemi mövcuddur. Demokratik və despotik dövlətlərdə qadın haqlarının hansı səviyyədə qorunduğundan asılı olmayaraq bu problem mövcuddur. Yaxın zamanlarda onun həllinin gözlənildiyini demək olmaz. Qadın zəifdir, yoxsa zərif? Ona güc tətbiq etmək olarmı? «Ən-Nisa»(Qadınlar) surəsi Qurani-Kərimin böyük surə-

lərindən biri olub, onun birinci ayəsindən 36-cı ayəsinyə qədər uca Allah insan hüquqlarından söhbət açır. Demək olar ki, bu ayələrdə ən çox qadına verilən hüquqlardan bəhs olunur.

İllər-əsrlər bir-birini əvəz etdikcə, yeni qanunlar və birgəyaşayış normaları qəbul olunub, dəbə və zövqlərə, tələblərə uyğunlaşdıqca köhnə qaydalar tədricən unudulub.

Hazırda cəmiyyətin bütün təbəqələrində müxtəlif səviyyəli qadınlarla rastlaşmaq mümkündür. Mən Allahın nümunə olaraq yaratdığı qadınları, «qadın necə olmalıdır»sualına tam mənası ilə cavab verən qadınları müasir qadınlarla müqayisə edirəm. Ətrafda dəb dalınca qaçan, fərqlənmək üçün dəridən-qabıqdan çıxan, zəhmət çəkən, istehsalatın bütün sahələrində fəaliyyət göstərən, müəllim, həkim, siyasətçi, əzab çəkən və əzab verən qadınları müşahidə edirəm. Hər zaman da bütün şəxsiyyətlərin düşündüyü sualı düşünürəm: «Qadın nə istəyir?». Təbii bu sualın cavabını mən də tapa bilməmişəm. Bilmirəm qadın nə istəyir. Amma, bilirəm ki, Allah-təala onu yaratmaqla nə istəyir. Onun necə olması üçün bir çox ümumbəşəri nümunələr yaratdı. Bunlardan biri də cəmi üç yaşı olsa da insanlığa nümunə olan Xanım Ruüqəyyədir (ə).

Tarix müxtəlif dönəmlərdə böyük şəxsiyyətlər yaradaraq dünyanı onların iradəsilə istiqamətləndirir.

Dünyada böyük dəyişiklik yaradan şəxslər dahi alimlər və mübariz inqilabçılardır ki, uca amallar uğrunda mübarizə edərək fikirləri və əməlləri ilə dünyada böyük iz buraxırlar. Bu cür böyük alimləri, ustadları, inqilabçıları yetişdirən və cəmiyyətə təqdim edən Anadır! Ümumiləikdə Qadının məqamı çox böyükdür. Qadın Allahın yaratdığı ən böyük varlıqdır.

Zamanında qadınlarla necə rəftar edilməsindən asılı olmayaraq tədricən xanmlar cəmiyyətdə öz həqiqi yerini tapır. Müasir qadınlar toplumun idarəsində əhəmiyyətli rol oynayır. Xanım Ruqəyya(ə) cəmi üç il yaşadı. Böyük bir insanlıq faciəsi yaşadı. Dünyada bir çox uşaqlar tələf olur. Amma, onların hamısı müqəddəs elan olunmur. Çünki, zamanla bu ölüm unudulur.

Bu itkinin yeri dolur. Ağrı və acıları sağalır. Lakin, xanım Rüqəyyənin (ə) ölümü insanlığa bir mesaj oldu. Allah təala ona "Bəbül-həvaic" (hacətlər qapısı) kimi müqəddəslik mərtəbəsi qismət etdi. O, fiziki ölümündən sonra mənəvi olaraq yaşamağa davam etdi. Beləliklə, xanımlıq simvoluna çevrildi. Ona pənah aparan hər kəsin dayağı oldu. Xanım Rüqəyyə (ə) məsumluq timsalıdır. Dünyanın hər yerində dinindən, irqindən asılı olmayaraq köməyə möhtac olan insanların dadına yetir. Biz bu barədə "Rüqəyyənin kəramətləri" adlı bölmədə geniş məlumat vermişik.

Əslində bu kitabın mövzusunu və qəhramanını bəlkə də Xanım Rüqəyyə (ə) özü seçdi. İnanıram ki, bu kitabımın qəhrəmanı olmaqla Xanım Rüqəyyə (ə) yenə də bəndeyi-həqirin qələminin işığında insanlığa bir fikir aşılamaq istəyir. Ona nə dərəcədə nail olduğumu deyə bilmərəm. Amma, bu məsul iş üçün aciz bir bəndəni seçdiyinə görə uca Allahıma böyük bir minnətdarlıq və qürur hissi yaşayıram. Xanım Rüqəyyə (ə) barədə çox mərsiyə, ilahilər və rəvayətlər var. Lakin, Azərbaycan ədəbi aləmində bu həcmdə və mənəvi tutumda bir əsərə rast gəlməmişəm.

Bir müddət qəhrəman qadınlar silsiləsindən bir çox Azərbaycan qadınlarının həyat və fəaliyyətləri ilə maraqlanmışam. O zamanlar bir dindar olaraq Xanım Rüqəyya(ə) barədə kiçik bir məqalə hazırlandı və «Qızıl Zəngi-

lan» almanaxında çap olundu. Bu məqalə böyük maraq doğurdu. Hələ həmin məqalə hazırlananda fikrimdə bu mövzuya bir daha qayıdacağımı düşünmüşdüm. İşin gedişində bir daha əmin oldum ki, doğru yoldayam. Çünki, bu istiqamətdə hansı bir addım atdımsa Xanım Rüqəyyanın(ə) nəzərini üzərimdə, yardımını yolumda hiss etdim. Hər şey çox uğurla alınırdı. Nəhayət, Müqəddəs Ramazan ayında kitabın nəşri ilə bağlı xeyriyyəçi bir təklifin alınması işi daha da sürətləndirdi. Bir daha hiss etdim ki, bu kitab yetərincə mükəmməl hazırlanmalı, geniş oxucu kütləsinə çatdırılmalıdır. Çünki, bunu Xanım Ruqəyya(ə) istəyir.

Digər tərəfdən yuxarıda qeyd etdiyim kimi cəmiyyətdə ətrafımda olan qadınların hamısına Xanım Ruqəyyanı(ə) bir daha xatırlatmaqla hicablı, hicabsız olmağından asılı olmayaraq qəlbən imanlı və mürüvvətli olmaları üçün Allahdan bir ricam var. Cəmiyyətimizdə ana olacaq qızlarımızı Xanım Rüqəyyə (ə) kimi görmək istərdim. Çünki, cəmiyyətin sağlamlığı, tərbiyəsi məhz, analardan asılıdır. Dahilərdən biri deyib:

*“Çayın mənbəyi bulaq olduğu kimi ailənin də mənbəyi anadır”***.** Peyğəmbərimiz (s) əbəs yerə deməyib ki, *“Cənnət anaların ayaqları altındadır”***.** Əgər dünyanın ən müqəddəs məkanı ananın ayağı altındadırsa onda analıq haqqının nə qədər uca olduğunu anlamaq olar. Ona görə də müasir qadına yerinin ucalığını bir daha xatırlatmaq istədim. İstəyirəm ki, yetişən nəslin yetkin böyüməyində, əsl müsəlman kişisi, azərbaycanlı kişisi kimi formalaşmasında hər qadın öz ana – qadın rolunu Xanım Rüqəyyə (ə) qədər başa düşərək yerinə yetirsin. Hər ana, hər qadın öz əx-

laqında və sədaqətində Xanım Rüqəyyə (ə) olsun. Bunun üçün Azərbaycan qadını əvvəl Əhli-beyt (ə) xanımlarının həyatını, ictimai və sosial fəaliyyətlərini öyrənməlidirlər.

Allah-təala bu körpə vücudu nə qədər pak, nə qədər məsum yaradıb, hər qadında isə Xanım Rüqəyyədən (ə) bir nişanə qoyub. Onu məsumluğun dəyişilməz timsalı olaraq yaratdıb. Bu səbəbdən qadın gərək heç vaxt cəmiyyətdəki rolunu və yerini unutmasın. Bilməlidir ki, Allah onu uca yaradıb. Ona hər cür bəzək vurub. Onun qadın yaranması özü artıq Allah-təala tərəfindən bir lütfdür.

Qurani-Kərim, Hicab, Şəriət, Qanun qadının müdafiəsindədir. Allah-təala özü onu toxunulmaz elan etdi. Gözəl yaratdı. Mükəmməl yaratdı. Allahın yaratdığı ilə öyünərək vücudunu açıq-saçıqlıqla nümayiş etdirməyə ehtiyacı yoxdur. Çünki, Allah-təala qadına ağıl-kamal, gözəl camal, zəriflik, insaf və mürüvvət verdi. Allahın verdiyi gözəlliyi hansı boya, onun verdiyi kamalı və camalı hansı plastik əməliyyat verə bilər?

Övladlarımızı böyüdəcək anaları Xanım Rüqəyyə (ə) timsallı, Rüqəyyə (ə) ağıllı, Rüqəyyə (ə) həyalı, Rüqəyyə (ə) sədaqətli və vəfalı, Rüqəyyə (ə) qəlbli görmək istərdim. Həmiçinin, Allah-təalanın verdiyi müqəddəslik mərtəbəsinə ucalan görmək istərdim. O zaman cəmiyyət gözəlləşər, insanlıq rahat nəfəs alar. Gözəl nəsil yetişər.

Axı gözəllik üzdə deyil, daxildə olmalıdır. Çünki, daxili gözəllik mütləq üzə yansıyır, insanı və qadını əvəzedilməz edir. Bu boyaların sünisi yoxdur. O rənglər dükanlarda satılmır. O gözəlliklər Allah dərgahındandır. Onları plastik əməliyyatla əldə etmək olmaz.

Bütün bunlardan sonra qadının o ucalığı dəyərləndirə bilməməsi insanda təəssüf doğurur. Qadın zirvəsini bütün

ali varlıqlar dərk edib. Artıq onun üçün əlavə vasitələrə ehtiyac yoxkən qadınlarımız niyə bu qədər mənəvi tənəzzüldədir. Bəlli olur ki, onlar layiq görüldüyü mərtəbədən bixəbərdirlər.

Hesab edirəm ki, Xanım Rüqəyyə (ə) qızlarımıza nümunədir.

Əgər, qadın dəyərini bilsə onun həkim müdaxiləsinə, kosmetoloq köməyinə ehtiyacı olmaz.

Allah-təala **«Tin»** (Əncir) surəsinin 4-cü ayəsində buyurur: *"Biz insanı ən gözəl surətdə yaratdıq"*. Bu ayədən göründüyü kimi Allah insanı bütün cəhətlərdən, həm fiziki, həm ruhi, həm də əqli cəhətdən gözəl yaratmış, çox əzəmətli yüksəlişə nail ola bilməsi üçün onu bütün imkanlarla təchiz etmişdir. Quran ayələrinə əsasən insan elə yaradılıb ki, elm, iman, təqva və saleh əməl işığında insanı Allaha doğru yüksəldən ən uca zirvələrə qalxa bilər, Allahın rəhmət dənizində başdan-başa xoşbəxtlik olan əbədi həyata qovuşa bilər**.**

**«Taha»** surəsinin 75-76-cı ayələrində belə buyurulur: *"Kim Onun hüzuruna yaxşı əməllər etmiş bir mömün kimi gələrsə, onlara ən yüksək dərəcələr nəsib olar. Ağacları altından çaylar axan əbədi Cənnət bağları. Orada əbədi qalarlar. Bu, özlərini təmizləyənlərin mükafatıdır"*. Əgər insan bütün bu potensialı və imtiyazları ilə haqq yoldan saparsa, ən aşağı dərəcəyə enər. Kamillik əvəzinə qorxulu enişə məruz qalar. İnsan istedad və potensialları zəngin olan bir varlıqdır. Əgər onları islah yolunda istifadə etsə, ən yüksək qürur zirvəsinə ucalar, yox, əgər bütün ağlını və istedadını fəsad və günaha sərf etsə, ən böyük fəsada səbəb olar. Bu da onun ən aşağı dərəcəyə yuvarlanması ilə nəticələnər. (Əl-Mizan, c 20, s.365; Nümunə c.27, səh.

126-144).

Bu deyilənlərdən aydın olur ki, Allah insana həm xarici gözəllik, həm mənəviyyat əta etdi ki, bütün bu gözəllikləri bir yerə cəm etsək, görərik ki, həqiqətən insan bütün yaradılmışların içində Yaradanın ən böyük və seçkin şah əsəridir. Allah Qurani Kərimin **«Muminun»** surəsinin 12, 13, 14-cü ayələrində insanın yaradılışından söhbət açaraq buyurur: *"Biz insanı palçıq şirəsindən yaratdıq. Sonra nütfə halında təhlükəsiz yerdə yerləşdirdik. Daha sonra nütfəni laxtalanmış qan formasına, laxtalanmış qanı çeynənmiş ət parçası formasına, çeynənmiş ət parçasını sümük formasına saldıq, sonra da sümükləri ətlə örtdük. Sonra ona yeni bir yaranış verdik. Yaradanların ən yaxşısı olan Allah çox böyükdür!"*

Allah yardımçınız olsun, mehriban qadınlar. Siz tarixə şəxsiyyətlər bəxş etmək üçün Allahın əmrilə yaradıldınız. Bütün insanlıq varlığına görə Sizə minnətdardır. Ana haqqı dünyada heç bir dəyərlə ölçülməz və əvəzi ödənilə bilməz. Ana adı müqəddəs, vəfa və sədaqət rəmzidir. Ucalıqda Vətənlə təndir. Allah xatirinə bu ucalığınızın dəyərini bilərək onu qoruyub saxlayın. Nə qədər ki, qadın ocağının mühafizəsindədir, o qala alınmaz, o ocaq sönməz.

Allah-təala Sizin xidmətlərinizdən, Sizin sevgi və qayğınızdan insanlığı uzaq salmasın.

Ümidvaram ki, ərsəyə gələcək bu kitab böyük oxucu marağına səbəb olacaq, Analarımız Xanım Rüqəyyə (ə) şəxsiyyəti ilə tanış olacaqlar. Allah-təala Peyğəmbər (s) və Əhli-beytə(ə) xatir, məxsusən əsərin qəhrəmanı Xanım Rüqəyyə (ə) ehtiramına bu kiçik xidmətimizi qəbul etsin. Amin, ya Rəbbəl-Aləmin!

# I FƏSİL

## Bismilləhir - Rahmənir - Rahim

## Müqəddəs Qurani-Kərimin
## "İsra" surəsinin siması

Qurani-Kərimin 17-ci surəsi "İsra" surəsidir. Bu surə 111 ayədən, 1923 kəlmədən ibarətdir. *Bu surə Məkkədə nazil olmuşdur*. "Sübhan" kəlməsi ilə başlanaraq "Merac əhvalatı"ndan bəhs etdiyi üçün "Əsra" (gecə səfərə çıxmaq), "Bəni-İsrail əhvalatı"ndan (İsrail övladlarının əhvalatından) nəql etdiyi üçün isə həm də "Bəni-İsrail" surəsi kimi də tanınır.

Bu surədə də, digər Məkkə surələrində olduğu kimi tövhid, faydalı nəsihətlər, istənilən növ şirk *(şərik qoşma)*, zülm və çaşqınlıqla mübarizə, tarixdəki fərdi və ictimai sünnələr (qanunlar), Həzrət Adəmin (ə) və İblisin yaranma tarixi, İslam peyğəmbərinin (s) Məkkədəki mövqeyi kimi mövzuları bəyan olunmuşdur.

Surə Allahın təsbihi (tərifi) ilə başlayır və Onun təhmidi (həmd-səna) sitayişi ilə yekunlaşır.

## "İsra" surəsinin fəziləti

Rəvayətlərdə bu surənin Cümə gecələri tilavət olunması (oxunması) tövsiyə olunur.

Surənin oxunmasının faydalarından biri də odur ki, İmam-Zamanla (əc.f) görüş üçün bir zəmanət hesab edilir.

Peyğəmbər (s) buyurur: "Hər kəs bu surəni oxuyarsa ürəyi yumşalar, Allah-təala ona cənnətdə iki qintar əcr *(miqdarında mükafat)* verər".

Bu surə hər bir müşkül iş üçün 7 dəfə ardıcıl olaraq oxunarsa bu müşkül iş xeyirli həllini tapmış olar.

İmam Sadiq (ə) buyurur: "Kim cümə gecəsi bu surəni oxuyarsa, zəmanə imamı Höccət ibn Həsəni (əc.f) görmə-yincə dünyadan getməz və onun köməkçilərindən olar".

## Peyğəmbərin (s) yuxusu və lənətlənmiş ağac

Qurani-Kərimin təfsirçiləri tərəfindən "Peyğəmbərə (s) göstərilmiş yuxu", habelə Qurani Kərimdə "lənətlənmiş ağac" barəsində müxtəlif fikirlər irəli sürülmüşdür.

Ancaq Quran ayələri və Əhli-beyt (ə) hədislərinə daha çox uyğun gələn nəzər Peyğəmbərin (s) gördüyü məşhur yuxuya əsaslanır.

Bir gün Peyğəmbər (s) yuxusunda meymunların onun minbərinə çıxıb-düşdüklərini görür və O, bu yuxudan sonra çox narahatlıq hissi keçirir, qəm-qüssəyə batır və bu yuxudan sonra təbəssümü belə azalır.

Peyğəmbərin (s) bu yuxusu "Əməvilər sülaləsi"nin hakimiyyətə gələcəyinə, onların bir-birinin ardınca Peyğəmbər(s) minbərinə çıxacaqlarına bir işarə idi.

Əməvi hakimləri şəxsiyyətsiz, İslam hökümətini və Allahın rəsulunun (s) canişinliyini cinayətkar bir rejimə çevirmiş insanlar olmuşlar. Əksər şiə və sünni alimlərinin təfsirlərində "lənətlənmiş ağac" deyilərkən "Əməvilər sülaləsi"nin nəzərdə tutulduğu qeyd edilmişdir. Bu izah Peyğəmbərin (s) yuxusu ilə bağlı təqdim edilmiş izaha uyğundur.

"Əməvilər" Qurani-Kərimdə lənətlənmiş ağac kimi verilmişdir. "İbrahim" surəsinin 36-cı ayəsində isə "çirkin ağac"dan söhbət açılmışdır ki, bunun da "Əməvilər sülaləsi"nə aid olduğu deyilir.

Bu ifadənin ehtiva etdiyi məzmuna və burada "Əməvilər sülaləsi"nin nəzərdə tutulduğunu ifadə edən hədislərə

görə, məna baxmından “pis” sözü ilə “lənətlənmiş” sözlərinin qarışılıqlı əlaqəsinə əsasən, Quranın məhz həmin ayəsində “lənətlənmiş ağac”a işarə edildiyini demək olar.

“Pis söz” deyəndə - xəbis və çirkin olan bütün anlayışları əhatə etməklə, bəyənilməyən danışıq, azdırıcı və səhv istiqamətlər habelə çirkin əməlli insanlar nəzərdə tutulur.

Bəzi hədislərdə çirkin “Əməvi sülaləsi” və ya Əhli-beyt (ə) düşmənləri bu ağacın bir nümunəsi kimi hesab edilmişlər.

Allah-təala Qurani Kərimin “İsra” surəsinin 60-cı ayəsində buyurur:

وَإِذْ قُلْنَا لَكَ إِنَّ رَبَّكَ أَحَاطَ بِالنَّاسِ ۚ وَمَا جَعَلْنَا الرُّؤْيَا الَّتِي أَرَيْنَاكَ إِلَّا فِتْنَةً لِلنَّاسِ وَالشَّجَرَةَ الْمَلْعُونَةَ فِي الْقُرْآنِ ۚ وَنُخَوِّفُهُمْ فَمَا يَزِيدُهُمْ إِلَّا طُغْيَانًا كَبِيرًا

“(Xatırla,) o zaman ki, sənə dedik: Həqiqətən, Rəbbin insanları əhatə etmişdir. Sənə göstərdiyimiz röyanı və Quranda “Lənətlənmiş ağac”ı xalq üçün yalnız sınaq qərar verdik. Biz insanları qorxuduruq, amma bu (Bizim xəbərdarlığımız) onlarda tüğyan və azğınlıqdan başqa bir şey artırmır”.

Rəvayətlərdə qeyd olunduğuna görə, Əhli-beyt (ə) buyurmuşdur:- “Biz Salehin (ə) dəvəsindən əskik deyilik, bizə qarşı düşmənçilik fəlakətlə nəticələnər”. (“Biharul-ənvar” c. 28, s. 206; c.50, s.192).

Dəvə adi bir heyvandır. Amma Allah-təala Saleh peyğəmbərin (ə) dəvəsi haqqında "Allahın dəvəsi" təbirini işlədir. Çünki Allaha aid olan hər şey müqəddəsdir. Buyrulduğu kimi, Qurani-Kərimdə hətta Əbu-Ləhəbin adına belə dəstəmazsız toxunmaq olmaz.

60-cı ayədə isə Peyğəmbər (s) Əhli-beytinin (ə) qatili olmuş "məlun ağac"dan söz açılır.

Quranı Kərimin bəzi ayəsində İslam Peyğəmbərinin (s) bir neçə yuxusuna da işarə olunur:

"Bədr döyüşü" astanasında Allah düşmənləri Peyğəmbərə (s) röyada azsaylı göstərildi. ("Ənfal" surəsi, 43-cü ayə).

Digər bir röyada isə həzrət "Məscidül-Həram"a qalib halda daxil olduğunu görür. ("Fəth" surəsi, 27-ci ayə).

Allah, "lənətlənmiş ağac" və onların əməllərini Peyğəmbərə (s) yuxuda göstərdi. Bildirildi ki, bu, ümmətinin fitnə səbəbidir. "Rəbbin insanları əhatə edir" cümləsi ilə Peyğəmbərə(s) təsəlli verildi.(İsra 60)

"Şəcərə" həm ağac, həm də budağı olan hər hansı gövdə mənasını bildirir. Bu mənada qəbilə və tayfa da şəcərə anlamında işlənilir.

Həzrət Peyğəmbər (s) buyurur: "Mən və Əli bir şəcərəyik." ("Biharul-ənvar"38, s.309). Əsil-nəsil silsilə də "şəcərənamə" adlanır. Deməki, "lənətlənmiş şəcərə" (ağac) dedikdə, "lənətlənmiş qövm" *(yəni Bəni-Üməyyə tayfası)* nəzərdə tutulur.

Ayənin sonunda isə "lənətlənmiş ağac"la bağlı ilahi xəbərdarlıq və düşmənlərin tüğyanının artdığı bildirilir. "Tuğyanən kəbira" təbiri yalnız bu ayədə işlədilmişdir. Demək burada, bir "lənətlənmiş ağac"dan, qövmdən danışılır. Bu qövm zahirən müsəlman olsa da, daxilən müna-

fiqdir və xalq arasında fitnəyə səbəb olur.

Qurani Kərimdə İblis, yəhudilər, münafiqlər, müşriklər, haqqı gizlədən alimlər, Peyğəmbərə (s) əziyyət verənlər və s. lənətlənmişlər.

Bəziləri, "lənətlənmiş ağac" dedikdə, ilahi əzab vasitəsi olan Zəqqum ağacına işarə olunduğunu düşünürlər.

Amma əzab vasitəsi olan başqa amillər də var və bu səciyyə lənətlənmə göstəricisidir. Buna misal, Fironun qərq olduğu Nil çayı, yolunu azmış qövmlərə (Ad və Səmud) əzab gətirən mələklər, Allahın qüdrəti ilə kafirləri məhv edən möminlər göstərilə bilər. ("Tövbə" surəsi,14-cü ayə).

Əllamə Təbatəbai "Qədr" surəsi ilə bağlı rəvayətlərdən danışarkən Xətib Bağdadi, Termizi, İbn Cübeyr, Təbərani, Beyhəqi, İbn Mərdəvey kimi sünni, "Kafi" kitabının müəllifi Şeyx Kuleyni kimi şiə alimlərindən belə nəql edir:

Həzrət Peyğəmbər (s) yuxuda öz minbərində meymunların yuxarı qalxdığını görüb çox qəmgin oldu. Bu zaman Cəbrail (ə) nazil oldu. Rəsuli-Əkrəm (s) öz yuxusunu ona danışdı. Vəhy (yuxu) mələyi Cəbrail (ə) səmaya qalxıb çox keçməmiş qayıtdı və özü ilə "Şüəra" surəsinin 205-207-ci ayələrini gətirdi:

*"Görmürsənmi, əgər onlara illər uzunu bəhrə versək, sonra vəd olunmuş əzab soraqlarına gəlsə, dünyadan aldıqları bəhrənin heç bir faydası olmayacaq".*

Peyğəmbərin (s) bu yuxusu həm də "Qədr" surəsinin nazil olma səbəblərindən biri oldu. "Qədr" surəsi Peyğəmbərə (s) həm də təsəlli idi. Vəhy mələyi Cəbrail (ə) Ona demişdi ki, əgər Bəni-Üməyyənin hakimiyyəti min ay çəkərsə belə, əvəzində sənə min aydan üstün "Qədr gecəsi" əta olunub.

Peyğəmbərin (s) yuxuda meymunları görməsi, onların

Peyğəmbərin (s) minbəri ilə yuxarı qalxaraq hakimiyyəti ələ keçirmələri məsələsi İmam Baqir (ə) və İmam Sadiq (ə) tərəfindən də şərh olunmuşdur.

"Təfsiri-Tibyan" şiə və sünni təfsirçiləri bildirirlər ki, "lənətlənmiş ağac" (şəcərə) dedikdə Bəni-Üməyyə tayfası nəzərdə tutulmuşdur.

İmam Səccad (ə) buyurur: "Cəbrail (ə) meymunları Bəni-Üməyyə qövmü kimi yozdu. Peyğəmbər (s) soruşdu: "Bu hadisə mənim dövrümdəmi baş verəcək?" Cəbrail (ə) cavab verdi: "Xeyr, sənin hicrətindən qırx il sonra!" ("Təfsiri-Lahici").

Bəni-Üməyyə arasında ən böyük tüğyan qoparmış, Kərbəla hadisəsini vücuda gətirmiş şəxs Yezid (l) idi. Bu, tarixin ən böyük faciəsidir[1].

---

[1] Ayətullah Möhsün Qiraəti "NUR TƏFSİRİ" cild VII-VIII, səh.61-63.Bakı, "Nurlar"NPM- 2015.tərcümə edən Hacı Arzu

## Xanım Rüqəyyə (s.ə) kimdir

Bəni-Ümməyyə xəlifəsi Müaviyənin (l) ömrünün son illəri idi, müsəlman cəmiyyətinin üzərinə fəsad kölgəsi düşmüşdü. Rüqəyyə (s.ə) adlı bir qızın dünyaya gəlməsi İmam Hüseyn (ə) ailəsinə sevinc gətirdi. İmam qısa müddət də olsa, qızının dünyaya gəlməsinə görə sevinmişdi. Yorğun simasında təbəssüm görünmüşdü. Bu, o zaman idi ki, Ali Muhəmmədi (s) və İmam Əlini (ə) təhqir edirdilər. Riya və yalan artmışdı. Hətta heç kim öz gözünə belə etimad etmirdi. Bütün bu qəmlər İmamın qəlbini incidirdi. Bütün hiylələrinə baxmayaraq, Müaviyə ölüm mələyi qarşısında çarəsiz qaldı və ölüm xəbərini eşidəndə təslim oldu. Onun yerini şəhvətpərəst oğlu aldı.

Tarixin yazdığına görə, Rüqəyyənin (s.ə) anası Ümmi İshaq idi. O, əvvəl İmam Həsəni-Müctəbanın (ə) həyat yoldaşı olmuşdu. İmamın vəsiyyəti ilə İmam Hüseynlə (ə) nigah bağlamışdı. Bu xanım İslamın fəzilətli xanımlarından sayılır. “Rüqəyyə” sözünün mənası yuxarı getmək deməkdir. Tərəqqi sözündən götürülmüşdür. Deyilənə görə, bu ad Həzrətin ləqəbi olmuşdur. Əsil adı isə Fatimə idi. Belə ki, Rüqəyyə adı İmam Hüseynin (ə) qızlarının arasında çox az rast gəlinir. İmam Hüseynin (ə) övladlarının iki adı olmuşdur. İmam Hüseyn (ə) dünyaya gələn oğlanları-

nın adını atasına ehtiram olaraq, "Əli" və qızlarının adını isə anasına ehtiram olaraq, "Fatimə"qoyardı. Həzrət Rüqəyyə (s.ə) elə bir ailədə dünyaya gəlmişdi ki, ailə üzvlərinin hamısı fəzilət əhli idilər. Böyük əxlaqi dəyərlərə malik idilər. O, elə bir ailədə böyümüşdü ki, orada hamı İmam Hüseynin (ə) mərifət bulağından su içirdilər. Bu ailədə Əbəlfəzl Abbas (ə), Əliəkbər (ə), Əli ibni Hüseyn (ə) böyümüşdü. O, qısa ömründə bu böyük insanın ətəyində tərbiyə almışdır. İmam Hüseynin (ə) qızlarının sayı haqqında nəzərlər fərqlidir. Bəziləri İmamın (ə) iki qızının olduğunu, yəni, Səkinə və Fatimə olduğunu söyləyirlər, bəziləri isə 8 qızı olduğunu iddia edir. Bəziləri də üç qızının. Tarix kitablarının bir çoxunda isə Rüqəyyə adı heç çəkilməmişdir. Buna səbəb onun tez dünyadan getməsi və qısa ömürlü olması ola bilər ki, tarixçilərin gözündən yayınmışdır. Əgər Əli Əsqəri (ə) İmam Hüseyn (ə) döyüşdə düşmənə nişan verməsəydi və o körpə də şəhid olmasaydı, şübhəsiz onun da adı tarixə düşməyəcəkdi. Ancaq hədislərə nəzər salanda görmək olur ki, İmam Əhli-beyti (ə) ilə vidalaşanda buyurur: "Bacılarım Ummi Gülsüm və Zeynəb, ey Rüqəyyə, Fatimə və Rübab! Sözlərimi nəzərə alın, o zaman ki, məni öldürəcəklər, mənə görə üzünüzü cırmayın, nalayiq sözlər deməyin".Rüqəyyənin kiçik Fatimə olduğu haqda tarixi bir mövzuya işarə edək. Kufə əhalisindən olan bir nəfər nəql edir: "O zaman ki, Əhli-beyti (ə) Kufəyə daxil etdilər, nizə aparanlar şəhidlərin başlarını aparırdılar. Zeynəb (s.ə) bunları gördü və ürəkyanğısı ilə şeir deməyə başladı. Şeirin məzmunu belə idi: "Ey mənim ayım ki, indi bütöv olmusan. Ey ürəyimin parası! Güman etmirdim ki, bir gün sənin müsübətini görə bilərəm. Qardaşım, qızın Fatimeyi-Suğra ilə danış ki, qəlbi qüssədən üzülür. Niyə

mənimlə bu qədər mehriban deyilsən? Bu, qızın üçün çox çətindir. Atasını çağırır, ancaq o, cavab vermir”. Bu deyilənlərdən də aydın olur ki, Rüqəyyə həmin kiçik Fatimədir. Həmin kiçik Fatimədir ki, Şam xarabasında canını verir və dünyasını dəyişir. İmam Hüseynin (ə) üç-dörd yaşlı bu qızı Şamda yatarkən yuxuda atasını görür. Ayılan zaman çox ağlayır və atasını istəyir. Xəbər Yezidə (l) gedib çatır və o, əmir edir ki, İmamın (ə) müqəddəs başını onun yanına aparsınlar. Rüqəyyə (s.ə) atasının başını görəndə çox narahat və qəmgin olur. Canını tapşırır. Əlbəttə, onun ölümü tarixçilər arasında eyni cür bəyan edilmişdir. Onun hərəmi Dəməşqdə Əməvi məscidinin yanında yerləşir.

## Həzrəti-Rüqəyyənin (ə) həyatı

*Yaz ey qələm, ölməz Rüqəyyə!*
*Vurub Şamə ələm, ölməz Rüqəyyə!*
*Edib Allah özü təxmin bəqasın*
*Ki, Zəhraya qəsəm ölməz Rüqəyyə!*

*(Kəlami Zəncani)*

Həzrəti-Rüqəyyə (s.ə) hicri qəməri 59-cu ildə Mədinə şəhərində dünyaya gəlmişdir. Atası İmam Hüseyn (ə), anası Ümmi-İshaqdır.

"Rüqəyyə" sözünün mənası "balaca, kiçik" deməkdir. "Ruqyətun" "yüksəliş, ovsunlamaq" mənasını verir. "Ruqyətun" feildir, "Ruqəyyətun" feildən çıxarılan isimdir. Necə ki, "Əl-Qiraəti" sözündən "Quran" çıxarılıb. "Həsənun" feildir, "yaxşı olmaq" mənasını verir, "Yə"-samitini əlavə etməklə, ondan Hüseyn çıxarılıb.

"Rüqəyyə" feildən alınan isimdir, yəni insanları ovsunlamaq. "Rüqəyyə" sözünün müstəqil mənası yoxdur, isim kimi onu feildən çıxarıblar. Bu səbəbdən də "Rüqəyyə" sözü lüğətdə "yuxarı və yuxarı aparmaq, tərəqqi etmək" mənasındadır.

Hicri-qəməri təqvimi ilə 61-ci ildə atası ilə birlikdə Kərbəlaya səfər edən zaman Rüqəyyənin (ə) 2 yaşı olduğu deyilsə də, bəzi rəvayətlərə əsasən həmin vaxt onun üç ya-

şı olduğu da qeyd edilir.

Allah-təala İmam Hüseynin (ə) həm özünü,həm də ata-anasını məsum yaratmışdır. Uca Tanrı İmam Hüseynin (ə) atasını Əli (ə) və anasını Fatimə (s.ə) adları ilə adlandırmışdır. Əli (ə) adı Allahın (c.c) Əliyyul-Əla, Fatimə (s.ə) adı isə Allahın (c.c) Fatir adından götrülmüşdür. Allah-təala bu iki məsum şəxsləri bu mübarək adlarla (Əli-Fatimə) adlandırdığı üçün, Allahın vəlisi olan İmam Hüseyn (ə) də öz övladlarını bu adlarla adlandırmışdır. Çünki İmam Hüseyn (ə) bu adların həqiqətini bilirdi.

Həzrəti Rüqəyyənin (ə) də adı Fatimə olub və İmam Hüseynin (ə) kiçik qızı olduğu üçün onu Fatimeyi-Suğra (ə) çağırılmışdır.

Cənubi Azərbaycan şairlərindən biri Qulaməli Azəri Həzrəti Rüqəyyəni (ə) vəsf edərkən onu nənəsi Zəhraya (ə) bənzədir:

*Rüqəyya, ey gözüm nuru, işıqlı ayə bənzərsən,*
*Yanıqlı sözlərin vardır, anam Zəhrayə bənzərsən!*

*Qızım, salma məni dərdə, bu qədər tökmə göz yaşın,*
*Yatammırsan quru yerdə, gətir qoy sinəmə başın.*
*Sənin qüssən, bala, çoxdur, ölüb istəkli qardaşın,*
*Gözün yolda qalıb yoxsa, bacın Suğrayə bənzərsən!*

İmam Hüseyn (ə) Həzrəti Rüqəyyəni (s.ə) çox sevər və gecələr onu öz qucağında yatızdırarmış. Şair şeirdə buna işarə edir.

Kərbəla hadisəsi İslam dinini canlandıran və həmişə üzdə saxlayan, ona yenidən ruh verən bənzərsiz bir hadisədir. Bu hadisə Qiyamətə kimi mahiyyətini itirməyəcək və

İslam dinini təhrif olunmaqdan qoruya biləcək bir istinadgah olmalı idi.

Ona görə də bu hadisənin iştirakçıları ilahi insanlar, bütün müsibətlərə səbrlə dözməyi bacaran, Allahın qüdrətindən başqa heç bir qüvvə qarşısında baş əyməyən, təkcə Allaha təslim olub, həmişə Onun hökmünə razı olan, hər harda olmalarından asılı olmayaraq, öz məntiqli sözləri və əməlləri ilə əsil İslam dinini, Peyğəmbəri (s) və Əhli-beyti (ə) insanlara tanıdan və xalqı hidayət edə bilən şəxslər olmalı idilər.

Bu xüsusda Kərbala hadisəsi tarixində çoxlu şəxslərin adı çəkilir ki, onlar bu hadisədə iştirak edə bilmədilər və ya onların buna ləyaqətləri çatmadı.

Amma üç yaşlı Həzrəti Rüqəyyə (s.ə) bu işə layiq idi, necə ki, biz tarixi mənbələrdən bunun şahidi oluruq.

Həzrəti Rüqəyyənin (s.ə) bərəkətindən, Əhli-beytin (ə) tanınmadığı və həqiqi İslamdan uzaq düşmüş bir məkanda – Kufədə İslam insanlara olduğu kimi tanıtdırıldı.

Hətta, möminlər ağası Həzrəti Əli (ə) Kufədəki məsciddə namaz üstə səcdədə olan zaman zərbətlənib şəhadətə yetirildikdə, camaatın "məgər Əli (ə) namaz qıla bilir ki, məscidə gedib" deyilən belə bir yerdə, Əhli-beyti (ə) tanıdılar və həqiqi İslamdan xəbərdar oldular, Əhli-beytin (ə) məzlumiyyətinə göz yaşı tökdülər.

İndinin özünə qədər minlərlə insan (hətta xristian və yəhudi), xanım Rüqəyyənin (s.ə) bərəkətindən İslama iman gətirmiş və Əhli-beytin (ə) aşiqinə çevrilmişlər.

Camaatı "məgər Əli (ə) namaz qıla bilir ki, məscidə gedib" deyən bir şəhərin-Kufənin, məscidlərinin minarələrindən bu gün *"Əşhədu ənnə mövlana Əmirəl-muminunə Əliyyən-vəliyyullah"* kəlamı səslənməkdədir.

## Ahu balası

Yuxarıda qeyd edildiyi kimi, Kərbəla vaqiəsindən sonra Ali Mühəmməd (s) əsirlərini divarları uçmaq üzrə olan bir xarabalıqda yerləşdirməklə düşmən, əsirlərin işgəncələrinin daha da artıq olmasını və onların heç bir asayiş və əmniyyətlərinin olmamasını istəyirdi.

Bir gün Əba Əbdillah Hüseynin (ə) kiçik qızı Rüqəyyə, xaraba kənarında əyləşmişdi. Bu zaman əlində ahu balası aparan bir ovçunu gördü. Ahunu istəyirəm deyə, ağlamağa başladı.

Şamlılar ovçunun ətrafını dövrələyərək ahunu ondan almaq üçün hərəsi bir qiymət təklif etdi ki, beləliklə də, ahunun qiyməti həddindən çox yuxarı qalxdı.

Şamlılar bu hərəkətləri ilə Əhli-beyt (ə) əsirlərini aciz və imkansız göstərmək istəyirdilər. Bunu görən İmam Səccad Zeynul-Abidin (ə) ovçuya yaxınlaşıb, onun qarşısındakı torpaqdan bir ovuc götürdü və ovçuya verdi.

Ovçu, torpağı İmam Səccadın (ə) əlindən aldı və baxanda torpağın qiymətli cəvahirata çevrildiyini gördü. Ovçu İmamdan (ə) bu kəraməti görərkən, aciz qalaraq ahu balasını Əba Əbdillah Hüseynin (ə) qızı Ruqəyyəyə (ə) verdi.

Ovçu bu gördüyü möcüzəni bazarda camaata nəql etdi ki, bu xəbər də dildən-dilə gəzərək, tezliklə Yezidin qulağına çatdı. Yezid bu xəbəri eşicək, ovçunun boynunun vurulmasını əmr etdi. Ovçunun öldürülmək xəbəri İmama

çatdıqda, həzrət onun qəbrinin kənarına gəldi və Allahın istəyi ilə onu diriltdi.

## İmam Hüseynin (ə) Həzrəti-Rüqəyyə (ə) ilə vidalaşması

Yezid qoşununun tərkibində döyüşən və ön sıralarda yer almış Hilal ibn Nafe adlı bir əsgər, İmam Hüseyn (ə) Aşura günü öz Əhli-beyti (ə) ilə vidalaşdıqdan sonra döyüş meydanına tərəf gedən zaman balaca bir qız uşağının xeymədən çıxdığını gördü. Hilal ibn Nafe “Mən bu qızın kim olduğunu soruşanda, onun İmam Hüseynin (ə) kiçik yaşlı qızı Rüqəyyə olduğunu söylədilər”.

Ravi (rəvayət edən) nəql edir ki, İmam Hüseyn (ə) şəhadətə yetdikdən sonra, Həzrəti Rüqəyyə (s.ə) atasının qanına qərq olmuş mübarək vücudunun kənarında oturaraq, gah onun çiynindən öpür, gah onun barmaqlarını ürəyinin üstünə qoyur, gah gözlərinin üstünə çəkir, gah da əllərini atasının qanına bulayaraq, üzünə-gözünə çəkir və deyirdi: “Ey camaat! Bu gün getmək istəyirsinizsə, gedin və bu qadınları da özünüzlə aparın, amma məni atamın yanında qoyun. Çünki, mən kiçik bir uşağam və dəvəyə minməyə taqətim yoxdur. Mənimlə yaxşı rəftar edin və atamın qana qərq olmuş bədəninin yanında tənha qoyun ki, göz yaşlarımla və nalələrimlə atamın müsibətində əzadarlıq edim. Bu halda ölsəm də qanım sizin boynunuza olmaz.”

Ravilər nəql edirlər ki, daşürəkli düşmənlərdən biri zorla Həzrəti Rüqəyyəni (s.ə) atasının pak bədəni üstündən qaldırmaq istəyərkən, o məzlumcasına atasının parə-parə

olmuş bədəninə pənah apararaq ona sığınır. Ata onu bağrına basır. Kafir Həzrəti-Rüqəyyəni (s.ə) zorla çəkib atasının nəşindən uzaqlaşdırmaq istəyir. İmam Hüseynin (ə) mübarək qollarına nə qədər vurursa da qollar açılmır. Şimr deyir ki, Hüseyni (ə) nə qərər vursan da o qızından əl çəkməz, sən qızı vur ki, Hüseyn (ə) onu buraxsın. Elə də olur. Rüqəyyəyə taziyanə vurmaq istəyəndə İmam Hüseynin qolları açılır və qızı onun qucağından götürürlər.

Həzrəti Rüqəyyə (s.ə) atasının parə-parə olmuş bədəninə xitab edərək, belə deyir: "Atacan, səndən sonra gecələr kim məni himayə edəcək və məni qoruyacaq, keşiyimi çəkəcək? Ey mehriban ata! Düşmənlər mənim sırğalarmı və libaslarımı qarət etdilər. Bizim örtüksüz başımızı və yanmış ciyərlərimizi görmürsənmi? Ey ata! bibim Həzrəti Zeynəbə (s.ə) baxmırsanmı ki, düşmənlər onu taziyanə ilə nə qədər döyüblər?"

Bəzi rəvayətlərdə belə nəql edilir ki, Aşura günü Həzrəti-Səkinə (ə) üç yaşlı bacısı Rüqəyyəyə müraciətlə deyir: "Gəl atamızın ətəyindən tutaq və onu döyüş meydanına getməyə qoymayaq. O meydana getsə, onu öldürəcəklər. İmam Hüseyn (ə) qızlarının söhbətini eşidəndə çox narahatlıq keçirir.

Bu vaxt Rüqəyyə (ə) səslənir: "Ata, sənin getməyinə mane olmaram, amma səbr elə, səni görüm". İmam Hüseyn (ə) onu qucağına alaraq onun susuzluqdan quruyan dodaqlarınbı öpür. Rüqəyyə bir daha atasına müraciətlə: "Ata, çox susuzam, susuzluq ciyərimə od vurub. İmam Hüseyn (ə) ona buyurur ki, qızım, xeymənin kənarında oturub məni gözlə, mən gedib sənə su gətirim.

İmam Hüseyn (ə) ayağa durub, meydana tərəf getmək istədikdə, Rüqəyyə (ə) yenə də atasının ətəyini tutub, ağla-

ya-ağlaya:" Atacan, hara gedirsən? Nə üçün bizdən ayrılırsan?” deyə hönkürür. İmam (ə) bir də o körpə balasını qucağına alaraq sakitləşdirməyə çalışır...

Rəvayət edilir ki, Kərbəla hadisəsindən sonra, bir gün Yezid Şimrdən soruşur: “Sənin Kərbəlada Hüseynin (ə) halına ürəyin yanan bir məqamın oldumu?”

Şimr deyir: “Neçə yerdə ürəyim Hüseynin halına yanıb. Ürəyimi yandıran hallardan biri də o zaman idi ki, İmam Hüseyn (ə) son vidasında xeymənin qapısının kənarına gələndə, balaca qızı qolunu onun boynuna salaraq, “vay atacan” deyə qışqırdı. Kiçik Rəqiyyənin bu fəryadı hamının ürəyinə od saldı.

## Şamlı qızın Həzrəti-Rüqəyyə (s.ə.) ilə söhbəti

Ali-Muhəmməd (s) əsirləri nəhayət ki, Şama çatdılar. Bu əsirlərin tərkibi ərlərini və cavanlarını əldən vermiş qadınlar, qardaşlarını itirmiş bacılar, atalarını itirmiş qızcığazlardan ibarət idi. Şam şəhərinə daxil olan bu insanlar, təsəlli əvəzinə, yerli insanlar tərəfindən dəf və tənbur musiqisi, alqış (əl çalma) və rəqslərlə qarşılandılar. Onlara edilən tənələr, rişxəndlər onsuz da ürəkləri yaralı olan bu insanlara bir daha ağrılı-acılı anlar yaşatdı. Onların gördükləri müsibətlər, işgəncələr və əziyyətlər qarşısında, uzun və ağrılı yol yorğunluğu nəticəsində əldən düşdükləri halda, təsəlliyə, dildarlığa və təskinliyə ehtiyacları olduğu halda, Şam əhli evlərin üstündən onların başına toz-torpaq, kül tökür, üzərilərinə qışqıraraq, nalayiq sözlərlə lağ eyləyirdilər. Kərbəla əsirlərini divarları uçuq, döşəməsi, tavanı və çırağı olmayan, bir xarabada yerləşdirdilər.

Bir gün Həzrət Əba Əbdillah Hüseynin (ə) qızı Rüqəyyə (s.ə) xaraba kənarında oturub çölə tamaşa etməklə, bəlkə də, keçirdiyi iztirablarını bir anlığa unutmağa çalışarkən, Şam əhlindən olan, az yaşlı bir qız gəlib, ona yaxınlaşaraq yanında oturur və onunla söhbət etməyə başlayır. Şamlı qız Rəqiyyə xanıma müraciət edib, niyə çöhrən göyərib, üzün saralıb, bu qədər zəif və gücsüzsən, ayağın tikanla doludur və yaralıdır? – deyə soruşur, Xanım Rüqəyyə də (ə) Kərbəla çölündə çəkdikləri müsübətdən, atasının necə şəhadətə yetirilməsindən, yol boyu başına gələn hadisələrdən, düşərgələrdə onlara verilən yeməyin çox az ol-

masından, yol boyu ona nə qədər sili vurulmasından və s. şamlı qızına ətraflı məlumat verirdi.

Səhərisi gün günortadan sonra şamlı qız yenə xarabaya gəlir, Rüqəyyəni (s.ə) görmədikdə, əsirlərdən o surəti göyərmiş, ayaqları yaralı və tikanla dolu, aclığın şiddətindən rəngi saralmış və çox zəifləmiş qızı – Rüqəyyəni (s.ə) soruşanda, "sənin onunla nə işin var?" sualı ilə qarşlaşır.

Şamlı qız dünən Rəqiyyənin (s.ə) başına gələnlər barədə ona danışdığını dilə gətirərək, bu hadisələrdən təsirlədiyini və onun yanında olub təsəlli vermək istədiyini bildirir. Belə olanda əsir qadınlardan biri irəli gələrək dedi: "Qız ki, deyirsən ayağı tikanla dolu idi, qız ki, deyirsən çox zəif idi, qız ki, deyirsən ac olduğunu deyib, qız ki, deyrsən bədəni döyülməkdən qaralıb, qız ki, deyirsən ey şamlı qız, o, dünən gecə can verdi və atasına qovuşdu..."

Azərbaycan klassik ədəbiyyatının görkəmli simalarından biri, irfan ədəbi məktəbinin təsiscisi hesab olunan, Əhli-beyt (ə) şairi, İmam Hüseyn (ə) aşiqi mövlanə Məhəmməd Baqir Füzuli Bağdadi **"Hədiqətüs-şühəda"** ("Xoşbəxtlər bağçası") əsərində Həzrət Rüqəyənin (ə) faciəsini belə qələmə alıb: **"Kənzül-qəraib"**də nəqldir ki, Yəzid Əhli-beytə öz sarayında bir mənzil təyin etmişdi. Həzrəti-İmam Hüseynin (ə) 4 yaşında bir qızı var idi. O Həzrət şəhid olduqdan sonra hər gün soruşardı ki, **"eynə əbi"** (Atam hardadır?). Müxtəlif üsullarla onu sakit edərdilər. O qız bir gecə atasını yuxusunda görüb, iztirabla oyanıb fəryad etdi ki **" eynə əbi".** Onun səsindən Yəzid oyanıb səbəbini soruşduqda onun halını ərz etdilər. Yəzid dedi: "Hüseynin (ə) başını ona göstərin ki, sakit olsun". Həzrəti İmamın mübarək başını bir qabda o körpənin hüzuruna gətirdikdə dedi: "Bu nədir?" Dedilər: **"Həzə əbu-**

**kə”** (Bu atandır). O körpə baxdıqda biixtiyar üzünü-üzünə sürtüb, ah çəkib canını tapşırdı. Əhli-beyt (ə) xanımları o halı görüb matəmi təzələyib ağı söylədilər ki, Yəzidin sarayına zəlzələ düşdü.

**Şeir:**

*Artırırsan, ey fələk, övladi-Peyğəmbər qəmin,*
*Tazə eylərsən dəmadəm Əhli-beytin matəmin.*
*Tişeyi-bidad ilə hər dəm töküb bir daşını,*
*Vəh ki, viran eylədin şər`in binayi-möhkəmin.*

Yəzid bundan xəbər tutduqda, Əhli-beytə (ə) təzimlə başsağlığı verdi. Amma Ümmi-Gülsüm Yəziddən icazə istədi ki, saraydan kənarda bir mənzil ayırsınlar ki, Əhli-beyt (ə) orda yerləşib əzaya məşğul olsun. Yəzid ismət əhli üçün saraydan kənarda münasib mənzil ayırıb əmr etdi ki, qadınlar və Şamın böyükləri toplaşıb onlarla əzaya məşğul olunlar. Xülasə, matəm məclisi düzəldi, mərsiyələr oxundu, bu o mərsiyədəndir.

**Şeir:**

*Mətəm ricəli və əfnəl-məvtu-sadəti,*
*Və zadəni heyratun min bə`də ədəti.*

(Adamlarım öldü və ölüm böyüklərimi yox etdi. Məndən sonra məni ən çox heyrətə salan adətlərimdən uzaqlaşmadır).

*Ah kim, qıldı cəfa çərx vəfadarlərə,*
*Dağlar urdu dəmadəm dili-əfkarlərə.*
*Bunca məsumləri zarü giriftar etdi,*
*Heç rəhm eyləməyib zarü giriftarlərə.*[2]

---

[2] M.Füzuli “Hədiqətüs-sühada” Bakı,Gənclik nəş.1983.(səh.305-306)

## Həzrəti-Rüqəyyənin (s.ə.) şəhadəti

İmam Hüseynin(ə) üç yaşlı qızı Rüqayyə gecələrin birində aləmi-röyadə atasını görür.

O xanım, yuxudan ayılıb atasını yanında görməyincə hönkürtü ilə ağlamağa başlayır. Ondan ağlamağının səbəbini soruşduqda isə o atasının harda olduğunu dilə gətirərək, atamı- gözümün nurunu gətirin, deyir. Nə qədər təsəlli versələr də onu sakitləşdirmək mümkün olmur.

Belə olanda əhli-beyt (ə) özü də gecənin sükutunu pozub o balaca qıza qoşularaq, hamılıqla ağlamağa-nalə çəkməyə başlayırlar.

Onların nalə səsi o qədər ucadan gəlir ki, sədası lənətə gəlmiş bəni-Üməyyə xəlifəsi Yezidin (l) də qulağına çatır.

Tahir ibn Əbdillah Dəməşqi yazır: - "Mən Yezidin (Allahın lənəti olsun ona) xadimi idim və bir çox hallarda gecələr onun üçün müxtəlif mövzulu söhbət edər və onun başını qarışdırardım.

Bir gecə də yenə o məlunun yanında idim. Gecədən bir qədər keçmişdi. Birdən o mənə - ey Tahir!-deyə müraciət edərək, bu gecə vəhşətin (qorxunun) ona qələbə çaldığını, bu üzdən ürəyinin döyündüyünü, qəlbinin hüznlə dolduğunu deyərək, qəm-qüssə içində çarpışdığından, oturaraq söhbətlərə qulaq asmağa taqəti belə olmadığından, onun həyata keçirdiyi pis əməllərdən danışmamağı və başını dizimin üstünə alaraq ona nəvaziş göstərməyimi tələb elədi. Mən onun nəhs (ləyaqətsiz) başını dizimin üstünə aldım və o məlun yuxuya getdi.

Bu vaxt şəhidlər sərvəri, İmam Hüseynin (ə) nurani başı qızıl teştdə bizim qarşımızda idi.

Bir az sonra isə İmam Hüseynin (ə) hərəmlərinin yerləşdiyi xərabadan nalə səsləri ucalsa da Yezid (l) şirin yuxudaidi. Mən isə nalələrin sədası altında, İmam Hüseynin (ə) mübarək başına baxa-baxa, qəm dəryasına batmış, nə edəcəyimi bilmir və məlun Yezidin (l) Əbu Türab övladlarına etdiyi bu zülmün insanlığdan-müsəlmançılıqdan çox uzaq olduğunu düşünürdüm.

Elə bu zaman İmam Hüseynin (ə) teştdəki qanlı başının gözlərindən yaş süzüldüyünün, bu nurani başın təxminən dörd zira (təqribən iki metr) yuxarı qalxaraq, mübarək dodaqlarının hərəkətilə, məsum və zəif bir səslə - "İlahi, bunlar mənim övladlarım, ciyərparələrim-səhabələrimdirlər" - deməsinin şahidi oldum.

Tahir gördüklərini nəql edərək yazır ki, “Mən İmamın (ə) bu halını müşahidə etdikdə dəhşətli qorxu hissi keçirərək özümdən aslı olmayaraq ağlamağa başladım. Əsirlər saxlanılan xərabə Yezidin sarayının arxasında idi. Rəsulullahın (s) Əhli-beytindən (ə) kiminsə dünyasını dəyişdiyini güman edib yerimdən qalxıb çıxdım.

Yezidin qəsrinin üstünə çıxdıqda Əhli-beytin (ə) hamılıqla balaca qız uşağını araya aldıqlarını və bu qızcığazın isə başına torpaq tökərək, fəğan edərək - "Ey bibi, ey atamın bacısı, atam haradadır, atam haradadır?" deyə nalə çəkdiyinin şahidi oldum. Mən onlara müraciət edərək, nə baş verdiyini, ağlamalarının səbəbini soruşanda, “Şəhidlər sərvərinin qızı atasını yuxuda görüb, ayılandan bəri bizdən atasını istəyir, nə qədər təsəlli versək də aram olmur” söylədilər.

Tahir yazır ki, mən bu mənzərəni gördükdən sonra Ye-

zidin otağına qayıdarkən, bədbəxtin Hüseyn ibn Əlinin (ə) başına baxa-baxa qorxusundan söyüd yarpağı kimi titrədiyinin şahidi oldum. Yezid məndən Əhli-beytin (ə) ağlaşmasının səbəbini soruşanda mən ona eşitdiklərimi söylədim. Belə olanda Yezid Hüseynin (ə) başını Əhli-beytə (ə) aparmağı əmr etdi ki, bəlkə bunula da o kiçik qızçığaz təsəlli tapmış ola.

Keşikçilər İmamın (ə) müqəddəs başı olan teşlə xarabanın qapısına gəldilər. Əhli-beyt (ə) İmam Hüseynin (ə) müqəddəs başının gətirildiyini gördükdə hamılıqla o başı qarşılamağa çıxdılar. Teştdə İmamın (ə) başını gördükdə onu dövrəyə alaraq ona matəm tutdular. Məxsusən, İmamın (ə) bacısı Zeynəbi-Kübra (ə) o mübarək başın dövrəsinə pərvanə kimi dolanırdı. Rüqəyyə (ə) atasının qanlı başını teştdən götürərək bağrına sıxıb ağlayaraq, bibisi Zeynəbə (ə) üz tutdu:

*Bir zibh olunan baş mənə mehman gəlib, əmmə,*
*Dərmansız olan dərdimə dərman gəlib, əmmə.*

-deyib, fəryad edərək, mübarək başa ürək sözlərini, Kərbaladan Şama qədər yol boyu düşərgələrdə çəkdiyi müsibətləri söyləməklə - “Atacan, ey kaş mən sənə fəda olaydım və sənin mübarək saqqalının qana boyanmasını görməyəydim”-deyirdi. Məzlumə qız, dodaqlarını atasının dodaqlarına söykəyərək, ağlamaqdan huşunu itirdi.

Şair yazır:

*Çağır gəlsin anamız Fatimeyi - Zəhranı,*
*Gətirsin bu əzaya Xədiceyi - Kubranı.*
*Şəhid olub Hüseynim, o Kərbəla Sultanı,*

*Əhmədin də göz yaşı rəvandı ya Muhəmməd!*
*Gəl gör Kərbübəlada nə qandı, ya Muhəmməd!*
*Özün yetiş haraya, amandı ya Muhəmməd!*[3]

Həzrəti Rüqəyyə (s.ə) hicri-qəməri tarixi ilə 61-ci il Səfər ayının 5-də Şam şəhərində əsirlikdə olan zaman şəhadətə çatır və Şam şəhərində də torpağa tapşırılır ki, onun qəbri Müqəddəs Ziyarətgah olaraq dövrümüzə qədər qorunub saxlanılmaqdadır.

Onu da qeyd etmək yerinə düşər ki, bu əzəmətli xanım Allah tərəfindən "Babül-həvaic" (Hacətlər qapısı) kimi tanınmışdır.

Həzrət Rüqəyyənin (s.ə) şəhadəti Şam əhlini qəflət yuxusundan oyadır və Şamın xarabasında Həzrət Rüqəyyənin (s.ə) ürək yandırıcı şəhadətindən sonra Əhli-beyt (ə) xanımları əsirlikdən əzad olunurlar.

O gün, Şam şəhərinin bütün küçələrindən ağlamaq səsi eşidilir, Şam əhli qəflətdən oyanaraq, Rəsuli - Əkrəmin (s) Əhli-beytinin (ə) məzlumiyyətindən agah olurlar. Hətta bazar əhli tətil edərək, Ali-Əbaya (ə) əza saxlayırlar.

Şam əhli dilə gələrək, "And olsun Allaha ki, biz o başın Hüseyn ibn Əlinin (ə) başı olduğunu bilmirdik. Bizə o başın, Yezid əleyhinə çıxmış, bir nəfər xaricinin başı olduğunu demişdilər."

Şam camaatının məsələnin mahiyyətindən xəbərdar olması xəbəri Yezidə çatdıqda o, şəhər əhalisinin başını qatmaq, İmam Hüseyn (ə) müsübətinə kölgə salmaq, onu arxa plana keçirmək məqsədilə onlara məsciddə Quran cüzvlərinin paylanmasını və namazdan sonra Quran oxu-

2 Aşıq Əhməd Rüstəmov

malarını əmr etdi. Lakin Yezidin bütün bu cəhdləri İmam Hüseyni (ə) insanların yaddaşından çıxara bilmədi, əksinə bu müsibət şəhər camaatının hafizəsində dərin iz buraxdı...

*Yezidi bihəyalar çəkdi cümlə ləşkəri,*
*Oxladılar təşnələb, məşqi-ələm pərvəri.*
*Öldürdülər Qasimi, susuz Əliəkbəri,*
*Anası Ümmi- Leyla nalandır, ya Muhəmməd!*
*Gəl, gör Kərbübəladə nə qandı, ya Muhəmməd!*
*Özün yetiş haraya amandı, ya Muhəmməd!*

## Həzrəti-Zeynəbin (s.ə.) Şam əhlinə xitabı

*Yetmiş iki şühəda yerlə yeksan oldular,*
*Övrətlər Kərbəlada əsir olub qaldılar.*
*Ayaq yalın, baş açıq Şama yola saldılar,*
*Fəryadımız göylərə ucaldı ya Muhəmməd!*
*Gəl gör, Kərbəlada nə qandı ya Muhəmməd!*
*Özün yetiş haraya, amandı ya Muhəmməd!* [2]

Əhli-beyt (ə) Şamdan Mədinəyə qayıdarkən Şamın qadınları qara geyərək, onları yola salırdılar. Hər tərəfdən onların nalə və ağlamaq səsləri gəlirdi və Əhli-beyt (ə) ilə vidalaşırdılar. Zeynəbi-Kübra (ə) bu fürsətdən istifadə edib, vida vaxtı birdən başını gəcavədən çölə çıxartdı və camaata xitab etdi: «Ey Şam əhli, bu xarabada bizdən bir əmanət qalıb. Hər vaxt onun qəbrinin kənarına getsəniz (o bu diyarda qəribdir) məzarının üstə su səpin və qəbrinin kənarında şam yandırın».

## Həzrəti-Rüqəyyənin (s.ə.) şəhadəti

Böyük müctəhid, mərhum Ayətullahul-Üzma Burucerdi 90 yaşında olarkən yazmışdır: “Bir vaxt Burucerd şəhərində yaşayırdım. Güclü göz ağrısına düçar olmuşdum. Müalicənin faydası olmadı. Get-gedə gözlərimdə ağrı artırdı. Məhərrəm ayı çatdıqda əzadarlıq məclisinə gedirdim. Müxtəlif yerlərdən dəstə-dəstə adamlar məclisə gəlirdilər. Dəstələrdən biri məclisə daxil olanda sanki mənəviyyat işığı gücləndi. Mən də bir kənarda oturub ağlayırdım və Kərbəla şəhidlərinə təvəssül edirdim. Bu vaxt həmin dəstənin ayaq tozundan götürüb gözümə çəkdim. Gözlərim sağaldı. İndi görmə qabiliyyətim də artıb. 90 yaşım var, hal-hazırda kitabı eynəksiz oxuyuram. İmam Huseynin (ə) bərəkətindən daha eynəyə ehtiyacım yoxdur.” (Deyilənə görə ağa Həzrəti Rüqəyyəni (s.ə) Allah ilə öz arasında vəsilə qərar verir).

*Qəbrinə zair olsa kim, izzət alar Rüqəyyədən!*
*Xırda zərihini öpüb, hacət alar Rüqəyyədən!*

Şamda (indiki Dəməşqdə) Fransanın Fövqəladə və səlahiyyətli səfirinin həyat yoldaşı böyük bir möcüzənin şahidi olmuşdur. Onların 4-5 yaşlarında olan qızları danışa bilmirmiş və bir çox ölkələri gəzdirməklərinə baxmayaraq qızın dili açılmırmış. Bir gün ana qızını qucağına alaraq Həzrəti-Rüqəyyənin (ə) hərəminə gəlir və o Həzrətdən şəfa istəyir. Səfirin övladı məhz, Həzrəti-Rüqəyyənin (s.ə)

vasitəsilə Allahdan şəfa taparaq danışmağa başlamışdır[4].

Azərbaycanın paytaxtı olan Bakı şəhərinə daxil 13 rayondan biri də Suraxanıdır. Bu rayonun Hövsan qəsəbəsində Hacı Xalid adında nurani bir dindar kişi yaşayır. Mən Hacı Xalidi tanıyandan bu günə qədər onun Həzrəti xanım Rüqəyyənin (s.ə) aşiqi olduğunun şahidi olmuşam.

Elə bir İmam təziyyəsi olmayıb ki, Hacı Xalid o təziyyədə ruhani və məddahlardan Xanım Rüqəyyəni (s.ə) yada salmağı rica etməmiş olsun.

İstər ruhanilər, istərsə də məddahlar Xanım Rüqəyyənin (s.ə) məşəqqətli həyatından söhbət açarkən Hacı Xalid kişinin gözləri yaşla dolur və deyir ki, mənim dilimin zikridir Kərbəla şəhidləri və Kərbəla əsirləri. Məxsusən Xanım Rüqəyyə (s.ə) mənim gözümün nurudur. Hər gecə yatarkən mən bu zikri edib başaımı yastığa qoyuram:

*Ay başı bəlalı Zeynəb,*
*Ay başı bəlalı Zeynəb,*
*Sinəsi yaralı Fatimə,*
*Sinəsi yaralı Fatimə,*
*Can Qasim, can Qasim,*
*Toyu yasa dönən Qasim,*
*Hənası qandan oldu.*
*Əliəsğər dünyaya dil açmadı,*
*Möhsün dünyaya göz açmadı.*
*Qurban olduğum Rüqəyyə,*
*Mənim gözümün nurudur.*
*Ürəyimin rişəsidir.*
*Ağ xələt geyib,*
*Əli taxtına çıxmadı.*

---

[4] İbrət jurnalı № 2, 2012.səh.32.

Bu fəsli Kəlami Zəncaninin "Rüqəyyənin cəlaləti" rədifli mərsiyyəsindən iki bəndlə tamamlayır və bütün arzusunda olanlara o əzəmətli xanımın ziyarətini arzulayırıq.

*Pürbərəkət xəzinədə dürri-yeganədir bu qız,*
*Fatimeyi-əfifədən öndə nişanədir bu qızə*
*Eşqdə munisi-dili-əhli-zəmanədir bu qız,*
*Döy qapısın, de dərdüvi, sahibi-xanədir bu qız.*
*Saliki-mülki-eşq olan rif'ət alar Rüqəyyədən!*

*Ey səfəri-Dəməşq edən, düş hərəm iştiyaqına,*
*Uyma o fitnə şəhrinin zahiri təmtəraqinə,*
*Sal yoluvu xərabəyə, bax o qızın rəvaqinə,*
*And ola ruhi-Zeynəbə, hörmət edər qonağinə,*
*Gövhəri-eşqə ağlayan qiymət alar Rüqəyyədən!*

Həzrəti-Rüqəyyənin (s.ə) məzarı Şam (indiki Dəməşq) şəhərində məhşurdu. Xanım Rüqəyyənin (s.ə) varlığının hikməti və onun Şamda dəfni İslam dininə və Əhli-beytə (ə) düşmən olanların rüsvay olması deməkdir. Ona görə də, heç kəs Şamda baş verən hadisələri inkar edə bilməz. Həzrəti-Rüqəyyənin (s.ə) Şamda məzarının olması qadınların bu müqəddəs məkanda əsir olmaqlarının əlamətidir. Tarixi faktlara əsasən, heç bir kəs Şam hadisələrini inkar edə bilməz, çünki bu şəhərdə Rüqəyyənin qəbri Əhli-beytə (ə) olunan zülmlərə canlı şahid və sənəddir. Dahilərdən biri deyib: "Günəşin çıxmasına sübut istəməzlər. Hər kəsin müsibəti çox olsa, Allah yanında dərəcəsi artıq olar".

# II FƏSİL

# KƏRBƏLA ƏSİRLƏRİNİN ƏN AĞIR MÜSİBƏTİ

Rəvayətdə deyilir ki, İmam Zeynül-Abidindən (ə) soruşanda ki, "Kərbəla səfərində sizə ən ağır müsibətlər harada oldu?" Həzrət (ə) buyurdu: "Şam, Şam, Şam." " الشام الشام الشام"

Başqa bir rəvayətdə deyilir ki, İmam Səccad (ə), Nöman ibn Münzər Mədainiyə buyurdu: "Biz Şama daxil olduğumuz zaman çəkdiyimiz müsibətdən ağır müsibət görmədim. Çünki, biz yeddi müsibətlə üzləşdik ki, əsirliyin əvvəlindən axırına qədər belə müsibət olmamışdı:

1.Məmurlar Şamda bizim ətrafımızı yalın şəmşirlər və nizələrlə dövrələmişdilər. Onlar bizi cəmiyyətin arasında saxlamışdılar və təbil çalır, şadlıq edirdilər.

2.Şəhidlərin başlarını nizələrdə bizim qadınların arasında saxladılar və əmim Əbbasın (ə) başını, bibilərim Zeynəb (ə) və Ümmü Gülsümün (ə) gözü önündə saxladılar və qardaşım Əli Əkbərin, əmim oğlu Qasimin başını Səkinə və Fatimənin gözü önünə gətirdilər. Başlarla oynayırdılar və bəzən o başlar yerə düşür və atların ayaqları altında qalırdı.

3.Şamın qadınları evlərin üstündən bizim başımıza od və su tökürdülər. Od əmmaməmə düşdü, amma mənim əllərimi boynuma bağladıqları üçün onu söndürə bilmədim,

əmmaməm yandı, od başıma çatdı və başımı da yandırdı.

4.Gün çıxandan-gün batmağa az qalana qədər bizi təbil və avazla, camaatın gözü qarşısında küçə və bazarlarda gəzdirir və deyirdilər: "Bunları öldürün, çünki İslamda heç bir hörmətləri yoxdur."

5.Bizi dəvələrdən yerə endirdilər və hamımızı bir kəndirə bağladılar. Sonra yəhudi və nəsranilərin evlərinin önündən keçirir, onlara deyirdilər: "Bunlar və ataları sizin atalarınızı (Xeybərdə və b...) öldürən və evlərini viran edənlərdilər. Bu gün siz onların intiqamını bunlardan alın". Ya Nöman, bizlərə əziyyət vermək üçün üstümüzə torpaq atır, daş və ağacla bizi incidirdilər.

6.Bizə tavanı olmayan bir yerdə mənzil verdilər. Gündüzlər istidən, gecələri isə soyuqdan, aclıqdan və öldürülməyin qorxusundan vəhşət və iztirabda idik.[5]

## Mədinədə Xanım Rüqəyyəyə (s.ə.) əza məclisi

Əhli-beyt (ə) əsirləri Şamdan azad olunaraq Mədinə şəhərinə çatdılar, Rüqəyyəyə (s.ə) yas məclisi qurub matəm saxladılar. Mədinəyə qayıtdıqdan sonra Əhli-beytin (ə) nə gecə nə də gündüz sakitliyi və aramlığı olmadı. Mədinə camaatı hər gün dəstə-dəstə onların yanına gəlir və başsağlığı verirdilər. Həzrəti-Zeynəb (ə) Mədinə qadınlarına Kərbəla, Kufə və Şamın hadisə və müsibətlərindən danışar

---

[5]Bax: "Təzkirətuş-şühəda", Molla Həbibullah Kaşani, səh.412.

və bu müsibətin nəticələrini birgə yaşayardılar. Həzrət Zeynəb (ə) Şamda çəkdikləri müsibətlərdən danışarkən deyərdi: “Şamın xərabəsində Rüqəyyənin (ə) şəhadəti belimi bükdü və saçımı ağartdı». Qadınlar Həzrət Rüqəyyənin (ə) müsibətini eşidərkən nalə və şivən səsləri göyə ucalırdı və hətta daş ürəkli insanların qəlbini belə yumşaldırdı.

Əhli-beyt (ə) ləziz yeməklər yemədilər və sərin su içmədilər. Zəiflikdən gözlərinin yaşı qurudu. Onların mətbəxində yeddi il xörək bişmədi. O qədər xörəkdən imtina etdilər ki, axırda Həzrəti-İmam Zeynül-Abidin (ə) özü evlərə gedir, onlardan yemək yemələrini, su içmələrini rica edirdi...

Seyid İbn Tavus, İmam Sadiqə (ə) istinad edərək yazır ki: “İmam Səccad (ə) atasının müsibətinə qırx il ağladı. O gündüzləri oruc tutur, gecələri isə ibadətlə başa vururdu. Hər vaxt iftar olduqda, xidmətçi onun xörək və suyunu gətirib yanına qoyar və ərz edirdi: Ey mənim ağam, buyurun xörək yeyin”. İmam (ə) cavabında buyurardı: "Allah Peyğəmbərinin (s) oğlunu ac öldürdülər, Allah Peyğəmbərinin (s) oğlunu susuz öldürdülər." O həzrət (ə) ardıcıl bu sözləri təkrar edər və o qədər ağlayardı ki, gözünün yaşı xörəyə və suya qarışardı.

## Həzrəti-Rüqəyyəyə (s.ə.) kəfən gətirmişəm

Əhli-beyt (ə) məddahı Hacı Əsədullah Süleymani Tehranlı məddah Həsən Zülfüqariyə və Əhli-beyt (ə) şairi Hacı Qulam Riza Sazigara istinadən yazır:

“Bir nəfər danışırmış ki, Həzrət Rüqəyyənin (ə) məzarını ziyarət etmək üçün Şama gedərkən hərəmi-mütəhhərdə dayanıb, ziyarətnamə oxuyurdum.

Bu zaman bir qız uşağının hərəkəti məni özünə cəlb etdi. O, bir qədər ağ parçanı zərihin (məqbərə) üstünə atmaq istəsə də, bunu bacarmırdı.

Mən o qıza yaxınlaşaraq, nə etmək istədiyini soruşdum. Hamı Həzrət Rüqəyyə (ə) üçün oyuncaq gətirdiyi halda, onun nə üçün parça gətirdiyini sual etdim. Azəri türkcəsində cavab verən və ata-anası ilə birlikdə gələn bu qız, ata-anam (onları göstərir) mənə Həzrət Rüqəyyənin (ə) kəfəni olmadığını dediklərindən, mən ona kəfən gətirmişəm[1].-dedi.

---

[1] "Sitareyi dirəxşani Şam", Şeyx Əli Rəbbani Xəlxali, səh. 222.

## İntiqam

Bir çox məmləkəti öz hökumətliyi altında birləşdirmiş Əmir Qütbəddin Teymur Qurqani Şərqdə böyük məmləkət sahibi idi və o kafirlərə cizyə (vergi) təyin etmişdi.

O, qəməri tarixi ilə 803-cü ildə Şama hücum edərək, Hələb ətrafında Şam əmirləri ilə döyüşdə onları məğlub edir. Əmir Teymur Şamın vilayətlərini qarət etməklə külli miqdarda qənimət ələ gətirir. Şam şəhərini aldıqdan sonra şamlıların Əhli-beytə (ə) zülm və sitəmlərindən xəbərdar olur.

İmamətə olan sevgisindən Əmir Teymur ona müti olmuş Şamlılardan bu müsibətin əvəzini çıxmaq qərarına gəlir. Şam sultanının gözəl bir qızı olduğunu bilən Əmir Teymur sultana elçi göndərərək onun qızını özünə zövcə eləmək istədiyini bildirir. Təbii ki, bu Şam sultanı üçün böyük bir fəxarət idi və o bu izdivaca razılıq verir.

Belə olanda, Əmir Teymur Şam şəhəri bəzətdirərək, çil-çırağa qərq edir və bütün toy və şadlıq vasitələri hazır olduqdan sonra, Sultanın qızını gəlin libasında hamama apartdırır.

Sultanın qızını çılpaq şəkildə hamamdan çıxaratdıraraq üryan dəvənin belinə mindirtdirən Əmir Teymur onu Şamın küçələrində gəzdirtdirərək rüsvay edir.

Bu mənzərəni seyr edən Şam camaatı əlləri yaxalarında Əmir Teymurun hüzuruna gələrək, belə bir rüsvayçılığı, belə bir zülmü onlara göstərməsinin nədən qaynaqlanmasını soruşarkən, Əmir Teymur rişxəndlə onlara bir nəzər salaraq deyir: “Bu nə qovğa, fəğan və şivəndir salmısınız? Mənim kimsəyə zülm etmək qəsdim belə yoxdur. Sadəcə olaraq mən, böyüklərin və ali şəxslərin qızlarını başıaçıq

küçədə-bazarda gəzdirməyin sizin adətinizin olduğunu güman etdim”.

Şamlılar ondan hansı dinsizin belə bir əməli bir müsəlmanın namusuna rəva görər deyə soruşanda, Əmir Teymur, göz yaşını saxlaya bilməyərək: “Ey bihəya dinsizlər və zülmkar yezidpərəstlər! Hansı padşahın övladı Peyğəmbərin (s) övladından nəcibdir? Hansı böyük Həzrəti-Fatimeyi-Zəhranın qızından əzizdir ki, siz onları üryan dəvələrə mindirib, bazarlarda gəzdirdiniz, Cəbrailin (ə) su verdiyi ağaclara (Əhli-beytə) zülm etdiniz, xeymələrini yandırdınız? Ey qeyrətsiz tayfa! Siz Əhmədi-Muxtarın (s) övladlarını haqsız olaraq şəhid etdiniz və Peyğəmbərin (s) qızlarını bu diyara əsir gətirərək, şəhəri, bazarları bəzədiniz və Peyğəmbərin (s) itrətinə (pak şəxslər) tamaşa etməyə gəldiniz. Əfsus! Əfsus! Mən o zaman dünyada olmamışam, siz binamusların nəslini yer üzündən kəsərdim.

Ey şamlılar, and olsun Allaha ki, Peyğəmbərin (s) Əhli-beytinin (ə) hamısını bir kəndirə bağlayıb, Rum və Firəng əsirləri kimi haramzadə Yezidin (l) yanına gətirməyinizi unutmaram. Bu məqamda Yezidin (l) məclisində olan bir Firəngli (Fransalı) Peyğəmbər (s) övladlarının təəssübünü çəkdiyi halda, sizlər onlara rişxənd edir və ələ salırdınız. Allahın lənəti gəlsin sizin ata-babalarınıza, ey qeyrətsiz insanlar! Ey şəxsiyyətsiz, mürtəd tayfa və ey Allahın və Peyğəmbərin (s) düşmənləri! Bir şamlı qızının rüsvayçılığı sizə ağır gəldiyi halda, Fatimeyi-Zəhranın (ə) qızlarını Şamda əsir qismində ayaqyalın, başıaçıq dolandırmağınız, Peyğəmbərə (s) ağır gəlmədimi?!

Şamlılar Əmir Teymurun bu sözlərindən başlarını aşağa salaraq, xəcalətlərindən heç bir cavab vermədilər. Bundan sonra Əmir Teymur qoşununa əmr etdi ki, oradakı camaatı

qılıncdan keçirtsinlər və Şamı viran etsinlər.

İndiki Şam - Dəməşq şəhəri sonralar inşa olunaraq abad olunan şəhərdir və Həzəti-Rüqəyyənin məzarı da ön möhtəşəm zyarətgahlardandır.[1]

---

[1] "Dastanhayi tarix", 1-ci cild, səh.187.

## İmam Hüseynin(ə) Rüqəyyə adlı qızı olubmu?

Tarixi mənbələrə istinadən sübut olunub ki, həqiqətən Seyyidüş-şühəda (Şəhidlər sərvəri) Həzrəti-İmam Hüseynin (ə) Rüqəyyə (s.ə) adlı qızı olubdur. Bu xanımın atasının adı İmam Hüseyn (ə), anasının adı isə Ümmül-İshaqdır (Rübab). Həzrəti-Rüqəyyə də (s.ə) hicrətin 61-ci ili atası və anası ilə Kərbəlaya səfər etmişdi. Aşura qiyamından sonra Kərbəla əsirləri Şama gətirilir. Xanım Rüqəyyə də Şamda bir xarabalıqda dünyasını dəyişir və elə həmin yerdə də dəfn olunur. Hal-hazırda xanımın qəbri Şam şəhərində "Seyyidə Rüqəyyə" adı ilə məhşurdur. Xanım Rüqəyyənin (s.ə) orada dəfn olunması və əsirlərin Şama gətirilməsi Yezid (l) və onun davamçılarının rüsvayçılığından başqa bir şey olmadı. Xanımın orada dəfn olunması bir daha Kərbəlada olan vəhşiliklərdən xəbər verir. Bu da o deməkdir ki, orada olanları heç kəs inkar edə bilməz. Bəli, xanımın yaşının az olmasına baxmayaraq, O, bir böyük hadisənin yaşamasına və tarixdən silinməməsinə şahidlik edir. "Rüqəyyə" sözünün mənası "tərəqqi etmək, yuxarı aparmaq, inkişaf etməkdir" deməkdir. İmam Hüseynin (ə) "Rüqəyyə" adlı qızının olub-olmaması məsələsində tarixçilər müxtəlif fikirdədilər. Xanımın Şamdakı qəbri, elə başa düşürəm ki, onun varlığını isbat etməyə kifayətdir. Seyyid İbn Tavus yazır ki, İmam (ə) Əhli-beytlə (ə) vidalaşanda buyurdu: "Bacım Ümmi-Gülsüm (ə) və Zeynəb (s.ə), ey Rüqəyyə (s.ə), ey Fatimə (s.ə), ey Rübab (s.ə) səbirli olun, mən öldürüləndən sonra yaxanızı cırmayın, üzünüzə əl aparmayın." İmam Sadiq (ə) və İmam Kazimin (ə) səha-

bələrindən olan Seyyid ibn Umeyrə yanıqlı qəsidələrində iki yerdə xanımın adını çəkir. Qunduzi yazır ki, Kərbəlada İmam (ə) nida etdi (yəni vidalaşdı): "Ey Ümmi-Gülsüm(s.ə), ey Səkinə (s.ə), ey Rüqəyyə (s.ə), ey Atikə (s.ə), ey Zeynəb (s.ə), ey mənim Əhli-beytim (ə), sizə salam olsun". ( Höcətül-islam vəl-muslimin *Ramil Əzimovun "İslam Həqqiqətləri" qəzeti №41 (521) 29.10.2015) "İmam Hüseynin (ə) Rüqəyyə (ə) adlı qızı olubmu?"sərlövhəli məqaləsindən bəzi mühüm nöqtələri* olduğu *kimi oxucuların nəzərinə çatdırırıq:*

"İmam Hüseynin (ə)Aşura inqilabında Allah yolunda fəda etdiyi sonuncu qurbanı Həzrətin qızı Rüqəyyə xanımdır.Tarixi faktlara əsasən Həzrət Rüqəyyənin Kərbəla hadisəsində üç-dörd yaşı vardı. Kərbəla hadisəsindən sonra Rüqəyyə xanım İmamın (ə) ailəsi ilə birlikdə düşmənə əsir düşür. Əsirlərlə birlikdə Kufəyə, oradan da Dəməşq şəhərinə gətirilir. Dəməşqdə Yezidin Kərbəla əsirlərini saxladığı xarabalıqda atasını yuxuda görür və yuxudan oyanıb, ağlayaraq atasını istəyir. Yezid onun ağlamaq səsindən narahat olur və əmir verir ki, İmam Hüseynin (ə) başını aparıb Rüqəyyə xanıma versinlər. Əsgərlər İmamın başını Rüqəyyə xanıma verir. Xanım atasının başını görəndən sonra ürəyi partlayır və şəhid olur. Onu xarabalıqda dəfn edirlər.

İllər sonra Xanımın qəbrinin üzərində böyük ziyarətgah inşa edilib və o yer hal-hazırda Əhli-beyt (ə) aşiqlərinin pənah yerinə çevrilib. Bəzi tədqiqatçılar bu hadisənin doğruluğuna və ümumiyyətlə, Rüqəyyə xanımın varlığına iradlar və şübhələr etmişlər. Onlar bildirirlər ki, İmam Hüseynin (ə) Rüqəyyə adlı qızı olmayıb. Çünki Xanımın adı

hicrətin əvvəllərindən yazılmış tarixi mənbələrdə qeyd olunmayıb. Bu irad və şübhəyə alimlər müxtəlif cavablar vermişlər. Bu cavablardan İmam Hüseynin (ə) Rüqəyyə adlı qızının olduğu qənaətinə gəlmək olar. Alimlərin verdiyi cavabları qeyd etməmişdən əvvəl tarixçilərin İmamın (ə) qızlarının sayı və adları haqqındakı nəzərlərini əziz oxuculara çatdırmaq istəyirəm. İmam Hüseynin (ə) qızlarının sayı mövzusunda alimlər arasında üç fikir var: İmam Hüseynin (ə) iki, üç və dörd qızı olub. Birinci nəzəriyyə: Şeyx Müfid "Əl-İrşad" kitabında (ikinci cild, 135-ci səhifə) və Əllamə Təbərsi "İmamül-vəra" kitabında (birinci cild, 477-ci səhifə) bildirirlər ki, İmamın (ə) Səkinə və Fatimə adlı iki qızı olmuşdur. İkinci nəzəriyyə: Tustəri "İhqaqul-həqq" kitabında (11-ci cild, 451-ci səhifə) və Şiə alimlərindən olan Təbəri "Dəlailul-imamət" kitabında (181-ci səhifə) qeyd edirlər ki, İmam Hüseynin (ə) Zeynəb, Səkinə və Fatimə adlı üç qızı olub. Üçüncü nəzəriyyə: Şeyx Müfiddən sonra yaşamış əksər tarixçilər bu nəzəri qəbul etmiş, Xanımın adını İmamın (ə) qızlarının sırasında qeyd etmişlər. Məsələn: İrbili "Kəşful-ğummə" kitabında (ikinci cild, 250-ci səhifə), Əllamə "Hairi-Məalisi-sibteyn" kitabında (ikinci cild, 214-cü səhifə), Həmzavinin "Ən-nəfəhat" kitabında və aşağıda adları gələcək bir çox tarixçilər İmam Hüseynin (ə) Rüqəyyə adlı dördüncü qızının da olduğunu bildirirlər.

### 1.Xanımın adı çəkilən hədislər

Əllamə Məclisi deyir: Bu hədisi mötəbər kitablarda gördüm. Həzrət Zeynəb (s.ə) Kufədə İmamın (ə) mübarək başın nizədə görəndə İmama (ə) dedi: Ey qardaşım! Bu

Fatimeyi-suğra ilə danış. Ürəyi qəm-qüssədən az qalır əriyib suya dönsün. (Biharul-ənvar,c45,s115). Şiənin rical alimləri tərəfindən mötəbər sayılan İmam Sadiqin (ə) səhabəsi Seyf ibn Ümeyr İmam (ə) hüzurunda İmam Hüseynin (ə) müsibətləri barədə yazdığı şeiri oxuyur. Bu şeirdə iki dəfə Həzrət Rüqəyyənin adını çəkir (Əl-müntəxəb,Tureyhi,s 435). Şeirin tərcüməsi: İmamından ayrıldığı zaman səbrü qərar Səkinədən ayrıldı. Rüqəyyə o kəsdir ki, paxıllar gücsüz və zəifliyinə görə onun qəlbini yandırdılar. Bunlar qiyamət günü Ondan üzr istəməyə məcbur olacaqlar. Amma onların üzrü olmayacaq. Həzrət Ümmi-Gülsüm də hər an göz yaşlarını parça ilə üzündən silir. Mən heç vaxt Səkinə və Rüqəyyəni unutmaram. Onlar analarına belə deyərdilər: "Ey Ana! Bu sənin Hüseynindir ki, ay parçası kimi torpaqlar üstə düşüb və qanına qəltandır. Ey Ana! Bu sənin Hüseynindir ki, qanlı və lüt bədənlə topaqlar üstə düşüb və bədəni qanına rənginə boyanıb. Ey Ana! Bu sənin Hüseynindir ki, düşmənlər onu susuz şəhid edib, başın bədənindən ayırıb və lüt bədənin torpaqlar üstə atıblar. Ey mənim ağalarım! Sizin qulunuz Seyf ibn Ümeyrə Heydərin qulamı Qənbərin qulunu, quludur. İmam Sadiq(ə) isə ona heç bir etiraz etmir. Əgər İmam Hüseynin (ə) "Rüqəyyə" adlı qızı olmasaydı, İmam Sadiq (ə) Seyfə mütləq etiraz edərdi. Çünki Əhli-beyt (ə) həmişə şiələrinin səhvlərini düzəltmiş və onları azğınlığa sürükləməkdən qorumuşlar.

**2.Tarixi mənbələr**

2.1.Lut ibn Yəhya ibn Səid (vəf .158.h.q) tərəfindən Kərbəlanın tarixi haqda yazılmış ən qədim kitabda "Məq-

təli-Əbimixnəfdən" də Həzrəti-Rüqəyyənin adı İmam Hüseynin (ə) qızlarının sırasında gəlmişdir. Əhli-sünnə alimlərindən olan Şeyx Qunduzi kitabında İmam Hüseynin (ə) altı aylıq körpəsinin hadisəsinin nəql etdikdən sonra Məqtəli-Əbimixnəfdən İmam Hüseynin (ə) ailəsi ilə vidalaşma hadisəsini belə nəql edir: İmam Hüseyn (ə) ailəsi ilə vidalaşanda belə uca səslə buyurdu: Ey Ümmi-Gülsüm, Ey Səkinə, Ey Rüqəyyə, Ey Atikə, Ey Zeynəb, Ey Əhli-beytim məndən sizə salam olsun.(Yəni, sizi Allaha tapşırıram.)(Yənabiul-məvəddət,s 346, Ehqaqul-həqq,c 11,s 633).

2.2.Əbül-Həsən Əli ibn Əbilqasim Beyhəqi (vəf. 565. h.q) İmam Hüseynin (ə) övladları haqda yazır Yeddinci təbəqə Hüseynilərdir... Hüseynilər Hüseyn ibn Əlinin övladlarıdır. İmam Hüseynin (ə) övladlarından kərbəla vaqeəsində Zeynəlabidindən, Fatimədən, Səkinədən və Rüqəyyədən başqa heç kim qalmayıb. (Lubabul-ənsab c7. S 326)

2.3.İmadudin Təbəri 675-ci (h.q.) ildə yazdığı "Kamili-Bəhai" kitabında yazır: " Əsirlərin arasında dörd yaşlı qız uşağı var idi. Bir gecə yuxudan oyandı və dedi ki, atam Hüseyn (ə) hardadır, indi onu yuxuda gördüm. Qız çox narahat idi. Xarablıqdakı qadınlar ağlayıb, ahü fəğan etdilər.Yezid yuxudan oyanıb, nə baş verdiyini xəbər aldı. Yanındakılar vəziyyəti ona danışdılar. Göstəriş verdi ki, İmamın (ə) başını aparıb, dörd yaşlı qıza versinlər. Əsgərlər başı qızın yanına gətirdilər. Qız dedi: Bu nədir? Dedilər: Atanın başıdır.Qız qorxdu. Ağlayaraq, ah-fəryad etdi və çox narahat oldu. Bir neçə gün ərzində dünyasını dəyişdi. ("Kamili-Bəhai", c 2, səh 179)

2.4.Rüqəyyə xanımın qəbrinin təmiri zamanı baş verən hadisə: Bu hadisə təqribən yüz əlli il bundan əvvəl Də-

məşq şəhərində baş verib. Seyid İbrahim Dəməşqi bir alim deyir: Mənim üç qızım var idi. Oğlum yox idi. Bir gün Həzrəti-Rüqəyyə xanım böyük qızımın yuxusuna gəlib buyurur ki, atana de, şəhərin rəhbərinə desin, mənim qəbrimə su dolub. Mən qəbirdə əziyyətdəyəm. Qəbrimi təmir etsinlər. Seyid İbrahim şəhərin rəhbəri əhli-sünnə olduğundan ona heç nə demir. İkinci gün Xanım ortancıl qızın yuxusuna gəlir. Amma Seyid İbrahim gedib, şəhərin rəhbərinə bir söz demir. Axırda Xanım Seyidin öz yuxusuna gəlib qəzəblə buyurur ki, niyə şəhərin rəhbərinə demirsən? Seyid sübh tezdən gedib hadisəni şəhər rəhbərinə danışır. Şəhər rəhbəri alimlərə göstəriş verir ki, qüsl edib, təmiz paltar geyinsinlər. Xanımın hərəmi kimin əli ilə açılsa, həmin şəxs qəbri açacaq. Hərəm yalnız Seyid İbrahimin əli ilə açılır. Qəbri açanda görürlər ki, bədəni yaralarla dolu üç-dörd yaşlı bir qız uşağıdır, lakin bədən çürüməmiş vəziyyətdədir. Qəbir də su ilə dolub. Seyid uşağı götürmək üçün qəbrə daxil olanda qəşş edir. Ayılanda deyir ki, Allah Yezidə lənət etsin! Biz elə bilirdik ki, Yezid qız üçün mürdəşir və kəfən göndərib. İndi bildim ki, bunlar yalan imiş. Xanımı öz köynəyi ilə dəfn ediblər. Seyid Xanımı qucağına alır.

Qəbrin təmiri üç gün çəkir. Üç gün yalnız namaz vaxt Onu qucağından yerə qoyur. Seyid deyir ki, bu üç gündə aclıq hiss etmədim. Qəbrin təmiri başa çatdıqdan sonra Xanımı dəfn edirlər. (Məalis-sibteyn,c 2,s 101-102)

Nəticə : Yuxarıdakı dəlillərdən belə qənaətə gələ bilərik ki , İmam Hüseynin (ə) Səkinə, Fatimə, Rüqəyyə və Zeynəb adlı dörd qızı olmuşdur. Həzrət Rüqəyyənin adı şiənin ana mənbələrində (hicrətin beşinci əsrinə qədər yazılmış) gəlməsə də hicrətin altıncı əsri və ondan sonra yazılmış ta-

rix kitablarında açıq-aşkar qeyd olunmuşdur. İkinci dərəcəli mənbələrin müəllifləri də Xanımın adını hicrətin əvvələrində yazılmış Məqtəli-Əbimixnəf kitabı və bəzi hədislərə əsasən öz əsərlərində İmamın (ə) qızlarının sırasında qeyd etmişlər. Bundan əlavə Xanımın adını öz kitabında qeyd edən ən qədim mənbə hicrətin 565-ci ildə vəfat etmiş Beyhəqidir ki, Şeyx Müfiddən təxminən 150-il sonra, ondan sonra isə İmaduddin Təbəri və İrbilidir. Bu dəlilləri daha möhkəmləndirən Rüqəyyə xanımın qəbrinin təmiri zamanı baş verən hadisədir. Qəbrin açılması prosesində şəxsən iştirak edən Seyid İbrahim qəbirdə az yaşlı və zərbələrin təsirindən bütün bədəni yara olan bir qız uşağı olduğunu bildirir.

Bu xüsusiyyətlər tarix kitablarında Rüqəyyə (ə) xanım haqda deyilən xüsusiyətlərlə tam uyğundur.

Əsirlər Mədinəyə qayıdanda Mədinə qadınları başsalığı üçün xanım Zeynəbin (s.ə) görüşünə gəldilər. Xanım Zeynəb (s.ə) Kərbəlada, Kufədə və Şamda baş verənlərdən danışdı. Gələnlər ağladılar. Mədinə xanımları Rüqəyyəni (s.ə) soruşdular. Xanım buyurdu: “Rüqəyyənin (s.ə) Şam xarabalığında dünyasını dəyişməsi mənim belimi qırdı, saçımı ağartdı”. Qadınlar bu sözü eşidəndə nalələri yüksəldi, Rüqəyyənin (s.ə) çəkdiyi əzabı yada salıb ağladılar.

## Həzrəti-Rüqəyyənin (s.ə.) hərəmi

Həzrət Rüqəyyənin (ə) mübarək hərəminin yaxınlığında, mərhum Ələmul-Hüda Seyid Mürtəzanın nəvələrindən olan təqvalı və zahid alim Seyid İbrahim Dəməşqi yaşayırdı.

Üç qız atası və Dəməşq camaatı arasında xüsusi hörməti olan Seyidin yaşı doxsanı keçmişdi.

Bir gecə Əba Əbdillah Hüseynin (ə) qızı Həzrət Rüqəyyə (ə) onun böyük qızının yuxusuna gələrək, qəbrilə ləhədin arasına su sızdığını və bu nəmdən bədəninin əziyyət çəkməsindən şikayətlənərək, atasının onun qəbrini və ləhədi təmir etməsini hakimə deməsini xahiş edir. Böyük qız yuxudan ayılab yuxusunu atasına danışır. Seyid İbrahim sünni və nasibilərin qorxusundan hakimin yanına getmir. İkinci gecə seyidin ortancıl qızı həmin yuxunu görür və atasına danışır. Seyid yenə yuxunun ardınca düşmür. Üçüncü gecə kiçik qız eyni yuxunu görür və atasına danışır. Seyid bu dəfə də hakimin yanına gedib, gördüyü yuxunu danışır.

Dördüncü gecə Həzrəti Rüqəyyə (ə) seyidin özünün yuxusuna girərək, ondan xahişinin hakimə çatdırmamasının səbəbini soruşur. Belə olanda, seyid İbrahim sübh tezdən Şam hakiminin yanına gedərək, yuxusunu ona danışır və Həzrəti-Rüqəyyənin (ə) mütəhhər (pak-pakizə) hərəmini yenidən düzəltdirməsini xahiş edir. Onu dinləyən hakim, şiə və sünnü böyüklərini çağıraraq, onlardan qüsl edərək, təzə libas geyinib, sonra hərəmi mütəhhərə tərəf getmələrini tapşıraraq, hərəmi-mütəhhərin qapısı hər kimin əlində açılarsa, qəbri açmaq, pak cəsədi çıxarmaq və qəbri təmir

etməyin şərəfinin də ona nəsib olacağını bildirir.

Onlar hakimin göstərişinə uyğun olaraq növbə ilə qapıya tərəf gedirlər və qıfılı açmaq istəyirlər, amma qıfıl açılmır. Növbə Seyid İbrahimə çatır. O, vüqarla qapıya tərəf gedir. Əlini qıfıla vuran kimi, qıfıl onu gözləyirmiş kimi açılır. Onlar hərəmə daxil oldular. Qəbri açmaq üçün hər biri növbə ilə gülüng vurur, amma külüng Seyid İbrahimdən başqa heç kimin əlində işləmir. Mütəal Allah öz qüdrətini burada da göstərərək, İmam Hüseynin (ə) nazdanəsinin vasitəsi ilə Əhli-beytin (ə) məzlumiyyətini və izzətini əyan edir. Belə olanda, naməhrəmlər hərəmdən çıxmalı olurlar və Seyid özü tək, pak qəbri açaraq ləhədi sındırarkən, Hüseynin (ə) nazdanəsinin kəfən və nazənin bədənini salamat halda müşahidə edir. Göz yaşı tökən seyid o nazdanənin düşmən taziyanəsi ilə döyülməkdən göyərmiş bədənini qucağına alır və ləhəd yenidən təmir olunana qədər, yəni üç gün dizləri üstə saxlayır.

Deyilənə görə, Seyyid təkcə namaz qılarkən Rüqəyyənin nazənin bədənini pak bir şeyin üstə qoyar, namazını qılar və yenə də bu mübarək nəşi qolları üstə alardı.

Seyid nəql edərmiş ki, Həzrət Rüqəyyənin (ə) kəramətindən bu üç gün ərzində yeməyə, suya və dəstəmazımı təzələməyə ehtiyacım olmadı. Qəbir tamamilə düzəldikdən sonra, o pak bədəni ləhədə qoydum və qəbrin üstünü torpaqla örtdüm. Pak bədəni ləhədə qoyarkən isə, oğlum olmadığı üçün Həzrət Rüqəyyəni (ə) vasitə qərar verib, Allahdan mənə bir oğul əta etməsini istədim və onun adını Peyğəmbərin (s) şərəfinə Mustafa qoyacağımı niyyət etdim.

Seyid İbrahim Dəməşqi deyir: “Nəhayət, bir gün hakim bu macəranı Sultan Əbdul Həmid Osmaniyə yazaraq Həz-

rət Zeynəbin (ə), Həzrət Rüqəyyənin (ə), Həzrət Səkinənin (ə) və Həzrət Ümmi-Gülsümün (ə) müqəddəs hərəmlərinin idarəçiliyini mənə həvalə edilməsini xahiş etdi və Sultan da bunu məqsədəmüvafiq hesab elədi”. [1]

[1] Bu kəramət Hacı Mirzə Haşim Xorasaninin, "Müntəxəbut-təvarix" əsərində və başqa mötəbər kitablarda gəlibdir.

## Həzrəti-Rüqəyyənin (s.ə.) kəramətləri

Bir nəfər nəql edir ki, xəstə qızımı hansı həkimə apardımsa, çarə edə bilmədilər, axırda xəstəliyi o qədər ağırlaşdı ki, onu zəiflətdi və nəticədə iflic oldu. Hər yerdən ümidim kəsiləndə, zehnimdə bir ümid çırağı işıqlandı və inandım ki, həkimlərin çarə edə bilməyəcəyi bu xəstəliyin çarəsi bir müqəddəs ocaqdadır. Bu ümidlə, Uca Allahın yanında çox əzəmətli məqamı olan, əlləri cəddi Yədullah Əlinin (ə) əlində olduğu üçün qızımı müşkülləri həll edən Həzrəti-Rüqəyyənin (ə) hərəminə gətirdim.

Rüqəyyənin (ə) hərəminə daxil olar-olmaz, göz yaşlarıma hakim kəsilə bilmədim, ürəyim əsdi, vücudum titrədi. Üzümü onun müqəddəs məzarına tutaraq, həkimlərin qızımın müalicəsində çarəsiz qaldıqlarını, amma şəfanı ondan istədiyimi, uzaq yoldan gəldiyimi və məni naümid geri qaytarmamağını dua etdim.

Qızımı zərihin (qəbir) kənarına gətirərək, gecə dəxili-ünvan (yalvarmaq məqsədi) ilə kəndirin bir ucunu qızıma, o biri ucunu isə zərihə bağlayaraq, bu məzarın Hüseynin (ə) qızına məxsus olduğunu və atasının onu çox sevdiyini söyləyərək, qızıma ağlayıb, yalvarıb, dərdini deməsini və Ondan şəfa istəməsini tövsiyyə etdim. Özüm də bir tərəfə çəkilib, namaz və təvəssülə (14 məsuma bağlanmaq) məşğul oldum. Dua etdim, öz halıma qərq olub, dünyadan ayrılaraq, Həqq Təalanın Zatına müttəsil (qovuşdurmaq) oldum və Uca Tanrıdan qızımın şəfasını istədim.

Bir müddət sonra özümə gələndə, gecədən xeyli keçdiyini, hərəmin tam sükut içində olmasını və heç kimin ol-

madığını gördüm. Alatoran-səhərə yaxın idi. Qızımı yaddan çıxarmışdım. Bir səs məni özümə gətirdi. Yaxşı qulaq asdıqda qızımın səsini tanıdım. Yaxınlaşanda onun ağladığını gördüm. O məni görcək, "ata, mən sağalmışam, ata, mən sağalmışam" deyə sevinclə qabağıma qaçdı. Onu qucağıma alaraq, nə baş verdiyini soruşanda o mənə "Ata, çox ağladım, axırda məni yuxu apardı. Yuxuda zərihdən kiçik yaşlı bir qız çıxaraq mənə yaxınlaşıb sual elədi ki, niyə ağlayırsan, istəyin nədir? Mən cavabında, "Xanım, mən xəstəyəm, yerimdən tərpənə bilmirəm" deyəndə, O yanımda oturdu və kiçik əlləri ilə bədənimə əl çəkərək dedi: "Sağaldın! Dur, atanın yanına get!" Yuxudan ayılıb, heç bir narahatlıq hiss etmədim. Ata, elə bil ki, həmişə beləcə sağlam olmuşam"...

"Bəs nə üçün o kiçik yaşlı qızın çöhrəsi qaralmışdı", deyə qızım məndən sual etdi. Qızıma, o məsum qızın çöhrəsinin rənginin dəyişməsinin düşmənlərin ona vurduqları sili zərbələrindən olduğunu başa saldım".[1]

---

[1] "Əşgi bər se salə", Mühəmməd Hairi Təbar, səh.36.

## Anam və bibimlə gəlmişəm

Əhli-beyt (ə) dostlarından olan bir qadın həmişə, harada Əba Əbdillah Hüseynin (ə) adına məclis olsaydı, o məclisdə iştirak edərdi və o Həzrətin (ə) müsibətində göz yaşı tökərdi.

Bu qadının sünni məzhəbindən olan əri səhər qonaqları olacağı ilə əlaqədar, ona yemək hazırlamasını və evi səliqə-sahmana salmasını tapşırır.

Sabahı günü qonşu qadınlarından biri ona filan məhəllədə əza məclisi olduğu barədə xəbər verir. Qadın xəbəri eşidər-eşitməz, tez evi təmizləyib sahmana salır. "Qalan işləri məclisdən qayıtdıqdan sonra edərəm" düşünərək, əza məclisinə gedir.

Məclis uzun çəkir, qadın çox ağladığından huşunu itirir və o özünə gəldikdə gecikdiyini hiss edərək öz-özünə deyir: "Çox gecikmişəm, yeməyi qonaqlar gələnə qədər hazırlayıb çatdırmayacağam, ərim isə məni incidəcək, indi mən nə edim?" və bu düşüncələrlə tələsik evə qayıdır. O, evə çatıb həyət qapısını açan zaman kiçik yaşlı bir qızın həyəti süpürməklə məşğul olduğunu görür, təəcüblə onun kim olduğunu və haradan gəldiyini soruşur. Şirin bir ləhcə ilə cavab verən kiçik xanım deyir: "Mən bibimlə birlikdə gəlmişəm və o indi mətbəxdə yemək hazırlayır". Evin sahibəsi mətbəxə daxil olan zaman orada çox nurani və əzəmətli bir xanımın yemək bişirməyə məşğul olduğunu görür və ona da eyni suallarla müraciət edəndə, xanım cavabında "Mən anamla gəlmişəm ki, yemək hazırlayaq, anam da o biri otaqdadır" deyə cavab verir. Qadın otağa daxil

olarkən burada olan yaşca daha böyük olan xanımın nurunu görür, ixtiyarsız özünü onun qədəmlərinə ataraq, nurani xanımdan kim olduqlarını soruşur. Xanım ev sahibinə cavabında deyir: “Mən Hüseynin (ə) anası Fatimeyi-Zəhrayam (ə), mətbəxdəki xanım mənim qızım və Hüseynin (ə) bacısı Zeynəbdir (ə), həyətdə gördüyün kiçik qız isə Hüseynin (ə) kiçik qızı Rüqəyyədir. Mən o kəsin anasıyam ki, oğlum Hüseynin (ə) əzasında iştirak etməyi ərinin sənə verdiyi tapşırıqdan üstün tutdun, onun əzasına gedərək göz yaşı tökdün, işlərin isə tökülüb-qaldı. Biz də gəldik, sənin işlərinə köməklik göstərək ki, əziyyətin az olsun, ərinin və qonaqlarının yanında başıaşağı, xəcalətli olmayasan”.[2]

[2] Bax: kitabi qədimi, "Tənqihul məqal fi məqtəli xamisi al".

## De, adını Hüseyn qoysun

Ravi deyir: “Həzrət Rüqəyyənin (ə) mütəhhər (pak-pakizə) hərəminə daxil olduqda, bir dəstə adamın müqəddəs zərihin qarşısında “ziyarətnamə” oxuyaraq əzadarlığa məşğul olduqlarını gördüm. İxlaslı məddah, Hacı Nikuyi rövzə oxuyaraq deyirdi: “Həzrət Rüqəyyənin (ə) hərəmini genişləndirmək məqsədilə Əhli-beyt (ə) aşiqləri tərəfindən ətrafdakı evlər alınırdı. Ev sahiblərindən biri yəhudi, ya xristian idi və o evini hərəmin genişlənməsi üçün satmaq istəmirdi. Alıcılar ona dəyərindən 2,5 dəfə yuxarı qiymət təklif eləsələr belə o, evini satmaq fikrində deyildi.

Bir müddət sonra, həmin ev sahibinin arvadı hamilə qalır və özünü yaxşı hiss etmədiyindən həkimə aparırlar. Müayinədən sonra həkim ana və uşağın hər ikisinin təhlükədə olduqlarının və doğuşa qədər qadının həkim nəzarəti altında olmasını tövsiyyə edir.

Həkim nəzarəti altında doğuş ağrıları başlayan zaman, vəziyyətin gərginliyini hiss edən qadının əri Həzrəti-Rüqəyyənin (ə) hərəminin qapısına gələrək, Ona təvəssül edir və deyir: “Həyat yoldaşımın və övladımın nicat tapması üçün Allahdan onlara şəfa istəsən və onlar şəfa tapsa, evimi sənin hərəminin genişləndirilməsinə verəcəyəm”.

Hamilə qadının əri təvəssülünü bitirib yola düşür və həyat yoldaşının yanına çatanda onun yeni doğulmuş körpəsini sapsağlam görür və çox sevinir. Həyat yoldaşı ondan hara getdiyini soruşanda, o həyat yoldaşının fikrini yayındırmaq üçün işiylə bağlı bir yerə getdiyini deyir. Bunu eşidən həyat yoldaşı isə deyir “Yox, bilirəm, İmam Hüseynin (ə) qızına təvəssül etməyə getmişdin”. Əri bunu haradan

bildiyini soruşanda, arvadı “Mən doğuş zamanı ağrının şiddətindən bəzən huşdan gedirdim və çox əziyyət çəkirdim. Bu zaman bir qız uşağı olduğum yerə daxil olaraq mənə dedi ki: “Narahat olma, biz sənin və uşağının salamatlığını Allahdan istəmişik. Övladınız da oğlandır. Mənim salamımı ərinə çatdır və de, adını Hüseyn qoysun”. Mən onun kimliyini soruşanda, “İmam Hüseynin (ə) qızı Rüqəyyəyəm (ə)”, dedi.

Bu hadisədən sonra həmin şəxs öz evini Xanım Rüqəyyənin (ə) hərəminin genişləndirilməsi üçün verdi”.

Rövzə qurtardıqdan sonra məddah Hacı Nikuyi bu əhvalatı Həzrəti-Rüqəyyənin (ə) hərəminin xadiminin nəql etdiyini də diqqətə yetirərək, bildirdi ki, həmin xadim sünni məzhəbindən olmasına baxmayaraq, İmam Hüseynin (ə) nazdanəsinin hərəmində xidmət etməyi ilə iftixar duyurmuş. Onun atası da Həzrəti-Rüqəyyənin (ə) hərəminin xadimi olmuşdur”.[1]

[1] "Sitareyi dirəxşani Şam", Şeyx Əli Rəbbani Xəlxali, səh. 281.

## Bu, üç yaşlı qızım Rüqəyyədir (s.ə.)

Təqvalı və ixlaslı vaiz (moizə edən) Hacı Seyid Əbdullah Təqəvi yazır: “Mən neçə illərdir ki, Tehranda məclislərə, yığıncaqlara və mənzillərdə minbərə gedir, məzlum cəddim – İmam Hüseynin (ə) müsibətindən danışır, Kərbala hadisəsinin mahiyyətini insanlara çatdırmağa çalışır və ağamın nökəri olmağımla fəxr edirdim. Belə gecələrin birində minbər qurtardıqdan sonra evə qayıtdım. Telefonuma gələn zəngə cavab verdim. Dostlarımdan biri idi. O, mənə hansısa tacirin dunyasını dəyişdiyini, sabah məscidlərin birində onun fatihə məclisinin baş tutacağını, minbərə getmək üçün isə məni, mərhumun varislərinə nişan verdiyini dedi və sabah saat 3-4 radələrində orada olmağımı xahiş elədi. Mən isə, hacətimin olduğunu, nəzr etdiyimi, Həzrət Rüqəyyə xatunun (ə) adına süfrə açacaq bir xanımın mənzilindəki məclisdə olacağıma və İmam Hüseynin (ə) əzizinə təvəssül rövzəsi oxuyacağıma əvvəlcədən söz verdiyimi ona bildirdim. Dostum mənə dedi: “Ey ağa, mən sizə bir xidmət eləmək istədiyim halda, siz nə fikirləşirsiniz?!”

Dostumun bu sözündən sonra öz-özümə fikirləşdim ki, “Aya, mən gərək neçə belə məclis yola verməli, Həzrət Rüqəyyə (ə) və Həzrət Əli Əsğər (ə) rövzəsi oxumalıyam ki, nəticədə otuz min pul qazanam, ya qazanmayam. Amma bu dünyasını dəyişmiş varlı tacirin məclisini aparsam, bir neçə saatın içində mənə böyük məbləğdə pul verərlər”. Buna görə də söz verdiym xanımın evinə gedib rövzə oxumaq fikrindən daşındım. Yatağıma uzandım. Gözümə yuxu gedən kimi. Röyada dünən rövzə oxuduğum evin ya-

nındakı xiyabanla yanaşı küçənin başında nurani bir seyyidin azyaşlı bir qızın əlindən tutaraq, məzlum-məzlum mənə baxdıqlarını gördüm. Onlarla salamlaşaraq, kim olduqlarını, adlarının nə olduğunu və Tehranın harasında yaşadıqlarını sual etdim. Cavabında seyyid mənə dedi ki: "Özümün əza məclislərimin hamısında hazır oluram və bu da üç yaşlı qızım Rüqəyyədir". O sözünə davam edərək: "Sən daha çox pul qazanmaq məqsədilə tacirin yas mərasimində iştirak etmək təklifinə üstünlük verib, Rüqəyyə (ə) adına niyyət edərək məclis keçirən xanıma, onun məclisini aparmaq barədə, əvvəcədən verdiyin sözə xilaf çıxırsan. Və pulu Əhli-beytdən (ə) üstün tutaraq, İmaməti madiyyata satırsan?"

Mən yuxudan hövlnak ayılaraq, gecə saat ikini keçməsinə baxmayaraq, zəng edib, Tacirin məclisini aparmaq fikrindən vaz keçdiyimi dostuma bildirdim".

## Məsihi qadının Həzrəti-Rüqəyyəyə (s.ə.) təvəssülü

Höccətül-islam vəl-müslimin Hacı Şeyx Mühəmməd Məhdi Tac Ləngərudi yazır: "Dəfələrlə Həzrət Rüqəyyənin (ə) Şam şəhərində qəbrini ziyarət etmiş məşhur vaiz dostlarımdan biri minbərdə deyirdi: "Bir fransız qadının Həzrəti-Rüqəyyənin (ə) hərəminə - müqəddəs asitanəyə hədiyyə olaraq iki qiymətli xalı gətirdiyinin şahidi oldum. Camaat fransalı xristian qadının bu hərəkətindən təəccüblələndiklərini gizlətməyərək, ondan bunun səbəbini soruşdular. O isə cavabında dedi: "Bildiyiniz kimi mən müsəlman deyiləm. Bir gün Fransadan buraya-Suriyaya məmuriyyət ünvanı ilə gəlmişdim. Bu müqəddəs asitanəyə yaxın bir mənzili kirayə edərək məskunlaşdım. Elə birinci gecədən ağlaşma səsi istirahətimi pozdu. Ağlaşma səsləri ara vermədiyindən, ev sahibindən bu ağlaşmanın səbəbini soruşmalı oldum. Mənə bu ağlamaq səslərinin bu yaxınlıqda dəfn olunmuş bir qızın qəbrinin ərazisindən gəldiyini bildirdilər. Mən elə bildim ki, o qız təzəliklə dünyasını dəyişib. Onun ata-anası, yaxınları növhə oxuyuraq və ağlaşaraq onu yad edirlər. Amma mənə onun ölümündən və dəfnindən min ildən çox вахт keçdiyini deyəndə, təəccübüm bir az da artdı və camaatın yüz illərdən sonra onu belə bir məhəbbətlə sevmələrinin səbəbini soruşdum.

Mənə onun İmam Hüseyinin (ə) kiçik qızı və adi qızlardan fərqli olduğunu, Yezidin (l) onun atasının başını kəsdirərək Şama gətirtdiyi və Rüqəyyəyə (ə) atasının kəsilmiş başını göstərən zaman qəşş edərək dünyasını dəyişdiyi barədə məlumat veriləndən sonra mən təəccübümü gizlədə

bilmədim və bu hərəmə gəldim. İnsanların hər tərəfdən gələrək, aşiqanə şəkildə ağladıqlarının, nəzir edib hədiyyələr gətirdiklərinin, təvəssül etdiklərinin şahidi olanda, Onun məhəbbəti mənim də qəlbimdə özünə möhkəm yer elədi.

Bir müddətdən sonra məni övladımı dünyaya gətirmək məqsədilə xəstəxanaya gətirəndə, müayinədən sonra həkimlər övladımın qeyri-təbii yolla – cərrahiyyə əməliyyatı vasitəsilə dünyaya gətirmək məcburiyyətində olduğumu bildirdilər. "Cərrahiyyə əməliyyatı" sözünü eşidən kimi ölümlə üzləşdiyimin fərqinə vardım. Çarəsiz qalanda, Allahıma dua edərək, dərdimin çarəsini ondan istədim və əlimi bu qızın məzarına tərəf uzadaraq, "İlahi, atasının başı kəsilən, əsirlikdə döyülən, zülmlərə məruz qalan bu nakam qızın haqqına and verirəm Səni, mənə bu çətinlikdən nicat ver. Əgər bu həlakətdən nicat tapsam, iki qiymətli xalımı onun hərəminə hədiyyə edərəm" – deyə niyyət etdim.

Allah şahiddir ki, nəzir və təvəssül etdikdən sonra çox çəkmədi ki, həkimlərin gözlədiyinin əksinə olaraq, övladım təbii yolla dünyaya gəldi və mən ölümdən nicat tapdım. İndi öz əhdimə və nəzrimə əməl edərək, xalıları bu müqəddəs Hərəmə gətirmişəm".[1]

---

[1] "Təvəssülat və ya rahi ümidvaran", səh.161.

## Məsihi qızın şəfa tapması

Livanlı məsihi bir qadın iflic olmuş qızının dərdinə öz ölkəsində çarə tapa bilmədiyindən, həkim sorağı ilə onu gətirib Şam şəhərinə gəlir və özü də bilmədən kirayələdiyi ev Həzrəti-Rüqəyyənin (ə) əzəmətli hərəminin yaxınlığında yerləşən evlərdən biri olur. Ana qızının müalicəsi üçün həkim sorağında ikən, Aşura günü çatır. O, camaatın dəstə-dəstə onun yaşadığı məkana tərəf gəldiklərini müşahidə edir və ev sahibindən bunun səbəbini soruşur. Ona burada Həzrəti-İmam Hüseynin (ə) müsibətlər çəkmiş qızının hərəmi olduğu barədə məlumat verirlər. Qadın xəstə qızını evdə tənha qoyub, otağın qapısını bağlayaraq camaatla birgə Həzrəti-Rüqəyyənin (ə) hərəminə gəlir. O, camaatın etdiyi kimi Həzrət Rüqəyyəyə (ə) təvəssül edir, o qədər ağlayır ki, qəşş edib huşunu itirir. O, huşsuz halda ikən kimsə ona "Ayağa dur, evə get, qızın təkdir və Allah ona şəfa veribdir" deyir.

Özünə gələn məsihi qadın hövlnak ayağa durur, tələsik evə yollanır.

Ana qapını açanda qızının sağ-salamat halda oyuncaqlarla oynadığının şahidi olur. Bunu görəndə sevincindən özünə yer tapmır, gözlərindən yaş damcıları süzülür. Qız anasını görüb onun boynuna sarılır və deyir: "Ana, sən getdikdən sonra Rüqəyyə adlı bir kiçik qız evə gəldi və mənə yaxınlaşaraq "Dur, birlikdə oynayaq" dedi. Və əlavə etdi ki, ayağa dura bilmək üçün "Bismilləhir-rahmənir-rahim" de. Mən "Bismilləhir-rahmənir-rahim" deyəndən sonra o mənim əlimdən tutdu. Mən ayağa durdum və bu zaman bədənimin sağ-salamat olduğunu gördüm. O, mə-

nimlə söhbət edirdi ki, sənin ayaq səslərin qapıda eşidildi. O mənə “anan gəldi” deyərək, yox oldu”.

Məsihi qadın İmam Hüseynin (ə) qızından bu kəraməti gördükdə müsəlmançılığı qəbul etmişdir.[2]

---

[2] "Sitareyi dirəxşani Şam", səh.270.

## Kiçik beşik

Qum Elmi Hövzəsinin ustadlarından olan, təqvalı alim, höccətül-islam vəl-müslimin Seyyid Mürtəza Müctəhid Sistani deyir ki, müqəddəs Məşhəd şəhərinin sakini, İmam Hüseynin (ə) hərəminin xidmətçisi Hacı Sadiq Müttəqi 1418 (h.q) məhərrəm ayında mənə bunları nəql elədi: "Qızımın izdivacından altı il keçməsinə baxmayaraq, o hələ də övlad sahibi olmamışdı. Bir neçə həkimə müraciət etsək də, çoxsaylı nüsxələrə əməl etsək də, heç bir faydası olmadı. Belə olanda, Allahdan Həzrəti-Rüqayyənin (ə) fəziləti xatirinə qızımıza övlad qismət eləməsini istəmək niyyəti ilə 1417-ci ilin səfər ayında Şama getdim. Həyat yoldaşımın mənə verdiyi kiçik beşiyi Həzrəti-Rüqəyyənin (ə) mütəhhər zərihinə bağlayaraq, qızıma övlad istədim.

Mən Şamda Əhli-beytin (ə) hərəmlərini ziyarət edib İrana qayıdandan bir müddət keçmiş, xanımım qızımızı müayinə üçün həkimə aparmaq istədiyini mənə dedi. Həkim müayinəsindən sonra məlum oldu ki, Həzrəti-Rüaəyyənin (ə) bərəkətilə qızımızın övladı olacaq. Bir müddətdən sonra bir nəvəmiz dünyaya gəldi.

Bu fəsli Hüseyn Ğəffari Ərdəbilinin "Həzrəti-Rüqəyyəyə (ə) salam" mərsiyyəsi ilə yekunlaşdırırıq:

*Salam ola ağamın məsləkü əqidəsinə,*
*Cəmali-ənvərinə, qaməti-keşidəsinə.*[2]

---

[2] Çəkilmiş qamətinə

*Salam ola ağamın xanədani-itrətinə,*
*Gözəllərin gözəli nazidanə Əkbərinə.*

*Salam ola ağamın zübde[1] məhliqalərinə,*
*Minayi-eşqdə ətşan ölən fədalərinə.*

*Salam ola ağamın təşnə zibh olan başinə,*
*Livayi-dinə mühafiz şərəfli qardaşinə.*

*Salam ola ağamın qanə ğərq olan ləbinə,*
*Kəfili-itrəti-Xatəm, vəfali Zeynəbinə.*

*Salam ola ağamın şiveyü rəviyyəsinə,[2]*
*Xərabələrdə ölən mehriban Rüqəyyəsinə,*

*Ğürub olanda xanım, aşiqanə ağlardı,*
*Deyərdi növhə, dili masəvani[6] dağlardı.*

*Deyərdi, bilmirəm hansı məkandasan babacan,*
*Rüqəyyə canüvə qurban, hayandasan babacan.*

*Fəraqətin qızına eylələr əsər gecələr,*
*Sənin vüsalinə xatir ürək əsər gecələr.*

*Nə çox səfərdə yubandın, sənə gözüm qurban,*
*Ata qoyar gözü yolda qızın məgər gecələr?*

---
[1] Seçilmiş
[2] Getdiyi yola
[6] Hamını

*Bu dəfə gəlsən əgər, qoymaram çıxıb gedəsən,*
*Üç yaşlı aşiqinə çox yerin gələr gecələr.*

*Bibim deyir, gələcək bir gecə vəfalı baban,*
*Üzarə göz yaşını tökmə bu qədər gecələr.*

*Diyəm ki, qorxuram əmmə gələndə yatmış olam,*
*Odur oyaq qalıram sinədə şərər gecələr.*

*Darıxmışam babacan gəl apar məni vətənə,*
*Qucaqə al məni, ey müjdeyi-səhər, gecələr.*

*Gümanın olsa əgər, bari namə yaz göndər,*
*Ğəm üz verəndə salım namənə nəzər gecələr.*

*Yazanda namə Əli Əkbərin də halın yaz,*
*Rüqəyyəsiz görüm aya nə eylər gecələr.*

*Mənim dilimcə denən, küsmüşəm, Əli, səndən,*
*Demir ki, heç bacımı kimsə dindirir gecələr.*

*Düşəndə yadımə Əkbər, sitarəyə baxaram,*
*Günüz gedər, yenə göydə gəlib gəzər gecələr.*

*Denən itib sən alan guşivarə, ay qardaş,*
*Qulağımın yarası, Əkbər, incidir gecələr.*

*Gərək dubarə mənə ayrı guşivarə ala,*
*Salam qulağıma getsəm qonaq, əgər gecələr.*

*Qonaq çağırsa əgər, xişü əqrəba, gedərəm,*
*Qəribənin evinə salmaram güzər gecələr.*

*Qəribələr bizi viransərada saxladılar,*
*Ğəza da vermədilər qövmi-xeyrə sər*[1] *gecələr.*

*Xərabə qonşuluğunda vəfalı bir qız var,*
*Günüz gələr bura amma yenə gedər gecələr.*

*Ğürub olanda babası gələr dalınca onun,*
*Gedib yatar öz evində o bəxtəvər gecələr.*

*Mənim vəli nə babam var, nə abırlı evim,*
*Saray zülmət olar, çıxmasa qəmər gecələr.*

*Gələndə görsədərəm, yoldaşım görər babamı,*
*Ürəkdən əsgilə ğəm bəlkə müxtəsər gecələr.*

*Sözüm uzandı baba, tari-zülfi-Əkbər tək,*
*Bu rəsmdir. uzanar şərhi-ğüssələr, gecələr.*

*Mənim vəli baba, səndən sonra kimim vardı,*
*Qulaq verə sözümə gözdə əşki-tər gecələr.*

*Səni qəsəm verirəm qüssəli ölən nənənə,*
*Qoyardı səcdəyə pişani*[1] *dide tər*[2] *gecələr.*

---

[1] Utanmaz və özbaşına
[1] Alın
[2] Gözü yaşlı

*Anam Rübabı düa eylə harda olsan əgər,*
*Yatıb durar yuxudan, sübhədək mələr gecələr.*

*Qoyub qəbaqinə bir boş beşik həyalı anam.*
*Biz ağlayanda o da lay-lay deyər gecələr,*

*Hamı deyib yorular, gözlərin yumub - yuxular,*
*İşıqlanınca o gəhvarə tərpədər gecələr.*

*Əsasi-ğarəti[3]-Zeynəb bibim alan gündən,*
*O qanlı qündaqi tez-tez açıb bələr gecələr.[7]*

[3] Qarət olunmuş malları
[7] Hüseyn Ğəffari Ərdəbili

# III FƏSİL

## Xanlm Zeynəb (s.ə.) Yezidin sarayın

Əhli-beyt (ə) əsirləri Kufədə zindanda saxlanılırdı. Onlar İbn Ziyadın (l) zindanında çətin günlər keçirdikdən sonra, Yezidin (l) əmri ilə Şama göndərildi.Yezid (l) və onun adamları böyük fəth və qələbə hesab olunan bu karvanın Şam şəhərinə daxil olması üçün dəqiqələri sayırdılar. Tarixçilərin qeydlərinə əsasən, əsirlər karvanı minlərlə tamaşaçının gözü qarşısında şəhərə daxil oldu. Həmin gün Şam şəhəri sevinc və fərəh içində idi və camaat Yezidin (l) qələbəsini bayram keçirirdi. Əsirlər karvanı camaatın arası ilə küçələri bir-bir arxada qoyaraq, Səfər ayının 1-də Yezidin (l) sarayına çatdı. Yezid (l) taxtın üzərində qürur və təkəbbürlə əsirləri görmək intizarında idi. Übeydullah ibn Ziyadın (l) məclisindən fərqli olaraq Yezidin (l) məclisinə hər adam gələ bilmirdi. Ancaq ölkə böyükləri, qəbilə başçıları və bəzi xarici ölkələrin nümayəndələri iştirak edirdilər. Buna görə də, bu məclis çox əhəmiyyətli bir məclis hesab olunurdu.

Əsirlər saraya daxil olub nəzərdə tutulmuş yerdə dayandılar. Öz mənsəbpərəstliyi ilə məst və məğrur olan şərabxor Yezid (l) əmr etdi ki, Hüseynin (ə) başını gətirsinlər. İmamın (ə) başını bir teştə qoyub onun hüzuruna gətirirlər. Yezid başa baxır və əlindəki çubuq ilə İmamın (ə) müqəddəs dişinə vurur və deyir: “Kaş mənim Bədr döyüşündə iştirak edən və Xəzrəc qəbiləsinin başçıları, oxların vurduğu

ziyandan əziyyət çəkdiyinin şahidi olan böyüklərim bu gün məclisdə şadlıqlarından qışqırıb deyəydilər: Yorulmayasan, ey Yezid! Onların böyüklərini, rəhbərlərini öldürdük və Bədr gününün əvəzini çıxdıq. Haşimilər xilafətlə oynadılar, nə bir kitab, nə də bir vəhy almadılar. Əhmədin acığını balalarından çıxmasam, Xəndəf qəbiləsindən deyiləm. Bu evlərdə peyğəmbərdən, din və Qurandan heç bir xəbər yoxdur. Gördüklərimiz cahillik dövrünün qisas xatirələrinin təzələnməsidir. Qanı qanla yuduq." ("Bəlağatun-nisa", səh.20.)

## Xanım Zeynəbin (s.ə.) xütbəsi

Əgər məclis həmin yerdə sona yetsəydi, Yezid (l) qalib gələr, ya da onun əmri ilə icra olunan işlər o qədər də çirkin görünməzdi. Amma Zeynəb (s.ə) işin bu şəkildə sona çatmasına imkan vermədi. Yezidin şadlığını onun ağzında zəhərdən də acı etdi. Məclisdəkilərə göstərdi ki, qarşılarında dayananlar o adamın qızlarıdır ki, Yezid (l) onun adı ilə Şam əhalisinə xəlifəlik edir. Onlara anlatdı ki, İslam, hökumətdən qabaq dindir. Hakimdən üzüaşağı ən kiçik vəzifəli adama qədər, Allah qarşısında etdiyi iş və danışdığı söz üçün məsuliyyət daşıyır. Onlara göstərdi ki, İslam qüdrət üzərində deyil, təqva sütunu üstündə möhkəmlənir.

Xanım Zeynəb (s.ə.) anası Fatimə (s.ə.) kimi zülmkarların qarşısında qamətini düzəltdi, Allaha həmdü səna etdi, Peyğəmbər (s) və Əhli-beytinə (ə) salam göndərdi, öz sözünü Qurandan bir ayə ilə belə başladı:

ثُمَّ كَانَ عَاقِبَةَ الَّذِينَ أَسَاءُوا السُّوأَىٰ أَنْ كَذَّبُوا بِآيَاتِ اللَّهِ وَكَانُوا بِهَا يَسْتَهْزِئُونَ

“Pis iş tutanların işinin axırı bu idi ki, Allahın ayələrini yalan bilib istehza etdilər (Rum, 10)”.

“Ey Yezid, elə fikirləşirsən ki, göyü-yeri bizə dar edib, əsirlər kimi bu şəhərdən o şəhərə aparmaqla biz zəlil olduq, sən isə əziz? Qiymətinin artdığını güman edərək belə qürrələnib təkəbbür edirsən? Padşahlığına maneə olmadığını və işlərinin yaxşı getdiyini görüb özünə sığmırsan.

Lakin bunun sənə özünü olduğun kimi tanıtmaq üçün verilən bir fürsət olduğunu bilmirsən. Allahın kəlamını unutmusan ki, belə buyurur: “Kafirlər onlara verdiyimiz fürsətin özləri üçün yaxşı olduğunu güman edirlər. Biz onlara möhlət veririk ki, günah yükünü ağırlaşdırsınlar. Sonra elə bir əzaba düçar olarlar ki, xar və rüsvaylıqdır. Ey azad olunmuşun oğlu! Bu necə ədalətdir ki, sənin qızların və kənizlərin pərdə arxasında izzətlə otururlar, amma sən Peyğəmbərin (s) qızlarını əsir edərək, onların hörmət pərdəsini yırtıb səslərini boğazlarında qoyursan və yad kişilər onları dəvə üstündə bu şəhərdən o şəhərə gəzdirirlər! Belə ki, onlara nə sığınacaq verən olur, nə qoruyan, nə də bir böyükləri vardır! Camaat axışıb hər tərəfdən onlara tamaşaya gəlirlər. Ürəyi bizim ədavətimizlə dolu adamdan bundan başqa bir şey ummaq olarmı? Deyirsən, kaş “Bədr” döyüşündə öldürülən babaların burada olaydılar və bu sözü deyəndə ağacla Peyğəmbər (s) balasının dişlərinə vurursan?

Heç vaxt dərk etməzsən ki, çox çirkin bir iş tutmusan! Niyə də etməyəsən? Sən, yerin ulduzları olan Peyğəmbər (s) balalarının və Əbdül-Müttəlib (ə) ailəsinin qanını tökməklə iki xanədanın düşmənliyini təzələdin. Şadlanma! Çünki, tezliklə Allah dərgahına aparılacaqsan. O zaman arzu edəcəksən ki, kaş kor olaydım və bu günü görməyəydim, “Babalarım bu məclisdə olsaydılar, şadlıqlarından özlərinə sığmazdılar!” – sözlərini deməyəydim!

İlahi, özün bizim haqqımızı al və bizim heyfimizi bizə zülm edənlərdən çıx! And olsun Allaha, öz dərini və ətini qopartdın! Həmin gün Allah Rəsulu (s), onun xanədanı və ürək parçaları Allahın rəhməti sayəsində rahatlanacaqlar, sən isə rüsvay halda Onun qarşısında dayanacaqsan. O

gün həmin gündür ki, Allah Öz vədinə əməl edəcək. Hərəsi bir küncdə öz qanına bulaşmış bu məzlumlar bir yerə yığılacaqlar. Çünki Allah Özü Ali-İmran surəsinin 169-cu surəsində belə buyurur:

وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا ۚ بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ

"Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir".

İmam Səccad (ə) Kərbəlada xəstə və zəif olduğu üçün əsirlərin məsuliyyətini Həzrət Zeynəb (s.ə) öz üzərinə götürmüşdü. Lakin buna baxmayaraq, dördüncü imamımız İmam Səccad (ə) Əhli-beytin (ə) hərəmini var gücü ilə qoruyurdu.

Əsirlər Kufəyə daxil olan zaman böyük insan toplumu onlara tamaşa etmək üçün yığılmışdı. Onlar əsirləri tanıyandan sonra nalə çəkib ağlamağa başladılar. İmam Səccad (ə) onlara buyurdu: "Siz bizim halımıza nalə çəkib ağlayırsınız, bəs bizləri kim öldürdü?!".

Əsirlər İbn Ziyadın (l) sarayına aparılan küçələrdən keçəndə, Əhli-beyt (ə) insanlara moizə edirdi və İmam (ə) öz atasının kim olduğunu bəyan edərək, Kərbəla müsibətindən danışırdı. Kufəlilər İmam Hüseynlə (ə) bağladıqları əhdə vəfa etmədiklərinə görə xəcalət çəkirdilər.

İmam Səccad (ə) onlara buyururdu: "Ey insanlar, hər kim məni tanıyır, məni tanıtmağa ehtiyac yoxdur. Hər kim məni tanımır, indi mən özümü tanıdacağam. Mən Əli ibni Hüseyn ibni Əli ibn Əbutalibəm (ə). Mən o kəsin oğluyam ki, Fəratın sahilində heç kimin haqqını tapdalamadığı hal-

da başını kəsdilər. Mən o kəsin oğluyam ki, onu əziyyətlə öldürdülər. Ancaq o səbr etdi və həmin iftixar bizim üçün kifayətdir. Ey insanlar! Sizi Allaha and verirəm, məgər unutmusunuz ki, sizlər atama məktub yazdınız və sizə tərəf gələn zaman ona hiylə qurdunuz?! Siz atamla əhd bağladınız və onunla beyət etdiniz. Ancaq beyətinizi sındırdınız və onu öldürdünüz. Ona görə də siz özünüzü həm bu dünyada, həm də axirətdə rüsvay etdiniz".

Bu sözlərdən sonra insanların naləsi göyə ucaldı və bir-birinə dedilər: "Vay olsun bizə! Təəssüf olsun bizə! Peyğəmbərin (s) əziz oğlunu öldürərək və Əhli-beytini (ə) əsir tutaraq, özümüzü ən ağır cəzaya düçar etdik".

Sarayda İbn Ziyad (l) İmama (ə) üz çevirib dedi: "Sən kimsən?". Buyurdu: "Mən Əli ibn Hüseynəm (ə)". "Məgər Allah Əli ibni Hüseyni (ə) öldürmədi?". İmam (ə) susdu. İbn Ziyad (l) dedi: "Nə oldu, niyə susdun?". İmam (ə) buyurdu: "Bir qardaşım var idi ki, onun da adı Əli idi və insanlar onu öldürdülər". İbni Ziyad (lən) dedi: "Allah onu öldürdü". İmam (ə) yenə susdu. Məlun dedi: "Niyə danışmırsan?". İmam (ə) buyurdu: "Allah canları ölən zaman alır. Heç bir nəfs Allahın izni olmadan ölməz". İbni Ziyad (l) dedi: "Allaha and olsun ki, sən də onlardansan". Sonra yanındakı əsgərə dedi: "Vay olsun sənə, onu öldür!".

İbn Ziyad (l) İmamın (ə) möhkəm məntiqi qarşısında heç nə deyə bilmədi və ona görə də onu bu yolla susdurmaq istədi. Lakin xanım Zeynəbin (s.ə) fədakarlığı nəticəsində İmam Səccad (ə) sağ qaldı.

Yezid (l) də İbn Ziyad (l) kimi İmam Hüseynin (ə) ölməsini Allaha nisbət verir (nəuzubillah!). Sonra üzünü İmam Səccada (ə) çevirib, deyir: "Ey Əli! Allahın atan Hüseynlə (ə) etdiklərini necə görürsən?". İmam (ə) buyur-

du: “Allahın qəzasını səma və yerin xilqətindən əvvəl gördüm!”. Yezid (l) də bir neçə nəfərin təklifi ilə onu öldürmək istəyir. İmam (ə) buyurur: “Ey Yezid! Qibtilər Fironun tərəfdaşlarının əksinə təklif verdilər. O zaman ki, Firon Musa (ə) və Harun haqqında onlarla məsləhətləşir, onlar deyirlər: “Musanı (ə) və qardaşını burax getsin! Fasiqlər belə peyğəmbərlərin övladlarını qətl etdirməyiblər”. İmam (ə) bu yolla məluna başa salır ki, o, Firon və onun tərəfdaşları kimidir. Yəni, əgər İmamı (ə) öldürsə, öz fasiqliyini aşkar edəcək. Bu yolla Yezidi (l) silahsızlaşdırır.

Allah yolunda ölmüşləri ölü sanmayın, onlar diridirlər və Allahın nemətlərindən bəhrələnirlər.» Amma səni nahaq yerə müsəlmanların boynuna mindirən Müaviyə ilə birgə Mühəmməd məhkəməsi qurulacağı, Allahın hakimlik edəcəyi və sənin əl-ayağının həmin məhkəmədə şahidlik edəcəyi zaman hansınızın daha bədbəxt və sığınacaqsız olduğunuzu biləcəksən. Ey Allahın düşməni – Yezid! And olsun Allaha, mənim gözümdə o qədər qiymətin yoxdur ki, səni danlayam, ya təhqir edəm. Amma nə edim, yaş gözlərimdə həlqə vurur və ah sinəmdə şölələnir! Hüseyn öldürüldükdən sonra, bu cəlladların əli bizim qanımıza bataraq ağızları bizim ətimizin parçaları ilə dolduqdan sonra, yırtıcı canavarlar o pakizə cəsədlərin həndəvərinə dolaşdıqdan sonra, şeytan ordusunun Peyğəmbər (s) xanədanının ehtiramını sındırmaqla məzlum və zəhmətkeş müsəlmanların zəhmətinin nəticəsi olan “beytul-mal”dan ənam almaq üçün, bizi Kufədən ağılsızların sarayına gətirdikdən sonra, səni qınayıb, məzəmmət etmək nəyə yarar? Əgər bizi öldürüb, əsir etməklə faydalandığını zənn edirsənsə, tezliklə bunun ziyandan başqa bir şey olmadığını görəcəksən. O gün etdiklərindən başqa bir nəticə əldə etməyəcək-

sən. O gün sən İbn Ziyadı (l) köməyə çağıracaqsan, o da səndən kömək istəyəcək. Sən və sənə itaət edənlər Allahın ədalət tərəzisi ətrafında toplanacaqsınız... And olsun Allaha, mən Allahdan başqasından qorxmur və Ondan da başqasına şikayət etmirəm. Nə istəsən et, nə hiylə bacarırsansa işlət, nə düşmənçiliyin varsa göstər! And olsun Allaha, sənin üzərində olan bu pis ləkə heç vaxt təmizlənməyəcək.

Şükr olsun Allaha ki, cənnət gənclərinin sərvəri işini səadətlə sona yetirdi. Behişti onlara vacib etdi. Allahdan istəyirəm ki, onların dərəcələrini artırsın və Öz rəhmətini onlara sayə etsin, çünki O, çox qüdrətlidir!" ("Lühuf", Seyid ibn Tavus, səh.130-135.)

Dəməşq camaatı yavaş-yavaş İraqda baş verən hadisənin həqiqətindən xəbərdar oldu. Bildi ki, Yezidin (l)əmri və Kufə qoşunlarının əli ilə öldürülən sadəcə üsyançı yox, Allah Rəsulunun balası, bura əsir gətirilən əsir qadın və uşaqlar isə Peyğəmbərin ailəsidirlər. O şəxsin ailəsi ki, Yezid (l) onun canişini adı ilə onlara və başqa müsəlmanlara hakimlik edir. Dağlı ürəkdən və təqva dolu qəlbdən qüvvət alan danışığın nəticəsi məlumdur. Ən daşqəlbli insan belə, iman və təqva ilə qarşılaşdıqda öz gücsüzlüyünü və tərəf müqabilinin qüdrətini görür və bir müddət qərar verməkdə aciz olur! (Rza Şükürlünün məqaləsindən)

İmam (ə) buyurdu: "Əgər Peyğəmbər (s) məni bu halda görsəydi, nə güman edərdin?". Yezid (l) əmr edir ki, onun zəncirlərini açsınlar. Sonra Yezid (l) xətibə işarə edir ki, Müaviyəni (l) tərifləsin və İmam Hüseyni (ə) təhqir etsin. Bu işi görən zaman İmam Səccad (ə) fəryad çəkdi və buyurdu: "Məxluqun razılığını Xaliqin qəzəbi qarşılığında satın aldın. Ona görə də yerini atəşlə dolu bil".

Sonra buyurdu: "Mən o kəsin oğluyam ki, öz qanına

boyandı. Mən Kərbəlada başı kəsilənin oğluyam. Mən o kəsin oğluyam ki, zülmətdəki bütün pərilər ona ağladılar və səmadakı quşlar ona növhə dedilər".

Bu zaman insanların naləsi ucaldı və Yezid (l) qorxuya düşdü. Azan deyənə əmr etdi ki, azan versin. O deyir: "Allahı Əkbər!". İmam (ə) buyurur: "Allah ondan da Böyük, Cəlil, Ali və Kərimdir ki, biz ondan qorxaq və çəkinək". Azan deyən ilk şəhadəti deyəndə İmam (ə) buyurur: "Bəli, hər bir şəhadət verənlə şəhadət verirəm ki, Ondan başqa Məbud yoxdur və Ondan başqa Pərvərdigar yoxdur". Azan deyən ikinci şəhadətə çatanda İmam (ə) buyurur: "Muhəmmədin (s) haqqına səndən istəyirəm ki, sakit olasan ki, mən bu sözümü deyim". Sonra Mübarək üzünü Yezidə (l) çevirib, buyurur: "Bu əziz və kərim Rəsul (s) sənin cəddindir, yoxsa mənim? Əgər desən ki, sənin cəddindir, bütün insanlar bilir ki, yalan deyirsən. Əgər desən mənim cəddimdir, bəs niyə atamı zülmlə qətl etdirdin? Malını qarət edib, qadınlarını əsir aldın! Vay olsun sənə, Qiyamət günü mənim cəddim sənin düşmənin olacaqdır".

**الا لعنة الله على القوم الظالمين**

*"Allah zülmkarlara lənət etsin!"*

Həmd olsun aləmlərin Rəbbi olan Allaha ki, bizim əvvəlimizi səadət və məğfirət, axırımızı isə şəhadət və rəhmət qərar verdi. Allahdan istəyirik ki, onların savabını kamil etsin və əcrlərini artırsın. Allahın özü bizim üçün ən gözəl vəkildir və O Mehribanların Mehribanıdır və yalnız Ona təvəkkül edirik[8].

---

[8] "Biharul-ənvar", 45-ci cild.

*Eşqin məni gətdi səfər üstə dilə Zeynəb,*
*Göz yaşıvi, Zəhra anamız yox, silə, Zeynəb.*

*Meydanə gözü yaşlı nəzər salmasan olmaz,*
*Ağ zülflərivi əllərüvə almasan olmaz.*
*Avarə, pərişan, nigəran qalmasan, olmaz,*
*Qoymaz bu fələk qəmlərivi əsgilə, Zeynəb.*

*Dünyadə atar nehzətimiz hər yerə rişə,*
*Hind oğlu kimilər vura bilməz, bacı, tişə.*
*İslama olub hami Bəni-Haşim həmişə,*
*Əgməz başını zalimə bu silsilə, Zeynəb.*

*Surətlə çıxıb xeyməsəradən aralannam,*
*Meydandə ox nizə vurarlar, yaralannam.*
*Mən səfheyi-Quran kimi yerdə paralannam,*
*Ta düşməyə Quranın işi müşgülə, Zeynəb.*

*Peykani-qəmə sinəvi amac eləyərlər,*
*Məndən sora əxyamımı tarac eləyərlərə*
*Qızlarımı bir məcərə möhtac eləyərlər,*
*Razı deyiləm indi hərəmlər bilə, Zeynəb.*

*Məndən sora əda ələ qamçı alacaqlar,*
*Xeymə talananda demə sakit qalacaqlar.*
*Bu qızlarımı qəmçilər altda salacaqlar,*
*Möhkəm vurular gərdənizə sil-silə, Zeynəb.*

*Düşmənlərimiz məclisi-şura quracaqlar,*
*Qanlı başımı novki-cidayə vuracaqlar.*

*Vursunlar mənə, daşla ətək dolduracaqlar,*
*Ahəstə vurarsan başıvı məhmilə, Zeynəb.*

*İtmamə qiyami yetirər ali-təfəkkür,*
*Məclisdə danış xəlq ilə küffarə tənəffür.*
*Səndən edərəm həşridə çox mən də təşəkkür,*
*Ver ruhi-səfa nitq ilə bu məclisə, Zeynəb.*

*Hicranimə Zəhrayi-sesalə dözə bilmir,*
*Məndən görürəm göz götürüb əl üzə bilmir.*
*Göz yaşını əndazə töxübdür üzə, bilmir,*
*Vəqtim yubanır, gəl bu qızı tut dilə, Zeynəb.*

*Məndən sora dərdü qəmi gər həddidən aşsa,*
*Qol boynuna sal kaseyi-səbri, bacı, daşsa.*
*Ağlar gözü qanlı başıma yolda sataşsa,*
*Qəşş eyləsə, tez gəl üzünə su çilə, Zeynəb.*

Allah-təala İmam Hüseynin (ə) qatillərinə və bu cinayətə razı olanlara lənət etsin!

## Maraqlı hadisə

1944-cü ildə Eduard adlı ingilis yazıçısı milyon tirajla çap olunan ən məşhur qəzetlərdə dərc etdirdiyi böyük həcmli məqaləsində fikirlərini bu cür açıqlayır: “Biz müsəlmanların bütün tarixi kitablarını dəqiqliklə araşdırdıq və sonda bir şey nəzərimizi cəlb etdi və başladıq tapdığımız o şeydən qorxmağa. Tapdığımız Zeynəb adında bir qadındır. Bu qadın Yezid kimi nəhəng bir şahın taxtını laxladıb məhv elədi. Özü də sözü ilə ! Bu necə ola bilər ? Çox təəccüblüdür. Bir qadın bu işi necə edə bilib? İncə və zəif bir varlıq bu çətin işi, axı, necə edə bildi? Biz avropalılar indiki yaşam tərzimizə baxdıqda görürük ki, tam Yezid kimi yaşayırıq. Biz avropalılar gecələr pozğunluq mərkəzlərində, barlarda əyyaşlıq edirik və Yezid də tam bizim kimi olubdur. Sonda isə bu Zeynəb ortalığa çıxıb onun taxtını yelə verdi. Axı, bu necə ola bilər?!! Bu qadın çox təhlükəlidir! Gərək hər bir Zeynəbi öldürək, yoxsa bizim ərşimizi onun düşüncəsini daşıyan kəslər aradan aparacaq! Çalışın o qadının düşüncələrini müsəlmanların zehnindən siləsiniz, yoxsa o qadın və ona bənzərlər biz avropalılar üçün böyük bir təhlükə törədəcək! Müsəlman kişilərə siz heç vaxt meydanda güc gələ bilməzsiniz. Çalışın o kişiləri qadınların vasitəsilə yollarından və əqidələrindən döndərəsiniz. Bunu ancaq bu yolla edə bilərsiniz: Müsəlman qadınını yalnız gözəllik nümunəsi kimi cilvələndirin və onun müsəlman cəmiyyətinin tərbiyəsində rol oynadığını müsəlmanların yaddaşından çıxarın. Onlar qadınları şəhvət,

ləzzət və moda nümunəsi bilməlidirlər. Belə olduqda, müsəlman kişisinin zehni şəhvətlə məşğul olacaq və bizim taxtımız möhkəmlənəcək. Əgər Zeynəb düşüncəsinə malik qadınlar müsəlman aləmindən silinməsə, onda işimiz çətin olacaq! Əgər ərşimizin həmişəlik olmasını istəyirsinizsə, hər bir Zeynəbi öldürməlisiniz, gərək bu ad ölə və unudula. Müsəlmanlar o qadını tanımamalıdır! Çalışın, müsəlman aləmində televiziya, radio, media və müxtəlif kanallar vasitəsilə pozğun, açıq-saçıq səhnələrə malik veriliş və filmlər hazırlayasınız. Bütün bunları edəndən sonra müsəlman aləmini öz əsarətinizə almağınızın muştuluğunu tezliklə mənə verin!

## İmam Səccadın (ə) Şamdakı xütbəsi

Həzrət İmam Səccad (ə) (Allahın salamı olsun ona), Yeziddən (l) cümə günü məsciddə xütbə oxumağına icazə istədi və Yezid (l) də razı oldu. Cümə günü məsciddə Yezid öz xətiblərinin birini minbərə göndərərək, ona Əli (ə) və Hüseyn (ə) barəsində nalayiq sözlər deməsini və Əbu Bəkr, Ömər və Yezidi (l) tərif etməsini əmr etdi və xətib də belə elədi.

İmam Səccad (ə) Yeziddən (l) öz vədəsinə vəfa etməyini istədi. Yezid (l) isə imama (ə) verdiyi vədədən peşiman olmuşdu və ona icazə vermək istəmirdi. Yezidin oğlu Müaviyyə, atasına müraciət edərək, "Bu kişinin xütbəsinin nə təsiri ola bilər ki, qoy nə istəyir, söyləsin" dedi.

Yezid (l) dedi: "Sən bu ailəni yaxşı tanımır, onların qabiliyyətindən xəbərsizsən. Onların elm və fəsahəti bir-birinə irs olaraq keçir. Qorxuram onun xütbəsi şəhərdə fitnəyə səbəb olsun".

Buna görə də Yezid, imamı xütbə oxumağa qoymaq istəmirdi. Amma, camaat hər tərəfdən Yeziddən (l) İmam Səccadın (ə) minbərə getməsinə razı olmasını israrla istədilər.

Yezid (l) dedi: "O, minbərə getsə, məni və Əbu Süfyan nəslini rüsvay etməyincə aşağa düşməyəcək".

Yezidə (l) dedilər: Bu gənc nə edə bilər axı, qoy oxusun xütbəsini.

Yezid (l) dedi: "O elə bir ailədəndir ki, orada hər kəs südəmər vaxtlarından elmdən bəhrələniblər".

Camaat bir az da israr etdilər. Nəhayət, Yezid(l) onların israrlarının qarşısında davam gətirməyib, imam Səccadın (ə) minbərdə xütbə oxumasına razılıq verdi.

İmam Səccad (ə) minbərə çıxaraq buyurdu:

Əzəli və əbədi olub, başlanğıcı olmayan Allaha həmd olsun. O, hər şeydən əvvəl var idi, hər şeydən sonra da olacaq. Bütün məxluq fani olduqdan sonra O, qalacaqdır.

Ey camaat! Allah bizə altı xislət əta edib:- elm, səbr, səxavət, fəsahət, şücaət və möminlərin qəlbində bizə qarşı məhəbbət.

Allah bizi başqalarından yeddi xüsusiyyət ilə üstün etdi: Allahın Peyğəmbəri Mühəmməd (s) bizim ailəmizdən seçilmişdir, Siddiq (Əli) bizdəndir, Təyyar bizdəndir, Allahın şiri və Allahın Peyğəmbərinin (s) şiri (Həmzə) bizdəndir, behişt cavanlarının iki ağası İmam Həsən (ə) və Imam Hüseyn (ə) bizdəndir, bu ümmətin İmami-Qaimi (ə) bizdəndir.

Hər kim məni tanıdı, tanıdı, tanımayanlara isə atamı, nəslimi və özümü tanıtdırıram.

Ey camaat! Mən Məkkə və Minanın oğluyam. Mən Zəmzəm və Səfanın oğluyam.

Mən o kəsin oğluyam ki, həcərül-əsvədi əbasında aparıb, (Kəbədə) öz yerinə qoydu.

Mən ən gözəl şəkildə Həcc əməlini yerinə yetirən və "ləbbeyk" deyənin oğluyam.

Mən o kəsin oğluyam ki, Büraqa səvar oldu. Mən o Peyğəmbərin (s) oğluyam ki, bir gecədə Məscidul-Həramdan, Məscidul-Əqsaya getdi.

Mən o kəsin oğluyam ki, Cəbrail (ə) onu Sidrətul-Müntəhaya apardı və Mütəal-Allaha ən yaxın olan məqama çatdırdı.

Mən o kəsin oğluyam ki, göylərdə mələklərlə namaz qıldı.

Mən o kəsin oğluyam ki, Əzəmətli Allah ona vəhy nazil etdi.

Mən Mühəmməd Müstəfanın (ə) oğluyam, mən Əliy-yən-Mürtəzanın (ə) oğluyam.

Mən o kəsin oğluyam ki, (Allaha) boyun əyməyənlərin boynunu əydi və "La ilahə illəllah"ı onlara iqrar etdirdi.

Mən o kəsin oğluyam ki, Peyğəmbərin yanında iki qılınc və iki nizə ilə vuruşurdu, iki dəfə hicrət və iki dəfə biət etdi, Bədrdə və Hüneyndə kafirlərlə döyüşdü, bir an belə olsun Allaha küfr etmədi.

Mən möminlərin ən yaxşısının, Peyğəmbərlərin(s) varisinin, müşrikləri məhv edənin, müsəlmanların əmirinin, cihad edənlərin nurunun, ibadət edənlərin zinətinin, ağlayanların iftixarının, səbirlilərin səbirlisinin, namaz qılanların ən üstününün, Allah Peyğəmbərinin Əhli-beytinin (ə) oğluyam.

Mən o kəsin oğluyam ki, Cəbrail (ə) onu qüvvətləndirdi və Mikail (ə)ona kömək elədi.

Mən o kəsin oğluyam ki, müsəlmanların hərəmindən himayət etdi, mariqin,[9] nakisin,[10] qasitinlə[11] vuruşdu və müsəlmanların düşmənləri ilə mübarizə etdi.

Mən Qüreyşin ən yaxşısının oğluyam.

Mən o kəsin oğluyam ki, Allahın və Peyğəmbərin (s) dəvətini qəbul edən ilk mömin olmuşdur.

Mən imanda ən öndə olanın, təcavüzkarların belini sın-

---

[9]Cəməl döyüşü iştirakçıları
[10]Siffeyn döyüşü iştirakçıları
[11]Nəhrivan döyüşü iştirakçıları

dıranın, müşrikləri məhv edənin oğluyam.

Mən o kəsin oğluyam ki, münafiqlərə qarşı Allahın atdığı ox idi və abidlərin hikmət dili, Allah dininin köməkçisi, Allah əmrlərinin vəlisi, Allah hikmətinin xəzinəsi və Allah elminin daşıyıcısı idi.

O, cəvanmərd, səxavətli, gözəl üzlü, xeyirlər mənbəyi, seyid, ağa, Allah razılağına razı olan, çətinliklərdə önə keçən, səbirli, həmişə oruc tutan, bütün çirkinliklərdən pak, çox namaz qılan idi.

O, düşmənlərin nəslinin kökünü kəsdi və küfr qoşununu pərakəndə etdi.

O, sabit ürəkli, möhkəm iradəli və əzmli idi. Şücaətli bir şir kimi idi ki, döyüşdə atlar çapılan və nizələr bir-birinə toqquşan zaman, onları xurd-xəşil edib, cəsədlərini ətrafa səpirdi.

Hicazın şiri, İraqın ağası, Məkkəli, Mədinəli, Xifli, Əqəbəli, Bədrli, Ühüdlü, Şəcərli və mühacirdən idi və bütün bu səhnələrdə iştirak etmişdi.

O, ərəbin seyidi, iki məşərin[12] varisi və Həsən və Hüseynin atasıdır. Bu mənim cəddim Əliyyibni Əbu Talibdir (ə).

İmam daha sonra buyurdu:

Mən bütün cahan qadınlarının xanımı Fatimeyi-Zəhranın (s.ə) oğluyam.

İmam Səccad (ə) o qədər belə iftixarlı sözlər dedi ki, axırda camaatın şivən və ağlamaq səsi ucaldı.

Yezid bunu görüb, narahat oldu və camaatın ona qarşı qiyam edəcəyindən qorxaraq, müəzzinə azan verməyi əmr etdi. O, bu hiyləsi ilə imam Səccadı (ə) sakitləşdirmək is-

---

[12] İki Məşər: ya iki behişt mənasınadır, ya da Müzədləfə və Ərəfatdır.

təyirdi.

Müəzzin qalxıb, azana başladı. "Allahu Əkbər".

İmam Səccad (ə) buyurdu: Allah hər şeydən böyükdür.

Müəzzin dedi: *"Əşhədu ənla ilahə illəllah"*.

İmam Səccad (ə) buyurdu: Tüküm, dərim, ətim və qanımla şəhadət verirəm ki, Allahdan başqa məbud yoxdur.

Müəzzin dedi: *Əşhədu ənnə Mühəmmədər-rəsulullah(s).*

İmam (ə) üzünü Yezidə(l) döndərib, buyurdu:

Bu adı çəkilən Mühəmməd (s) mənim cəddimdir ya sənin cəddin? Əgər öz cəddin olduğunu iddia etsən, yalan dedin və kafir oldun. Yox, əgər mənim cəddimdir desən, nə üçün onun övladlarını öldürdün və onları qılıncdan keçirdin?

Sonra müəzzin azanı davam etdirdi və Yezid (l) qabağa keçib namaza başladı...[13]

Başqa rəvayətdə isə deyilir: Elə ki, müəzzin dedi: Əşhədu ənnə Mühəmmədər-rəsulullah.

İmam Səccad (ə) əmmaməsini başından götürdü və müəzzinə dedi: “Səni and verirəm Mühəmmədin (s) haqqına, bir anlığa sakit ol.

Sonra üzünü Yezidə (l) tutub, dedi: Ey Yezid! Bu adı çəkilən Peyğəmbər (s), mənim cəddimdir ya sənin cəddin? Əgər öz cəddin olduğunu desən, hamı bilər ki, yalan danışırsan. Yox, əgər mənim cəddimdirsə, bəs nə üçün mənim atamı zülm ilə öldürdün və malını qarət, əhli-əyalını isə əsir etdin?

İmam (ə) bunları deyib, yaxasını açdı və ağlamağa başladı. Sonra isə buyurdu:

---

[13] "Biharul-ənvar", 45-ci cild.

And olsun Allaha, əgər yer üzündə cəddi Peyğəmbər (s) olan bir şəxs varsa, o mənəm! Bəs nə üçün bu (Yezid) atamı öldürdü və bizi rumlular kimi əsir etdi?

Sonra buyurdu:

Ey Yezid! Bu qədər cinayətləri etmisən və yenə də deyirsən, Mühəmməd (s) Allahın rəsuludur və üzü qibləyə dayanırsan? Vay olsun sənə! Qiyamət günü atam və cəddim səninlə düşmən olacaqlar.

Yezid (l) fəryad çəkib, dedi: Müəzzin, azanı damam elə!

Camaat arasında hay-küy qalxdı, bəziləri Yezidlə (l) namaz qıldılar, bəziləri isə namaz qılmadan dağılışdılar[14].

Həzrət Zeynəbin (ə) və Həzrət İmam Səccad (ə) şamlıların arasında oxuduqları güclü xütbələrdən, və Həzrət Rüqəyyənin (ə) məzlumcasına xarabada can verməsindən sonra camaat həqiqəti başa düşdü, Bəni Üməyyə aparatının hiylə və siyasətlərinin üstü açıldı və artıq hamı Yezidə lənət göndərib, tənə etməyə başladı.

Yezid (l) özünü camaat qarşısında çarəsiz gördükdə bu cinayəti ört-bastır etməyi qoşun başçılarının boynuna atdı.

Camaat arasında söhbət ancaq Yezidin (l) zülmündən gedirdi. Onlar, Yezidin Peyğəmbər (s) övladlarını öldürməsindən və onun əhli-əyalını əsir etməsindən danışırdılar.

Yezid camaatın ona qarşı qiyam edəcəyindən qorxub, Kərbəlada iştirak edən qoşun başçılarını- Şibs ibn Rəbi, Məsaib ibn Vəhibə, Şimr ibn Zil Coşən, Sinan ibn Ənəs, Xuli ibn Yəzid, Qeys ibn Rəbi və başqalarını bir yerə toplayaraq, əvvəlcə Şibs ibn Rəbidən soruşdu: Hüseyni (ə)

---

[14] "Nəfsul-məfhum", səh. 451.

sən öldürdün?

Rəbi dedi:- Hüseynin (ə) qatilinə Allah lənət etsin, mən onu öldürməmişəm.

Yezid soruşdu:- Bəs Hüseynin (ə) qatili kimdir?

Rəbi dedi: - Məsaib ibn Vəhibə.

Yezid (l) həmin sualı Məsaibə verəndə, o da Rəbi kimi cavab verdi.

Yezid (l) bu sualı kimə ünvanladısa o bu cinayəti öz boynundan atdı və başqasını günahlandırırdı.

Növbət Xuliyə çatdı. O, cavab verməkdə aciz qalmışdı. Bütün əmirlər vəhşət və nigəranlıqla ona göz dikmiş və qəti cavab gözləyirdilər. Bu an qoşun başçıları hamısı birdən: Hüseynin (ə) qatili Qeys ibn Rəbidir-dedilər.

Yezid (l), ağır sözlərlə ona həmlə edərək, “Hüseyni (ə) sən öldürdün” deyə qışqırdı.

Mən əsl qatili yaxşı tanıyıram. Amma, əmir aman verməsə deməyəcəyəm, - dedi Qeys.

Yezid (l) ona aman verdi. Rəbi dedi:

Ey əmir! Hüseynin (ə) qatili döyüş bayrağını qaldıran və onunla (Hüseynlə) döyüşə dəstə-dəstə qoşun göndərən o kəsdir.

Yezid (l) soruşdu: - O kəs kimdir?

Qeys dedi: - Ey əmir, Hüseyni (ə) sən öldürdün![15]

---

[15]"Nasixut-təvarix"

# NÖVHƏLƏR

## Həzrəti-Zeynəbin (ə) Ərbəin ziyarəti

*Ey Kərbübəla vaxtdır, zəvvarı qəbul eylə,*
*Qırx gün min əzab çəkmiş dildarı qəbul eylə.*

*Ey şiə, bu gün qüssə hər möminə hakimdir,*
*Var bir gözü yaşlı kim, zar olmağa təhkimdir.*
*Bu dəşti-bəla içrə qəmdidə gəzən kimdir?*
*Zəhra qızı Zeynəbdir, qəmxarı qəbul eylə.*

*Ol dəm ki qətar yetdi dəşt içrə məzargahə,*
*Zeynəb çəkib üz xakə, ərz eylədi ol şahə.*
*Ey zülmə düçar qardaş, hacət nədir izahə,*
*Bir dəstə əsir düşmüş naçarı qəbul eylə.*

*Ey nuri-Xuda qardaş, düşməndi bizə dünya,*
*Ali-Əli zülm içrə gerçəkdi bu, ya xülya?*
*Qırx gündü deyib Əkbər, divanə gəzir Leyla,*
*Al könlünü, ol zarü biyarı qəbul eylə.*

*Qardaş, sənə ərzim var, sədparə Səkinəndən,*
*Şam içrə qərib düşmüş, biçarə Səkinəndən.*
*Bilməm nə deyim, gəlsəm göftarə, Səkinəndən,*
*Əhdi səni görməkdi, ilqarı qəbul eylə.*

*Səndən sonra düşmənlər vurdu bizə min yarə,*
*Zülfün kimi, ey qardaş, oldu günümüz qarə.*

*Bir Zeynələba idi hər dərdimizə çarə,*
*Başi nə bəla görmüş bimarı qəbul eylə.*

*Sənsiz deyilik, qardaş, təkrar elədik sənsiz,*
*Həqqi deyib hər yerdə aşkar elədik sənsiz,*
*Düşmən nə ki vəd etdi inkar elədik sənsiz,*
*İnkarı qəbul eylə, aşkarı qəbul eylə.*

*FƏRD*

*Gəlmişik icz ilə ol mahi-münəvvər yanına,*
*Necə bülbül eliyər şövq güli-tər yanına.*

*Ya Hüseyn, dövrələyibdir səni övladi-Əli,*
*Sanki güllər düzülübdür güli-əhmər yanına.*

*Sənsiz aləmdə nə zillət çəkirik Tanrı bilir,*
*Müstəri zülm gətirmiş yenə müstər yanına.*

*Ya əxi, dur bizə sərvərlik elə, sənsiz, axı,*
*Gedərik biz necə Bəthayə, peyəmbər yanına?*

*Əl-baqiyi-növhə*

*Əhvalımızı gör bir, qardaş, hamımız üzgün,*
*Bu çərxi-bədahəngə hər kəsdə ürək küsgün.*
*Mən söyləməyən dərdi Soltan deyəcək bir gün,*
*Lütf eylə o əsnadə, əşarı qəbul eylə.**

# NÖVHEYİ-MAHİ-SƏFƏR

*Səfərin axırıdır, amma, kədər bitməyəcək,*
*Hə qədər vardı kədər, mahi-Səfər bitməyəcək.*

*Dəli divanə könül ah eləmək əzmində,*
*Səsini daxili-dərgah eləməz əzmində.*
*Şiəni qüssədən agah eləmək əzmində,*
*Bu xəyalın həvəsi şamü səhər bitməyəcək.*

*Bu ayın axıri Həq verdi səadət camın,*
*Şəhi-Bətha, yəni, nuş etdi şəhadət camın.*
*İçdi ta ki, verə İslamə şəfaət camın,*
*İstifadə edə, dünya nə qədər bitməyəcək.*

*Bu aya daxil olub rehləti-afaqi-zaman,*
*Müctəba zəhri içib tutdu rəhi-bağı-cinan.*
*Xəlqi-idbari görün, yaxşılığa etdi yaman,*
*Cühəla həşrə qədər içsə, zəhər bitməyəcək.*

*Hələ qürbətdə İmami- Rza(ə) ah naləsi var,*
*Qəbri Məşhəddədi, amma hər ürəkdə səsi var.*
*Üstəlik Qumdə bir sevgili Məsuməsi var,*
*Həsrəti, ruzi qiyamət yetə gər, bitməyəcək.*

*İki aydır ki, gedir matəmi şahi-şühəda,*
*O qəbul eyliyə ta, biz edirik canı fəda.*
*Ərşdən cümlə mələklər yayır hər mülkə səda,*
*Gələcək çərxi-fələkdən bu xəbər bitməyəcək.*

*Gətirir hali-Hüseyn riqqətə insan ürəyin,*
*Gəlin, eşqilə tutaq Mehdiyi-dövran ətəyin.*
*İnşəəllah ki, o Həzrət yetirər öz köməyin,*
*Yoxsa dünyadə zülüm, cövrü xətər bitməyəcək.*

*Özünə cümlə müsəlman, axı, düşməndi niyə?*
*Çarəsizlik özü baisdi bu biçarəliyə.*
*Son qoyulsun gərək aləmdə ikitirəliyə,*
*Əhli-İslamdə bu dərd məgər bitməyəcək?*

*Ya Hüseyn, Soltan əzəldən adıva aşiqdir,*
*Yeri var gərçi desəm eşqinə çox sadiqdir.*
*Sözünü dinlə, qəbul eylə, əgər layiqdir,*
*Bir ömür gər yaza haqqında əsər bitməyəcək.*

## AŞURA NOHƏSİ

*(bəhri-təvil)*

*Bir vaxt idi ki, Kərbübəla canə gəlirdi,*
*Sultani-cahan ərseyi-meydanə gəlirdi.*
*Getmişdi Əli Əkbər,*
*Əbbasi-ələmpərvər,*
*Həm Qasimi-gülpeykər,*
*Həm təşnə Əli Əsğər.*

Bir kimsə dəxi qalmayıb olsun o pəripeykərə həmdəm ki, çəkib tiği edib qovmi-dəğanı yerə pərçəm, dura ləşkər qabağında elə möhkəm ki, qalan xeymələr içrə hamu biçarəvü bikəs tapa təskin, ola asudə bəladən, vəli yox kimsə ki, çıxsın bu zülümkar qaniçənlər ilə qovğayə, olub Şahi-şəhidanə bu məlum, o məsum çağırıb Zeynəbi-dildadəni

ərz etdi ki, ey isməti-Heydər, səməri-Zadeyi-Zəhrayi-müəəttər, dəxi çatmış o zaman ki, eləyim əhdə vəfanı, görüb ümmani-bəlanı atılım şövq ilə girdabi-cəfayə, tapa təsdiqini ta ayeyi- “bil-qisti minən nəs” ki, bu əhvali-pərişan yetə dərgahi-Xudayə, qoşula şiə sədayə, eşidib Zeynəbi-qəmgir bu hekayətləri göz yaşları leysanə gəlirdi.

*Bir vaxt idi ki, Kərbübəla canə gəlirdi,*
*Sultani-cahan ərseyi-meydanə gəlirdi.*
*Getmişdi Əli Əkbər,*
*Əbbasi-ələmpərvər,*
*Həm Qasimi-gülpeykər,*
*Həm təşnə Əli Əsğər.*

Bu meydan o meydan idi ki, Həzrəti-Əbbasi-ələmdar olub təşnə mühibbanə səzavar görüb Əsğəri-biçarəni suzan, eşidib kim, suya həsrət dodağilə nə pıçıldar ona üç yaşlı Səkinə, o güli-şahi-Mədinə, elə cuş etdi ki, qanı, o səbir hövsələ kanı, çəkərək nəreyi-Heydər, qəhərindən axıdıb torpağə əşkin, alıb ağuşə su məşkin, özünü vurdu qoşun-ləşkərə ta yetdi Fəratə, baxıban abi-həyatə, dilinə vurmadı bir qətrə o sudən, fəqət aldı nə qədər yarə ədudən, iki qolları kəsildi, cəmi yolları kəsildi, elədi ləşkəri-üdvan sinəsin parə, o biçarə gözün yumdu Əli Əsğəri gördü, necə gördü, o tifil zarü şikəstə oxu püstan tək əmirdi, ox isə sanma dəmirdi, dəmir olsaydı əririrdi, bu cəfadən, bu bələdən, bu nəvadən o da min şövq ilə imanə gəlirdi.

*Bir vaxt idi ki, Kərbübəla canə gəlirdi,*
*Sultani-cahan ərseyi-meydanə gəlirdi.*
*Getmişdi Əli Əkbər,*

*Əbbasi-ələmpərvər,*
*Həm Qasimi-gülpeykər,*
*Həm təşnə Əli Əsğər*

Bu meydan o meydan idi ki, Əkbəri-şahzadeyi-növrəs, özü nalan, ürəyi qan, alıban izni əsilzadə Hüseyndən, oluban azimi-meydan, şığıyıb şir kimi baxsan deyəcəkdin ki Əlidir, o vəlidir ki, çalıb zərbi Bədrdə, qalıb aciz sora Xəndəkdə Əmir də, atılan dəmdə o şahzadə bu meydanə münəvvər, əlaman söylədi ləşkər ki, gəlib Şahi-cahan, Əhmədi-Məhmud peyəmbər, dağılıb hamısı birdən, cəmi əhsən dedi, əhsən o kəmalə, o cəmalə, fəqət əmr etdi Ömər Səd ki, çəkin sədd, o məlunə olub tabe ədulər Əbəlfəzl kimi, Qasim kimi ya ibni-Məzahir kimi sadiqləri, aşiqləri, o cənnətə layiqləri bu qətl eliyənlər, çəkərək tiği sitəmkər neçə yerdən vuraraq Əkbərə yarə, eliyib cismini parə, salıban, Leyliyi-fərxəndəliqa başinə qarə, bu qəmü dərd nə ölçü nə də mizanə gəlirdi.

*Bir vaxt idi ki, Kərbübəla canə gəlirdi,*
*Sultani-cahan ərseyi-meydanə gəlirdi.*
*Getmişdi Əli Əkbər,*
*Əbbasi-ələmpərvər,*
*Həm Qasimi-gülpeykər,*
*Həm təşnə Əli Əsğər.*

Çün eylədi son sözləri o şahi-şəhidan bacısı Zeynəbə elan, dedi ki, and ola Qurani-Kərimə, o behişt ilə cəhimə, cəmi Allaha hərimə ki, şəhadət mənə Həqdən verilibdir eliyim canımı qurban, belədir bəxtimə fərman, gedəsən Şamə pərişan, tutalar Səccada divan, vəli hasil budu ki,

şövkəti-İslam ola var, tapmıya nöqsan, keçəcək dövrü qərinə, adımızla ulu İslam özünə ad edəcəkdir, Hacı Soltan kimi çox aşiqi-sadiq əsər icad edəcəkdir və bizi yad edəcəkdir, o da min cövrü cəfa ilə əza günləri əfqanə gəlirdi.

*Bir vaxt idi ki, Kərbübəla canə gəlirdi,*
*Sultani-cahan ərseyi-meydanə gəlirdi.*
*Getmişdi Əli Əkbər,*
*Əbbasi-ələmpərvər,*
*Həm Qasimi-gülpeykər,*
*Həm təşnə Əli Əsğər.*

# IV FƏSİL

## KƏRBƏLA ŞƏHİDLƏRİ

Kərbəla şəhidlərinin sayı haqqında müxtəlif rəqəmlər deyilib. Bəzi tarixlərdə 72-nəfər, bəzi tarixlərdə 104, 124, 127 və s. qeyd olunubdur.

1. Hüseyn ibni Əli (ə) – üçüncü imam, qoşunun başçısı. Şimr ibn Zilcövşən tərəfindən şəhid edilib.

2. Əli Əkbər ibn Hüseyn – İmam Hüseynin (ə) böyük oğlu. Peyğəmbər (s) nəslindən ilk şəhid. Mərrah ibn Munqiz Əbdi tərəfindən şəhid edilib.

3. Əli Əsğər ibn Hüseyn – İmam Hüseynin (ə) kiçik, altı aylıq oğlu. Hərmələ ibni Kahil Əsədi tərəfindən şəhid edilib.

4. Qasim ibn Həsən – İmam Həsənin (ə) 14 yaşlı oğlu oğlu. Ömər ibn Səd tərəfindən şəhid edilib.

5. Əbu Bəkr ibn Həsən – İmam Həsənin (ə) oğlu. Abdullah ibni Əqəbə Ğənəvi tərəfindən şəhid edilib.

6. Abdullah ibn Həsən – İmam Həsənin (ə) 10 yaşlı oğlu. Hərmələ ibn Kahil Əsədi tərəfindən şəhid edilib.

7. Abbas ibn Əli – Həzrət Əbəlfəzl kimi tanınmış, İmam Hüseynin (ə) qardaşı və ordunun bayraqdarı. Anası Ümmül-Bənindir. Yezid ibn Rüqəd Hiti və Həkim ibn Tüfeyl Tai tərəfindən şəhid edilib.

8. Qasim ibn Abbas – Həzrət Əbəlfəzlin oğlu.

9. Fəzl ibn Abbas – Həzrət Əbəlfəzlin oğlu.

10. Abdullah ibn Əli – İmam Hüseynin (ə) qardaşı. Anası Ümmül-Bənindir. Hani ibn Sübeyt Həzrəmurti tərəfindən şəhid edilib.

11. Cəfər ibn Əli – İmam Hüseynin (ə) qardaşı. Anası Ümmül-Bənindir. Hani ibn Sübeyt Həzrəmurti tərəfindən şəhid edilib.

12. Osman ibn Əli – İmam Hüseynin (ə) qardaşı. Anası Ümmül-Bənindir. Huli Əzbəhi Əyadi və Əbani Darimi tərəfindən şəhid edilib.

13. Abdullah ibn Əli – İmam Hüseynin (ə) qardaşı. Anası Leyla binti-Məsuddur.

14. Əbu Bəkr ibn Əli – İmam Hüseynin (ə) qardaşı. Anası Leyla binti-Məsuddur.

15. Əbdürrəhman ibn Əli - İmam Hüseynin (ə) qardaşı.

16. Məhəmməd ibn Əli - İmam Hüseynin (ə) qardaşı. Əbani Darimi tərəfindən şəhid edilib.

17. Övn ibn Abdullah – xanım Zeynəbin (s) oğlu

18. Məhəmməd ibn Abdullah - xanım Zeynəbin (s) oğlu.

19. Qasim ibn Məhəmməd – xanım Zeynəbin (s) kürəkəni.

20. Həbib ibn Məzahir Əsədi – sol cinahın komandanı.

21. Müslim ibn Övsəcə Əsədi – Peyğəmbər (s) səhabəsi

22. Mövq ibn Səmamə Əsədi Səidavi

23. Əmr ibn Xalid Səidavi

24. Qeys ibn Müsəhhər Səidavi

25. Həccac ibn Məsruq Cöfi – Həzrət Əlinin (ə) səhabəsi, İmam Hüseyn (ə) qoşununun müəzzini.

26. Hənzələ ibn Əsəd Şami – İmam Hüseynin (ə) Ömər ibn Sədə göndərdiyi qasidi.

27. Səyid ibn Abdullah Hənəfi - Müslim ibn Əqilin ya-

vəri, İmam Hüseynə (ə) kufəlilərin dönük çıxdıqlarını xəbər verən şəxslərdəndir. İmam Hüseyn (ə) namaz qılarkən özünü imama atılan oxlara sipər etmişdi.

28. Züheyr ibn Qeyn Bəcəli – sağ cinahın komandanı. Xəlifə Osmanın tərəfdarlarından idi və İmam Hüseyni (ə) dəstəkləmirdi. Həccdən qayıdarkən xanımının təkidi ilə İmam Hüseynlə (ə) görüşmüş və ona tərəf keçmişdi.

29. Salman ibn Məzahir Bəcəli – Züheyrin qohumu. Onunla birlikdə Həccdən qayıdarkən İmam Hüseynə (ə) qoşulmuşdu.

30. Əbu Vəhhab Abdullah ibni Ümeyr Kəlbi – İmam Hüseynə qoşulub İslamı qəbul etmiş xristian gənc. Anası və xanımı ilə birlikdə İmam Hüseynə (ə) qoşulmuşdu.

31. Əbdüləla ibn Yezid Kəlbi

32. Abdullah ibn Ümeyr Kəlbi – İmam Hüseynə (ə) Mədinədən qoşulmuşdu.

33. Abdullah ibn Ümeyrin həyat yoldaşı – qadın şəhidlərdəndir. Şimrin qulu tərəfindən balta ilə şəhid edilmişdir.

34. Yezid ibn Ziyad Kindi

35. Hərs ibn Əmr Kindi

36. Zəvir ibn Əmr Kindi

37. Hürr ibn Yezid Riyahi – Yezid qoşununun sərkərdəsi, Aşura günü tövbə edib İmam Hüseynə (ə) tərəf keçib. Kərbəlanın ilk şəhididir.

38. Səd – Hürrün oğlu

39. Hürrün digər oğlu

40. Əaiz ibn Məcmə Əazi – Hürr ibni Riyahla birlikdə İmam Hüseynə (ə) tərəf keçən altı nəfərdən biri idi.

41. Coun ibn Malik Təmimi – Yezidin qoşunundan İmam Hüseynə (ə) tərəf keçmişdir.

42. Səd ibn Hərs Ənsari.

43. Əbul-Hətuf ibni Hərs Ənsari - Səd ibn Hərislə əkiz qardaş idilər. Yezid qoşunundan İmam Hüseynə (ə) tərəf keçənlərin içində idilər.

44. İmran ibn Kəlb Ənsari

45. Nəim ibn İclan Ənsari

46. Abdullah ibn Buşr Xəşəmi – Ömər ibni Sədlə birlikdə İmam Hüseynlə (ə) döyüşməyə gəlmişdi. Lakin, tövbə edib İmam Hüseynə (ə) tərəf keçmişdi.

47. Ömər ibn Zəbiə Zəbii - Ömər ibni Sədlə birlikdə İmam Hüseynlə (ə) döyüşməyə gəlmişdi. Lakin, tövbə edib İmam Hüseynə (ə) tərəf keçmişdi.

48. Bəşr ibn Əmr Həzrəmi – Peyğəmbər (s) səhabəsi.

49. Müslim ibn Övsəcə Əsədi – Peyğəmbər (s) səhabəsi.

50. Nafe ibn Hilal Cəməli – hədis ravisi.

51. Ziyad ibn Ərib Səidi – Peyğəmbər (s) səhabəsinin oğlu, hədis ravisi.

52. Ənəs ibn Hərs Kahili.

53. Büreyr Həmdani – Həzrət Əlinin (ə) yaşlı səhabəsi.

54. Həbəşi ibn Qeys Nehmi Həmdani.

55. Səvvar ibn Əbu Uman Həmdani – yaralanaraq əsir götürülmüş və zindanda şəhadətə yetişmişdir.

56. Əmr ibn Abdullah Cundai – Səvvarla birlikdə yaralanmış və şəhid edilmişdir.

57. Şəbib – Hərs Həmdaninin azad edilmiş qulu idi.

58. Əmr ibn Abdullah Cündayi Həmdani

59. Üməyyə ibn Səd Tai – Həzrət Əlinin (ə) səhabəsi.

60. Hərs – Həzrət Həmzənin azad edilmiş qulu.

61. Rafi – Müslim Əzdinin azad edilmiş qulu.

62. Səd – Əmr ibn Xalidin azad edilmiş qulu.

63. Səd – Həzrət Əlinin (ə) azad edilmiş qulu.

64. Muncə - İmam Həsənin (ə) azad edilmiş qulu.

65. Şuzəb – Şakinin qulu.

66. Qərib – İmam Hüseynin (ə) azad etdiyi kənizin oğludur. Həmin Kəniz azad edildikdən sonra ailə qurmuşdu və dünyaya gətridiyi bu oğlunu İmam Hüseynin (ə) tərbiyəsinə vermişdi.

67. Nəsr ibn Neyzər – İran şahının Həzrət Peyğəmbərə (ə) göndərdiyi, Peyğəmbərin (s) Həzrət Əliyə (ə) hədiyyə etdiyi və Həzrət Əlinin (ə) azad etdiyi qul.

68. Vazeh Türki – Hərsə Məşacinin türk əsilli qulu. Kərbəlaya gələrək İmam Hüseynə (ə) qoşulmuşdu.

69. Əsləmə - İmam Hüseynin azad edilmiş qulu

70. Coun – Əbu Zərin azad edilmiş qaradərili qulu idi. İmam Həsənin (ə) və İmam Hüseynin (ə) səhabələrindəndir.

71. Süleyman ibn Razin – İmam Hüseynin (ə) azad edilmiş qulu. İmam onu Bəsrəyə qasid kimi yollamışdır. Lakin o, ibn Ziyad tərəfindən yaxalanmış və şəhadətə çatdırılmışdır.

72. Əbd Qeys Əbdi Bəsri

73. Həccac ibn Bədr Sədi Bəsri

74. Səlim Bəsri – Həzrət Əlinin (ə) Bəsrədən olan səhabəsi, vaxtı ilə Amir Əbdinin qulu idi.

75. Seyf ibn Malik Əbdi Bəsri

76. Amir ibn Müslim Badi Bəsri – Səlim tərəfindən azad edilmiş qul. Həzrət Əlinin (ə) səhabələrindən idi.

77. Abdullah ibn Zeyd Əbdi

78. Übeydullah ibn Zeyd Əbdi

79. Yezid ibn Sabit Əbdi

80. Əzam ibn Üməyyə Əbdi

81. Əbdürrəhman ibn Əbdürrəb Ənsari Xəzrəci

82. Cinadət ibn Kəb Ənsari Xəzrəci
83. Cinadət ibn Kəbin oğlu
84. Ömər ibn Cənadə Ənsari
85. Əmr ibn Qərtə Ənsari
86. Əbdülhətuf Ənsari
87. Əbdülhətufun qardaşı
88. Savər ibn Mənyim Nehmi – İmam Hüseynə (ə) qoşulmaq üçün bütün İraqı gəzmişdi.
89. Malik Cabiri – Seyf ibni Hərslə qohum idilər. Kufədən birlikdə gələrək İmam Hüseynə (ə) qoşulmuşdular.
90. Əbdürrəhmən ibn Ürvə Ğəffari
91. Abdullah ibn Ürvə Ğəffari – qardaşı Əbdürrəhmanla birlikdə Kufədən gəlmişdilər.
92. Qasim ibn Həbib Əzdi
93. Müslim ibn Kəsir Əzdi
94. Qasis – Züheyr ibn Səlabi
95. Kurş - Züheyr ibn Səlabi
96. Muqsit - Züheyr ibn Səlabi
97. Kənnah ibn Səlabi
98. Məsud ibn Həccac Təimi – oğlu ilə birlikdə şəhid olub.
99. Əbdurrəhman ibn Məsud Təimi – Məsudun oğlu.
100. Cibiləs ibn Əli Şeybani – Həzrət Əlinin (ə) Siffeyn döyüşündəki əsgərlərindəndir.
101. Cündəb ibn Müji Xövləni – Həzrət Əlinin (ə) səhabəsi.
102. Həlləs ibn Əmr Rasibi
103. Süveyd ibn Əmr Xəşmi
104. Seyf ibn Hərs Cabiri
105. Şəvəb Şakiri
106. Abdullah ibn Yəqtər Himyəri

107. Əbdürrəhman Ərhabi
108. Əmr ibn Həb Səidi
109. Əmr ibn Həsən Tali
110. Qənab Nəmri
111. Məcmə-ul-Cəhni ibn Ziyad ibn Ömər
112. Yezid ibn Məğful – Həzrət Əlinin (ə) səhabəsi
113. Bəkr ibn Hey Təimi
114. Müslim ibn Əqil – İmam Hüseynin (ə) əmisi oğlu. İmam tərəfindən Kufəyə nümayəndə kimi göndərilmiş, lakin xəyanətlə üzləşərək şəhid edilmişdir.
115. Hani ibn Ürvə - Müslim ibni Əqillə birlikdə Kufədə şəhid edilmişdir.
116. İbn Həccac Təimi – Müslim İbn Əqilin yavəri, İmam Hüseynə (ə) kufəlilərin dönük çıxdıqlarını xəbər verən şəxslərdəndir.
117. Zərğəmə ibn Malik Təğləbi – Müslim ibn Əqilin yavərlərindən idi. Müslimin şəhadətindən sonra İmam Hüseynə (ə) qoşulmuşdu.
118. Əbis ibn Şəbib Şakiri - Müslim ibn Əqilin yavərlərindən idi. Müslimin şəhadətindən sonra İmam Hüseynə (ə) qoşulmuşdu.
119. Həbib ibn Qeys Taimi – Kufədə ikən Müslim ibn Əqilə beyət etmişdir. Müslimin şəhadətindən sonra Kufədən qaçaraq İmam Hüseynə (ə) qoşulmuşdu.
120. Malik ibn Abdullah ibn Sərii
121. Şəbib ibn Haris ibn Sərii
122. Züheyr ibn Bəşi Kəsəmi
123. Yezid ibn Hasin
124. Qərib ibn Abdullah ibn İrqit

Burada qeyd olunan adlar tarixçilər tərəfindən yekdil

qəbul edilmir. Eyni adamın iki adla tarixə düşməsi, yaxud tarixi mənbələrdəki qeyri-dəqiqlik buna səbəb ola bilər. Məsələn, Fizzənin, yaxud Əli Əkbərin anası Leyla xanımın Kərbəlada olub-olmaması mübahisəlidir. Bəzi adlar tarixə düşməyə də bilər. Bu kimi mübahisələr siyahıda göstərilmiş bəzi adlara da şamil olunur.

## Nahiyeyi-Müqəddəsə ziyarəti

Salam olsun Allahın yaratdıqları içindən seçilmiş Adəmə (ə),

Salam olsun Allahın vəlisi və seçilmişi Şeysə (ə),

Salam olsun Allah höccətini bərpa edən İdrisə (ə),

Salam olsun duası qəbul olunmuş Nuha (ə),

Salam olsun Allah tərəfindən çoxlu köməklər alan Huda (ə),

Salam olsun Allahın kəramət tacı bağışladığı və böyük saydığı Salehə (ə),

Salam olsun Allahın xüsusi dostluq etdiyi İbrahimə (ə),

Salam olsun Allahın behişt qurbanlığı qərar verdiyi və onu azad etdiyi İsmailə (ə),

Salam olsun Allahın peyğəmbərliyi onun nəslində qərar verdiyi İshaqa (ə),

Salam olsun Allahın Öz rəhməti ilə gözünün nuru yenidən qaytarılan Yəqubə (ə),

Salam olsun Allahın Öz əzəməti ilə quyudan nicat verdiyi Yusifə (ə),

Salam olsun Musaya ki, Allah öz qüdrəti ilə onun üçün dəryanı yardı (ə),

Salam olsun Allahın peyğəmbərliyinə məxsuslanan Haruna (ə),

Salam olsun Şüeybə ki, Allah ona ümmətinə qarşı kömək etdi (ə),

Salam olsun Allah tərəfindən tövbəsi qəbul edilən Davuda (ə),

Salam olsun Allah Öz izzəti ilə cinləri ona aciz edən Süleymana (ə),

Salam olsun Allahın xəstəlikdən şəfa bağışladığı Əyyuba (ə),

Salam olsun Allahın Öz vədəsini onun üçün vəfa etdiyi Yunusə (ə),

Salam olsun Allah onu öldürdükdən sonra bir də diriltdiyi Üzeyrə (ə),

Salam olsun qəm və möhnətlərə səbr edən Zəkəriyyaya (ə),

Salam olsun Yəhyaya (ə) ki, şəhid olduğu üçün Allah onu özünə yaxın etdi.

Salam olsun ruhullah və kəlimətullah olan İsaya (ə),

Salam olsun Allahın həbibi və seçilmişi Mühəmmədə (s),

Salam olsun Peyğəmbərlə (s) xüsusi qardaşlığı olan, Əbu Talibin oğlu Əmirəl-möminin Əliyə (ə),

Salam olsun Peyğəmbərin (s) qızı Fatimeyi-Zəhraya (s.ə),

Salam olsun atasının vəsisi və canişini Əbu Mühəmməd Həsənə (ə),

Salam olsun Hüseynə (ə) ki, onun nəfsi, qanının (həqq yolunda) tökülməsi ilə böyüklük etdi.

Salam olsun o kəsə ki, Allaha gizlində və aşkarda itaət etdi.

Salam olsun o kəsə ki, Allah şəfanı onun qəbrinin torpağında qərar verdi.

Salam olsun o kəsə ki, şərəfli günbəzinin altında Allah düaları qəbul edir.

Salam olsun o kəsə ki, imamlar onun nəslindəndir.

Salam olsun sonuncu peyğəmbərin oğluna.

Salam olsun canişinlərin seyyidinə.
Salam olsun Fatimeyi-Zəhranın (s.ə) oğluna.
Salam olsun Xədiceyi-Kübranın (ə) oğluna.
Salam olsun Sidrətul-Müntəhanın oğluna.
Salam olsun Cənnətul-Məvanın (əbədi behişt) oğluna.
Salam olsun Zəmzəm və Səfanın oğluna.
Salam olsun qanına boyanana.
Salam olsun xeymələrinə hörmətsizlik olunana.
Salam olsun Kisa əshabının beşincisinə.
Salam olsun qəriblər qəribinə.
Salam olsun ən yaxşı şəhidə.
Salam olsun haramzadələrin əli ilə öldürülənə.
Salam olsun o kəsə ki, göylərin mələkləri ona ağladılar.
Salam olsun o kəsə ki, övladları ən pak insanlar idilər.
Salam olsun dinin padşahına.
Salam olsun Allahın aydın dəlillərinin mənzillərinə.
Salam olsun imamlara və ağalara.
Salam olsun sinələri qana boyananlara.
Salam olsun susuzluqdan quruyan dodaqlara.
Salam olsun ayrılan canlara.
Salam olsun aparılan ruhlara.
Salam olsun üryan qalan bədənlərə.
Salam olsun aclıqdan rəngi qaçmış üzlərə.
Salam olsun olsun axan qanlara.
Salam olsun kəsilmiş əzalara.
Salam olsun nizəyə taxılmış başlara.
Salam olsun hicabları əllərindən alınmış xanımlara.
Salam olsun aləmlərin Rəbbinin höccətinə.
Salam olsun sənə (ey Hüseyn) və sənin pak ata və babalarına.

Salam olsun sənə və sənin şəhadəttələb övladlarına.

Salam olsun sənə və sənin köməkçi nəslinə.

Salam olsun sənə və sənin qəbrinin ətrafındakı mələklərə.

Salam olsun məzlumcasına öldürülənə.

Salam olsun zəhərlə öldürülmüş qardaşına (imam Həsənə).

Salam olsun Əli Əkbərə.

Salam olsun balaca südəmərə (Əli Əsğərə).

Salam olsun libasları qarət olunmuş bədənlərə.

Salam olsun Peyğəmbərə (s) ən yaxın nəsilə.

Salam olsun səhralarda yerdə qalanlara.

Salam olsun öz vətənlərindən uzaq düşənlərə.

Salam olsun kəfənsiz dəfn olunanlara.

Salam olsun bədənlərdən ayrılan başlara.

Salam olsun o kəsə ki, müsibətlərə Allaha xatir dözdü və səbrli oldu.

Salam olsun məzlum öldürülənə və köməksiz qalana.

Salam olsun o kəsə ki, pak torpaqda sakin oldu.

Salam olsun əzəmətli günbəz sahibinə.

Salam olsun o kəsə ki, Cəlil Allah onu pak qərar verdi.

Salam olsun o kəsə ki, Cəbrail onunla fəxr edirdi.

Salam olsun o kəsə ki, Mikail beşiyində ona lay-lay deyirdi.

Salam olsun o kəsə ki, onunla bağladıqları əhdi pozdular.

Salam olsun o kəsə ki, hörmətini saxlamadılar.

Salam olsun o kəsə ki, qanını nahaq və zülm ilə tökdülər.

Salam olsun o kəsə ki, nizələrlə vururdular.

Salam olsun o kəsə ki, ona zülm etdilər və qanını tök-

məyi halal saydılar.

Salam olsun o kəsə ki, hamının gözü qarşısında başını bədənindən ayırdılar və heç kim bir söz demədi.

Salam olsun o böyük şəxsiyyətə ki, onu bəni-Əsəd tayfası dəfn etdilər.

Salam olsun o kəsə ki, boynunun damarlarını kəsdilər.

Salam olsun köməksiz qalan himayətçiyə.

Salam olsun saqqalı qana boyanana.

Salam olsun üzü torpağa boyanana.

Salam olsun o bədənə ki, libaslarını qarət etdilər.

Salam olsun o mübarək dişlərə ki, çubuqla (xeyzəran) vururdular.

Salam olsun nizədə yuxarı qaldırılmış başa.

Salam olsun sənə, ey mənim mövlam və şərəfli günbəzinin ətrafında qanad açan mələklərə ki, pak qəbrini dövrələyiblər və sənin hərəminin təvafına məşğuldurlar və ziyarət etmək üçün daxil olurlar.

Salam olsun sənə. Mən səni ziyarət etmək qəsdi ilə gəlmişəm və ümidvaram sənin yanında doğruçu olam.

Salam olsun sənə. Bir kəsin salamı ki, sənin hörmətinlə arifdir, sənin dostluğunla ixlaslıdır və sənin məhəbbətinlə Allaha yaxın olmaq istəyir və səndən bizar olan, düşmənlərindən olar. Bir kəsin salamı ki, qəlbi sənin müsibətin ilə yaralıdır və səni yada salmaqla göz yaşları axıdar. Bir kəsin salamı ki, dərdli və qəmli, heyran və çarəsizdir. Bir kəsin salamı ki, Kərbəla səhrasında səninlə birlikdə olsaydı, mütləq öz canı ilə səni qılıncların zərbəsindən qoruyardı və peykərində qalmış yarı canını sənə xatir ölümə verərdi və sənin qarşında döyüşərdi, zülmkarların qarşısında sənə kömək edərdi, ruhunu, cismini, malını və övladlarını sənə fəda edərdi və öz ruhunu sənin ruhuna fəda edərdi, öz ailə-

sinə sənin ailəni qorumağı tapşırardı.

Düzdür ki, dövran məni sənin zamanından uzaq edib və müqəddəratımı sənə kömək etməkdə təxirə saldı, səninlə döyüşməyə gələnlərlə döyüşə bilmədim və düşmənlərinlə dava edə bilmədim, lakin hər gecə-gündüz sənə nalə və fəğan edirəm və (o qədər ağlayıram ki,) göz yaşı yerinə qan tökülür didələrimdən.

Sənə çəkdiyim həsrətdən və çəkdiyin əziyyətlərə etdiyim təəssüflərdən tabsız və taqətsiz qalaram, ta o vaxta qədər ki, bu müsibət və qəmlərdən ölərəm.

Şəhadət verirəm ki, sən namazı bərpa etdin və zəkatı verdin, əmr ve məruf, nəhy əz münkər etdin, pisliklərin qarşısını aldın. Allaha itaət etdin və Ona itaət etməkdən boyun qaçırmadın. Allaha və Onun dəstəyinə söykəndin, belə ki, Onu özündən razı etdin.

Bir halda ki, sən Allahdan qorxdun və Ona cavab verdin (əmrini yerinə yetirdin), sünnələri və müstəhəbbləri yerinə yetirdin. Fitnələri yatırtdın və (insanları) kamilliyə doğru çağırdın. Möhkəm yolları aşkarladın. Allah yolunda haqq olaraq səy və cihad etdin. Allah üçün gözəl itaətçi oldun və cəddin Mühəmmədə (Allahın salam və rəhməti ona və pak ailəsinə olsun) tabeçilik etdin, atanın dediklərini eşitdirdin, qardaşının vəsiyyətinə əməl etməyə tələsdin.

Dinin sütunlarını qaldırdın, tüğyan edənləri əzdin. İslam ümmətinə xeyirxahlıq etdin və şəhid olmaq arzusunda idin, fasiqləri mübarizəyə çağırırdın.

Allah höccətlərini bərpa etdin, İslam və müsəlmanlara mehriban və rəhm etdin, haqqa yardımçı idin. Bəlalara səbr etdin, dinə gözətçi oldun və dini mərkəzlərin müdafiəçisi idin.

Sən hidayəti qoruyan və ona yardım edən, ədaləti ge-

nişləndirən və yayan, dinin yardımçısı oldun və onu aşkar etdin.

Dini əllərində oyuncağa çevirənlərin qarşısını aldın və onlara mane oldun.

Zəiflərin haqqını sərvətlilərdən alırdın. Güclü və zəif arasında bərabər hökm edirdin.

Sən yetimlərin baharı və camaatın pənah yeri, İslamın izzəti, hökmlərin mədəni, bəxşiş və ehsan sahibi idin.

Cəddin və atanın yolu ilə gedən, qardaşın kimi atanın vəsiyyətinə əməl edən idin.

Əhdlərə vəfa edən, yaxşılıqları sevən, kərəmləri aşkar edən, qaranlıqlarda ibadətə çalışan, ədalətli və ortaq üslubları olan, kərim əxlaqlı, işıqlı keçmişi olan, şərəfli nəsəbi, üstün əba-əcdadı, uca rütbəsi, çoxlu iftixarları, vəsf etməli rəftarı olan, bəxşişlər edən idin.

Kamala çatmış həlim, bəxşişi və elmi çox, qüdrətli, şəhid rəhbər, Allaha tərəf qayıdan və heybətli dost idin.

Sən, Peyğəmbərə (Allahın salam və rəhməti olsun ona və onun pak ailəsinə) övlad, Qürana dayaq, ümmətə güclü qol və yavər idin.

Sən Allaha itaət etməkdə çalışqan, Onunla bağladığın əhd və peymanı (Zər aləmində) qoruyan, fasiqlərin yolundan uzaq və Allah yolunda var gücünlə çalışan idin.

Sən uzun rüku və səcdələr edən və dünyaya qarşı etinasız idin. Elə bir etinasız ki, onu (dünyanı) buraxmaq və oradan köçmək istəyirdin. Həmişə dünyaya qorxmuşların gözü ilə baxırdın. Dünya arzularını ürəkdən çıxatmışdın və sənin ümmətin dünya zinətlərindən üz çevirmişdi.

Sən dünya sevinc və şadlıqlarına göz yummuşdun. Sənin şövqün tanıdığın axirətə tərəf idi. O vaxta qədər ki, zülmkar zülm əlini uzatdı və zülm pərdəsini üzündən açdı,

və öz azğın ardıcıllarını çağırdı.

Bir halda ki, sən öz ceddinin hərəmində sakin idin və zülmkarlardan uzaq gəzirdin, mehrab və evlə munis olmuşdun, şəhvət və ləzzətlərdən uzaq idin. Taqət və imkanın qədər, ürək və dilinlə pisliyi pis bilirdin. Sonra elm və agahlığın lazım bildi ki, zülmkarlara qarşı çıxasan və faciələrə qarşı cihad edəsən. Onda övladların, ailən, şiələrin və dostlarınla yola düşdün, həqiqət və Allahın aydın dəlillərini üzə çıxartdın, aşkarladın.

Camaatı hikmət və nəsihətlə yaxşılığa tərəf dəvət etdin. Onları Allah qanunlarına əməl etməyə, Məbuda, itaət etməyə əmr etdin. (Onlara) pis işləri və həddi aşmağı qadağan etdin. Onlar isə zülm və düşmənçiliklə sənin qarşında dayandılar.

Sən onları nəsihət etdikdən, (pis) işlərinin qarşısında dayandıqda, höccəti tamam etdikdən və onlarla cihad etdikdən sonra, onlar səninlə peymanı və biəti sındırdılar, Sənin Rəbbini və ceddini qəzəbləndirdilər, səninlə döyüşə qalxdılar.

Sən onların qılınc və nizə zərbələrinin qarşısında möhkəm dayandın. Facir və günahkarların qoşununu bir-birinə vurdun, toz-torpaq qalxmış cihad meydanına Zülfüqar ilə daxil oldun. Elə bil Allahın seçilmişi Əli (ə) idin.

Onlar səni sabitqədəm və dəlil gördükləri zaman və bir halda ki, sənin də heç bir qorxun yox idi, sənə hiylələr etdilər və tələlər qurdular. Səninlə şər və məkr ilə döyüşdülər.

O məlun (Ömər Səd), öz qoşununa sənin su içməyinin və suya daxil olmağının qarşısını almağı əmr etdi.

Səninlə davaya qalxdılar və bu işdə tələsdilər (tələsirdilər). Sənə oxlar və daşlar atdılar. Yırtıcı əllərini sənə tərəf

uzatdılar.

Sənin haqqına riayət etmədilər. Sənin əzizlərini öldürməkdə və malını qarət etməkdə, öz günahlarının cəzasından heç bir qorxuları olmadı.

Sən çətinliklərdə öncül idin. Elə əziyyətlərə dözdün ki, göylərin mələkləri sənin səbrinə təəccüb etdilər.

Düşmənlər hər tərəfdən səni dövrələdilər. Sənə ağır yaralar vurdular. Səninlə gecə arasında fasilə saldılar (yəni, sənin işini tamam etdilər və gecəyə qalmağa qoymadılar).

Heç bir köməkçin qalmamışdı. Sən işi Allaha tapşırdın və səbr etdin. Sən atdan yıxılana qədər qadınları və övladlarını müdafiə etdin.

Sən yaralı bədənlə yerə yıxıldın. Atların ayaqları səni əzirdilər. Hədlərini aşanlar səni qılınclırı ilə vururdular.

Ölüm təri sənin alnında puçurlanmışdı. Mübarək bədəninin sağ və solu yığılıb-açılmaqla başqa cür olurdu. Gözünün ucu ilə xeymələrə və hərəmlərə tərəf baxırdın.

(Sənə ağır müsibət üz verdi) Övladların və Əhli-beytindən (ə) ayrılıb, özünə məşğul idin (yəni ağrılarn o qədər idi ki, Əhli-əyalın barəsində fikirləşməyə aman vermirdi).

Sənin atın şivən edən və ağlar halda, sürətlə sənin xeymənə tərəf gəldi. Qadınlar sənin atını xəcalətli və yəhərini çevrilmiş görərkən, saçlarını üzlərinə töküb, xeymələrdən çölə çıxdılar. Onlar üzlərini açıb, sili vururdular. Ucadan nalə edir, səni çağırırdılar. Onlar izzətdən sonra xar olmuşdular və qətligaha tərəf qaçırdılar.

Şimr (l) sənin sinən üstə oturmuşdu. O, şəmşirini sənin boğazının çökəyinə salmışdı və sənin saqqalını əlində tutmuşdu, başını iti qılancla kəsmək istəyirdi. Sən dedin ki, boğazından cəddin Peyğəmbər (s) öpüb, onu qılınc kəsməz. o səni üzü üstə çevirib başını arxadan kəsdi. Sonra

Mübarək başın nizə başında ucaldı.

Sənin əhli-əyalın qullar kimi əsir oldular, dəmir zəncirlərə bağlandılar. Üryan dəvələr üstündə güclü isti onların çöhrələrini yandırdı. Onları əlləri boyunlarına bağlı halda səhralarda aparır və bazarlarda gəzdirirdilər.

Bəs, vay olsun o fasiq günahkarlara ki, doğrudan da səni öldürməklə, İslamı öldürdülər, namaz və orucu buraxdılar. Sünnətləri və hökmləri sındırdılar, dinin və imanın sütunlarını məhv etdilər. Qüran ayələrini təhrif etdilər, zülm və düşmənçilikdə təlaş etdilər. (Səni öldürdükdən sonra) Allah Peyğəmbəri (s) tənha qaldı və sənin qanını tələb edənlərdən oldu. Bir daha Uca Allah kitabı (Qüran) tərk olundu və uzaq düşdü. Sən öldürüldükdən sonra haqqa xəyanət olundu.

Sən öldürüldükdən sonra Allahu Əkbər, La ilahə illəllah, haram, halal, tənzil və təvil (Qüranın mənası) yoxa çıxdı.

Səndən sonra dəyişikliklər, küfr, əhəmiyyətsizlik, nəfsi istəklər, azğınlıqlar, fitnələr və batil üzə çıxdı (yarandı).

Sənin şəhadətini xəbər verən, cəddin Peyğəmbərin (Allahın salavat və salamı ona və onun pak ailəsinə olsun) qəbrinin kənarında dayandı və göz yaşı tökən halda sənin şəhadətini ona çatdırdı.

O deyirdi: Ey Allahın Rəsulu! Sənin nəvən və cavan (oğlun) öldürüldü. Sənin Əhli-beytinin (ə) hörmətini sındırdılar və mübah saydılar. Sənin övladlarını səndən sonra əsir etdilər. Sənin ailən və yaxınların giriftar oldular. Beləliklə, Peyğəmbər (s) pərişan oldu və qəmli-qəmli ağladı.

Sənə xatir, mələklər və peyğəmbərlər (ə) O Həzrətə başsağlığı verdilər. Sənə xatir anan Zəhra (Allahın salamı olsun ona) əzadar oldu. Allahın müqərrəb mələk qoşunu

atan Əmirəl-mömininə (ə) başsağlığı vermək üçün gəl-get etdilər. Əlayi-İlliyində sənə matəm quruldu və sənə xatir Hurul-eynlər öz başlarına, üzlərinə vurdular.

Asiman və onun sakinləri, behişt və onun xəzinədarları-oğlanları, dağlar və onun ətəyindəkilər, dəryalar və onun balıqları, Allah evi, Məqam və Məşərül-həram və onun ətrafında olanlar hamısı ağladılar.

İlahi! Bu şərəfli məkanın (İmam Hüseynin (ə) hərəmi) hörməti xatirinə, Mühəmməd (s) və onun pak övladlarına salam göndər və məni onların zümrəsində məşhur elə və məni onların şəfaəti ilə behiştə daxil et.

İlahi! Mən sənə təvəssül edirəm:- ey Çox Tez Hesab Çəkən və ey Kərimlərin Kərimi, Hakimlərin Hakimi!

Sənin bütün aləmlərə göndərdiyin peyğəmbərlərin sonuncusu Mühəmmədə (s) və onun qardaşı və əmisi oğluna, bütlərə pərəstiş etməyən və elmlə dolu, o uca məqamlı Əmirəl-mömin Əliyə (ə) və bütün aləmlərin qadınlarının xanımı Fatiməyə (s.ə), pak olan və təqvalıların pənah yeri Həsənə (ə), şəhadəttələblərin ən əzizi Əba Əbdillahil-Hüseynə (ə) və şəhid övladlarına və məzlum ailəsinə, ibadət edənlərin zinəti Əli ibn Hüseynə (ə), tövbə edənlərin qibləsi Mühəmməd ibn Əliyə (ə), doğruçuların ən doğruçusu Cəfər ibn Mühəmmədə (ə), höccətləri aşkar edən Musa ibn Cəfərə(ə), dinin köməkçisi Əli ibn Musaya(ə), hidayət edənlərin ağası Mühəmməd ibn Əliyə (ə), zahidlərin ən zahidi Əli ibn Mühəmmədə (ə) və canişinlərin varisi, Allahın bütün məxluqlarının höcəti Həsən ibn Əliyə (ə) təvəssül edirəm.

Mühəmməd (s) və onun pak ailəsi olan doğruçular, yaxşı əməl sahibləri, “**Ta-ha”** və **“Ya-sin**” övladlarına salam göndər və məni Qiyamətdə amanda olanlardan, asudə-

lərdən, doğruçulardan, sevinənlərdən və müjdə verilmiş-lərdən qərar ver!

Məni zalımlara qalib et və həsəd edənlərin məkrindən amanda saxla. Məni məkr edənlərin hiyləsindən qoru və zalımların əlini məndən üz.

Məni Öz rəhmətinlə Əlayi-İlliyyində olan yaxşı əməl sahibləri ki, onlara nemət vermisən, peyğəmbərlər, doğru-çular, şəhidlər və salehlərlə bir yerdə qərar ver, ey Rəhim-lilərin ən Rəhimlisi!

İlahi! Səni and verirəm günahlardan pak olan Peyğəm-bərinin (s) haqqına və Sənin mütləq olası hökmlərinə, gizli qadağanlarına, bu şərəfli qəbrə ki, onun ziyarətinə get-gəl olunur və məzlum öldürülən məsum imam onun gölgəsin-də dəfn olunub, mənim qəmlərimi aç və mütləq olacağı qəzavü qədərin şərrini məndən uzaq et. Məni odlu və yan-dırıcı Cəhənnəmin odundan qoru.

İlahi! Öz nemətinlə mənə bəxşiş ver və məni öz qismə-timə razı et. Öz rəhmət və kəraminlə mənim günahlarıma göz yum. Məni Öz tədbir və cəzandan uzaq et.

İlahi, məni azğındıqlardan qoru, sözümdə və əməlimdə möhkəm et. Ömrümü uzun et, dərd və xəstəliklərdən qoru. Məni övliyalarımın haqqına çatdır. Öz fəzl və kəraminlə məni ən yaxşı arzularıma çatdır.

İlahi, Mühəmməd (s) və onun Əhli-beytinə (ə) salam göndər və mənim tövbəmi qəbul et, göz yaşlarıma rəhm et, azğınlığımdan keç, qəmlərimi dağıt, günahlarımı bağış-la, nəslimi salehlərdən et.

İlahi, bu şərəfli hərəm və kəramətli məkanda mənə ba-ğışlamadığın günah, örtmədiyin eyb, qorumadığın qəm, artırmadığın ruzi, abad etmədiyin məqam, islah etmədiyin fəsad, çatdırmadığın arzu, qəbul etmədiyin dua, yaxşılaş-

dırmadığın hal, kökündən qazıb atmadığın həsəd, aradan qaldırmadığın düşmənçilik, yaxşılaşdırmadığın pislik, şəfa bağışlamadığın xəstəlik, yaxınlaşdırmadığın uzaqlıq, islah etmədiyin dağınıqlıq, əta etmədiyin istək qalmağa qoyma.

İlahi, Səndən indiki xeyri və gələcək savabı istəyirəm.

İlahi, halalın vasitəsi ilə məni haramdan uzaq et. Öz fəzlinlə məni ehtiyacsız et.

İlahi, Səndən fayda verən elm, hüznlü qəlb, kamil yəqin, pak əməl, gözəl səbr, çoxlu əcr istəyirəm.

İlahi, yerinə yetirməli olduğum nemətlərin şükrünü mənə ruzi et. Ehsan və kərəmini mənə artır. Sözümü camaat arasında ötərli və qəbul olunan et. Əməlimi öz yanında uca qərar ver. Mənim işlərimi xeyirli et. Düşmənlərimin kökünü kəs.

İlahi, insanların ən xeyirliləri olan Mühəmməd (s) və onun Əhli-beytinə (ə) gecənin və gündüzün bütün anlarında salam göndər və şər yetirə bilənlərin şərrini onlardan uzaq et. Məni günah və çirkinliklərdən pak et, Cəhənnəm atəşindən qoru və Cənnətdə qərar ver.

Məni və Sənin yolunda olan bütün mömin qardaşlarımı və möminə bacılarımı Öz rəhmətinlə bağışla, ey Mehribanların ən Mehribanı.

## İmam Həsən (ə) Əsgəri ilə Xanım Rüqəyyənin (s.ə.) öxşarlığı

İmamət səmasının 11-ci parlaq ulduzu İmam Həsən Əsgəri (ə) cəmi 28 il ömür sürdü. İmamın (ə) İmamət dövrü 6 il oldu. Bu altı il müddətində Bəni –Əbbas xəlifələri İmamı (ə) Əsgəri məntəqəsində nəzarətdə saxladılar. Bütün Əhli-beyt (ə) imamları müqəddəs həcc əməlini yerinə yetirmişlər. Tək İmam Həsən Əsgəri (ə) Zalım Bəni-Əbbas xəlifələrinin nəzarətində olduğundan, Həcc əməlini yerinə yetirməmişdir. Zalım Bəni-Əbbas xəlifələri İmam Həsən Əsgəriyə (ə) həcc ziyarətini yerinə yetirməyə imkan verməmişdilər. Hicrətin 260-cı ilinin Rəbiul-əvvəl ayının 8-də Samirra şəhərində Əbbasilər sülaləsinin 14-cü xəlifəsi Mötəmidin zəhər verməsi ilə şəhadətə çatmış elə həmin şəhərdə də dəfn olunmuşdur. Qəbri-şərifi bu gündə Samirra şəhərində haqq aşiqlərinin ziyarət məkanına çevrilmişdir. Necə ki İmam Həsən Əsgəri (ə) həcci yerinə yetirə bilmədi, Həzrəti-Rüqəyyə də (s.ə) atası İmam Hüseyni (ə) Kərbəlada ziyarət edə bilmədi. Həzrəti-Zeynəbi (s.ə) bu müsibət əldən saldı. Rüqəyyənin (s.ə) şəhadəti elə ağır müsibət oldu ki, tarixdə bu müsibətin adına "Hicrani-əzim" dedilər. İmam Həsən Əsgəri ilə Xanım Rüqəyyənin oxşarlığı budur.

## Xanım Zeynəb ilə (s.ə) Həzrəti-Rüqəyyənin (s.ə) və Həzrəti-Məsumənin (s.ə) oxşar cəhətləri

1.Hər üç xanım məsum İmamın (ə) qızıdır. Xanım Zeynəb (ə) Həzrət Əlinin (ə), Həzrət Rüqəyyə (s.ə) İmam Hüseynin(ə) qızı, Həzrət Məsumə (s.ə) isə İmam Musa ibn Cəfərin (ə) qızıdır.

2.Hər üç xanım məsum şəxslərin bacısıdır. Biri Həsən (ə) və Hüseynin (ə), biri İmam Səcadın (ə), digəri isə İmam Rzanın (ə) bacısıdır.

3.Hər üç xanım Allahın höccəti olan məsum İmamlardan (ə) bəhrələnmişdir.

4.Hər üç xanım məsum İmamlar tərəfindən hörmətə layiq görülmüşdür.

5.Hər üç xanım öz qardaşlarını – Xanım Zeynəb (s.ə) qardaşları İmam Həsəni (ə) və İmam Hüseyni (ə), Həzrət Rüqəyyə (s.ə) qardaşı İmam Səccadı (ə) Həzrət Məsumə (s.ə) isə qardaşı İmam Rzanı (ə) çox sevirdi.

6. Hər üç xanım İslam dininə və Əhli-beytə (ə) olan məhəbbətlərinə görə evlərini, yaşayışlarını və vətənlərini tərk edərək, səfər əziyyətlərinə qatlaşdılar. Həzrət Zeynəb (s.ə) və Həzrət Rüqəyyə (s.ə) Mədinədən İraqa, sonra isə Şama getdi. Həzrət Məsumə (s.ə) isə Mədinədən İrana getdi, Qumda yaşadı, orada da vəfat edib dəfn olundu.

7.Hər üç xanımın vətəni Mədinə olduğu halda, qürbətdə dəfn olunublar. Həzrət Zeynəb (s.ə) Şam və ya Misirdə, Həzrət Rüqəyyə (s.ə) Şamda (Yezidin (l) sarayına yaxın bir yerdə), Həzrət Məsumə (ə) isə İranın Qum şəhərində dəfn olunub.

8.Hər üç xanımın qəbri müsəlmanların ümumi ziyarətgahına çevrilib.

9.Allahın salamı olsun Zeynəbi-Kubraya (s.ə), Həzrəti-Rüqəyyəyə (s.ə), Həzrəti-Məsuməyə (s.ə) və Allah yolunun bütün fədakarlarına ki, bu böyük xanımlardan dərs alaraq, səbr etməyi öz həyat dəftərlərinin sərlövhəsinə yazıblar.

Həzrət Rüqəyyə (s.ə) bəbul-həvayicdir (hacətlər qapısıdır) və bu gün yüz minlərlə Əhli-beytsevənlər onun məqbərəsini ziyarət edib, istədikləri hacətləri əldə edirlər.

# V FƏSİL

# NÖVHƏLƏR VƏ MƏRSİYƏLƏR

*Rüqəyyə, ey gözüm nuri,*
*İşıqlı ayə bənzərsən.*
*Yanıqlı sözlərin vardır,*
*Anam Zəhrayə bənzərsən.*

*Qızım, salma məni dərdə,*
*Bu qədri tökmə göz yaşın.*
*Yatanmmırsan quru yerdə,*
*Gətir qoy sinəmə başın.*
*Sənin qüssən, bala, çoxdur,*
*Ölüb istəkli qardaşın.*
*Gözün yolda qalıb yoxsa,*
*Bacın Suğrayə bənzərsən.*

*Qızım, çox ağlama, səbr et,*
*Rübabi eyləmə giryan.*
*Deyirsən Əsğərə lay-lay,*
*Anan ağlır, edir əfğan.*
*Rüqəyyə, sinəmə dur gəl,*
*Bibin Zeynəb sənə qurban.*
*Mələksən, ya ki hurisən,*
*Qızım, Hurayə bənzərsən.*

*Yatammırsan quru yerdə,*
*Çəkirsən çox, qızım, zillət.*
*Babandan ayrılan gündən,*

*Sənə yoxdur edən hörmət.*
*Yatardın sinəeyi-şahda,*
*Edibsən sinəyə adət.*
*Cəmalın, gəl, silim xakın,*
*Güli-rənayə bənzərsən.*

*Yatardın sineyi-şahda,*
*Öpərdi gül cəmalından.*
*O şəhla gözlərə qurban,*
*Keçir hər gün xəyalından.*
*Səni ayrı salıb düşmən,*
*Cəlalından, diyarından.*
*Düşən ayrı diyarından,*
*Gözəl durnayə bənzərsən.*

*Dəxi qəlbim kəbab oldu,*
*Rüqəyyə, az məni yandır.*
*Üzün divarə hey qoyma,*
*Nədir dərdin mənə andır.*
*Üzə əşgin rəvan etmə,*
*Bala qəlbim dolu qandır.*
*Öpüm qoy məh cəmalından,*
*Şəbi-Tahayə bənzərsən.*

*Üzü gül, gözləri göyçək,*
*Günün gündən yaman oldu.*
*Bizim dağə duman gəldi,*
*Sel atlandı, tufan oldu.*
*Düşüb afət gülüstanə,*
*Bütün güllər xəzan oldu.*

*Sən indi gülləri solmuş,*
*Qızım, şeydayə bənzərsən.*

*Demə yoxdur atam, salsın,*
*Özüm qol boynuva sallam.*
*Vətəndə istəsən hər nə,*
*Əgər getsəm, qızım, allam.*
*Qızım, çox ağlama, səbr et,*
*Ölərsən, mən mələr qallam.*
*Səni qüssə çəkər axır,*
*Qızım, üqbayə, bənzərsən.*

*Fəğanə gəlmə bülbül tək,*
*Dayan, ey doxtəri-Taha.*
*Üzün torpaqlara qoyma,*
*Əya, ey növgüli-Zəhra.*
*Rüqəyyə, az məni yandır,*
*Saraldı surəti-ziba.*
*Səni saldı fələk damə,*
*Solan qonçayə bənzərsən.*

*Oyan, ey Azəri, heyhat,*
*Belə dövrü zəman olsun.*
*Yazıb ver Yusifə şerin,*
*O qardaşdan bəyan olsun.*
*Bu sözlər yandırar qəlbi,*
*Oxunsun, çox fəğan olsun.*
*Olar tək bu dəri-Həqdə,*
*Yoxundi yayə bənzərsən.*

***

*Ey əmməsin mələr qoyan, balam oyan, gülüm oyan,*
*Rüqəyyə, bağrım oldu qan, balam oyan, gülüm oyan.*

*Sənə nə gəldi, ay bala, bu hali-zarə yanmısan,*
*Nə qədri səslərəm səni, göz açmırsan, oyanmırsan.*
*Batıbdı ağlamaq səsin, ayağa day duranmırsan,*
*Dur ey yetimi-xəstə can, balam oyan, gülüm oyan.*

*Gözün fədası, sevgilim, gözümdən atmaram səni,*
*Əgər yatıbsan indi yat, hələ oyatmaram səni.*
*Cəhanı versələr mənə, bu dəhrə satmaram səni*
*Ki, bivəfadı bu cəhan, balam oyan, gülüm oyan.*

*Həmişə rəsmidir, qızım, bəla çəkər bəlalı baş,*
*Səni qutardı qüssədən bu cismidən aralı baş.*
*Hamı deyər: Rüqəyyəyə qonaq gəlib yaralı baş,*
*Dur, ey vəfalı miziban, balam oyan, gülüm oyan.*

*Nədən qonağının başın qucaqda saxlayammadın?*
*Qolunda taqət olmadı onu qucaqlıayammadın.*
*Ürək sözün deyəmmədin, doyunca ağlıayammadın,*
*Yumuldu çeşmi-xunfəşan, balam oyan, gülüm oyan.*

*Xudayi-Kəbədən sənə inayət oldu bu gecə,*
*Baban gəlib xərabəyə, səadət oldu bu gecə.*
*Görəndə qanlı ləblərin, qiyamət oldu bu gecə,*
*Varıydı zəxmi-xeyzəran, balam oyan, gülüm oyan.*

*Çıxıbdı quş kimi canın, fəda o dağlı sinənə,*
*Nə növ' təsliyət deyəm Rübabə, ya Səkinəyə.*

*Sən olmasan, anam canı, gedəmmərəm Mədinəyə,*
*Utannam, ey şirinzəban balam oyan, gülüm oyan.*

*Gecə zəmanı bilmirəm kimə deyim məlalımı,*
*Batıbdı əllərim qana, fələk pozub cəlalımı.*
*Anam Bətuli səslərəm, gələ görə bu halimi,*
*Dilimdə zikri əl-aman, balam oyan, gülüm oyan.*

*Xuda bilir haçan bizi bu əhli-kin xilas edə,*
*Sən olmasan, qətarimi, Hicaza qoymaram gedə.*
*Rəva degil ki mən gedəm, balam qala xərabədə,*
*Qırıldı zəngi-karivan, balam oyan, gülüm oyan.*

*Yola baxardın hər gecə, baba gələ sorağivə,*
*Təbəqdə gəldi, can dedin o mehriban qonağivə.*
*Öpəndə daş yarasını, yaxıldı qan dodağivə,*
*Gözün yumuldu nagəhan, balam oyan, gülüm oyan.*

*Səsimə səs ver, aç gözün, yoxumdu taqətim naza,*
*Çətindi bir bala ölə, məzarın əmməsi qaza.*
*Gərək bu qəmli səhnənin, Kəlami növhəsin yaza,*
*Yana dedikcə novhəxan: balam oyan, gülüm oyan.*

***

*Dur gedək, qızım, gedir karivan,*
*Xırda qəbrüvə Zeynəbin qurban.*

*Deyirdin, əmmə, gedək vətənə,*
*Mənzilin olub şəhri-Mədinə.*

*Bacı, bəs hanı mənim güllərim,*
*Qalıbsan məndən kənar ellərdə.*
*Xırda qəbrüvə Zeynəbin qurban.*

*Mənim bülbülüm, düşmüsən dildən,*
*Məgər nə olub, küsmüsən məndən?*
*Əsir qəribə oxşayan olmaz,*
*Dur gedək, qızım, gedir karivan.*
*Xırda qəbrüvə Zeynəbin qurban.*

*Qəribə, qızım, ağlayan olmaz,*
*Yetim qəbrini yoxlayan olmaz.*
*Əsir qəbrində oxşayan olmaz,*
*Dur gedək, qızım, gedir karivan.*
*Xırda qəbrüvə Zeynəbin qurban.*

*Xərabə mənzildə yatmadın, balam,*
*Rahat olmadım yatmadın, balam.*
*Torpaqlar olub balışın, balam,*
*Dur gedək, qızım, gedir karivan.*
*Xırda qəbrüvə Zeynəbin qurban.*

*Şümri-bihəya çox vurub səni,*
*Qətl eyləyib, incidib səni.*
*Qərib ölməyin yandırıb məni,*
*Dur gedək, qızım, gedir karivan.*
*Xırda qəbrüvə Zeynəbin qurban.*

*Nalə eylərəm, ağlaram səni,*
*Yatmaram, qızım, ağlaram səni.*
*Zakirəm, deyib-ağlaram səni,*

*Dur gedək, qızım, gedir karivan,*
*Xırda qəbrüvə Zeynəbin qurban.*

***

*Ey əmmə, babam qəmzədə gülzarə gəlibdir,*
*Əfsus ola, əmma dodaği yarə gəlibdir.*

*Məsti-meyi-canan idi, məstanə yatıbdır,*
*Xoş halına, sərmənzili-məqsudə çatıbdır.*
*Müjganlari yolda toza, toprağə batıbdır,*
*Qatilləri aşiqlərinə can gətiriblər.*
*Yusif kimi bazərə pərişan gətiriblər.*

*Mədhuşi-bəladi, xəbəri yoxdi özündən,*
*Ənvari-həqiqət ucalur qanlı üzündən.*
*Bir busə əgər versə şərafətli gözündən,*
*Dünya qəmi Zəhrayə qəsəm nuş olar, əmmə.*
*Yollarda dəyən sili fəramüş olar, əmmə.*

*Hurayi-cinandır bu başın mərsiyə xani,*
*Əllərdə ölüb təşnə cigər pirü cəvani.*
*Nahəqq tökülübdü boğazından yerə qani,*
*Ey vay, mənə qəm gərdi nümayəndə qaşında.*
*Zəhra öpən alnın daş öpüb nizə başında.*

*Bu mənzili-viranə degül şəninə layiq,*
*Olsaydı, tökərdim yoluna bərgi-şəqayiq.*
*Şayəstədi məşuqinə canın verə aşiq,*
*Pərvaneyi-eşqəm, yanaram Şamidə qallam,*
*Xakistərimi şəmimə bəstər kimi sallam.*

*Qismət əgər olsa, bu gecə aşiqi-zarə,*
*İsbat elərəm eşqimi bu qəmli nigarə.*
*Allam bu başı sinəmə qəlbimdə şərarə,*
*Hörmət elərəm yarəli mehmanimə, əmmə.*
*Qurban verərəm canımi cananimə, əmmə.*

*Mədyundi Rüqəyyən, bibi, sərməti-Ələstə,*
*İfayi-kəramətdə babam olmadi xəstə.*
*Üç il o yatırdubdi məni sinəsi üstə,*
*Fikrim budi sinəmdə bir ulduz kimi batsın.*
*Qoy bir gecə də mən alım ağuşimə, yatsın.*

*Olmaz vuralar tirmeyi-eşq üstünə vəslə,*
*Çün vəslə özi lətmə vurar tirmeyi-əslə.*
*Aşiq odi can nəqdi verə müjdeyi-vəslə,*
*Rəhm eyləsin Allah mənə bu qəmli çağımda.*
*Canım çıxa ləbdən, yarali baş qucağımda.*

*Ahu darıxanda necə dəştü dəmən istər,*
*Bülbül də gülün eşqinə seyri-çəmən istər.*
*Qəlbim darıxub, Şamidə könlüm vətən istər,*
*Yəsribdə babam sağlığı xoş günlərim, ey vay.*
*Ətşan dəmi-xəncərdə ölən Əkbərim, ey vay.*

***

*Gəl qoy balami qəbrə, nənə, öldü Rüqəyyəm,*
*Allahdan ölüm istə mənə, öldü Rüqəyyəm.*

*Göyçək balamın gərçi, ana, ömrü az idi,*
*Çox istəməliydi, vəli duzlidi, naz idi.*
*Əfsus ola ki, əmməsi tək qarə yazidi,*

*Hər oxşamasi Zeynəbə şirin qəzəl idi.*
*Tuti kimi şirin süxən idi, gözəl idi.*

*Üryan dəvələr üstə mənim həmdəmim oldi,*
*Yollar boyu Gülsum kimi məhrəmim oldi.*
*Səbr etdi müsibatə, şəriki-qəmim oldi,*
*Allah özü şahiddi ki, başimə taciydi,*
*Qardaş qızı yox, Zeynəbə bir xırda baciydi.*

*Dəydi o qədər qəmçi bu əndami-zəifə,*
*Başdan-ayağa yazdı onu misli-səhifə.*
*Əz bəs ki, bu qız sən kimi olmuşdu əfifə,*
*Üç sinnilə müştaqi-nəmaz idi Rüqəyyə.*
*Az olsada ömri, vəli naz idi Rüqəyyə.*

*Səyyad da qovub çöldə bu ahuni yorubdi,*
*Giysulərinə çəngi-əza şanə vurubdi.*
*Tez gəl, ana, viranədə biganə durubdi,*
*Kim ağlasa, bu nazlı qıza, səndədi əcri,*
*Xar oldi əzası balamun, xar ola zəcri.*

*Bir balü pəri suxtə, pərvanəyə bəzər,*
*Gözlər süzülüb, nərgisi-məstanəyə bənzər.*
*Qarə teli qəndili-əzaxanəyə bənzər,*
*Pərvanə yanar, şöleyi-şəmin əsərində.*
*Yandırdı bu pərvanə məni qəmi-şərində.*

*Görçək yarali başi bu qız siniyi-zərdə,*
*Bir söz dedi, etdi hamınun qəlbini dərdə.*
*Sən siniyi-zərdə dedi yat, mən quru yerdə,*

*Heç eyb eləməz, yatsa türab üstə əzizün.*
*Sən Fatimə reyhanəsisən, mən də kənizün.*

*Viranəsəra bülbülünün batdı sədası,*
*Gülzaridə ali tutulub məclisi-yasi.*
*Güllər sərilib torpağa, başlandi əzasi,*
*Cənnətdə yubanma, dəxi bu matəmə sən gəl.*
*Zeynəb əli boşdi, anacan, əldə kəfən gəl.*

*Ey vay, ana, Zeynəb nə yaman müşkülə düşdi,*
*Kəştiyi-ümidim elə sındı, gilə düşdi.*
*Neylim, nədi çarəm, anacan, iş belə düşdi,*
*Səyyadi-fələk qəlbimi hicranilə böldi.*
*Qoydu yarı yolda məni, yol yoldaşım öldi.*

*Bir gün mənə bir söz dedi, yandırdı, kül oldum,*
*Qəmdən ürəyim getdi, verəm qüssəyə doldum.*
*Ahəstə dedi, əmmə, bilirsən niyə soldum?*
*Hər dərdü müsibət gələ, mərdanə dayannam.*
*Görsə vəli Əkbər məni məcərsiz, utannam.*

*Hər gün ki, durardı dəri-viranəsəradə,*
*Quşlar da qoşardi səsinə nəğmə həvadə.*
*Görmüşdi yarali babasın nuki-cidadə,*
*Ağlardı, deyərdi yaralı başüvə qurban.*
*Kül ləkkə salan qəmzəli göz-qaşuvə qurban.*

*Ox misli dəyərdi sözü hər qəlbi kəbabə,*
*Ağlardı onun halına divari-xərabə.*
*Nisgil olacaq sözləri biçarə Rübabə,*

*Səslərdi, Əli, gəl, bacuvun zülfinə əl çək.*
*Sən şanə vuran zülf ağarar yoxsa bibimtək.*

*Viran ola, ey kaş, bu viranə kimi Şam,*
*Torpaqların üstündə öləndən bu dilaram.*
*Heç bilməyirəm hansı qızı eyləyim aram,*
*Kim bağlayacaq gözlərin, Allah, nədi çarəm?*
*Öldürdü bular özlərin, Allah, nədi çarəm?*

***

*Rüqəyyə, nazlı surətin, qoyma divarə,*
*Bu Kərbəla yollarına, baxma avarə.*
*Ağlama Rüqəyyə, ağlama Rüqəyyə.*

*Həva dolar, yağar vəli, sən kimi dolmaz,*
*Çəməndə gül solar, vəli, sən kimi solmaz.*
*Cahanda çox yetimə var, sən kimi olmaz,*
*Ağlama Rüqəyyə, ağlama Rüqəyyə.*

*Xərabədən kənarə çox, getmə mehparə,*
*Vurur bu Şamın qızları qəlbivə yarə.*
*Çətindi ayrılıq bala, məndə yox çarə,*
*Ağlama Rüqəyyə, ağlama Rüqəyyə.*

*Uzarə bir belə, qızım, tökmə göz yaşın,*
*Bibin kimi bəlalərə tuş olub başın.*
*Bu Şamın əhli bilməsin, yoxdu qardaşın,*
*Ağlama Rüqəyyə, ağlama Rüqəyyə.*

*Torpaqlar üstə can verir Zamini ahu,*
*Canın Həqqə qurban verir Zamini ahu.*

*Yox bir kəs, ağlasın, gözlərin bağlasın,*
*Ağlama Rüqəyyə, ağlama Rüqəyyə.*

***

*Ey bülbüli-şirinsüxən, laylay, Rüqəyyə,*
*Viranədə məzlum ölən, laylay, Rüqəyyə.*

*Adun qızım payəndədir,*
*Səndən bibin şərməndədir.*
*Ey vay, Rüqəyyə, laylay, Rüqəyyə.*

*Torpağın üstə yatma, ey Zəhra nişani,*
*Sənsən, əzizim, Zeynəbin arami-cani.*
*Qolbağlı oldun, şəhri-Şamun qəhramani,*
*Zalimləri rüsva edən, laylay, Rüqəyyə.*

*Eşqün başunda tac olar,*
*Aləm sənə möhtac olar.*
*Ey vay, Rüqəyyə, laylay, Rüqəyyə.*

*Ulduz kimi axdun gecə viransərada,*
*Nisgil olar bu möhnətin Zeynül-İbadə.*
*Qaldi sənin həsrət gözün Kərbübəladə,*
*Oldi sənə qürbət vətən, laylay, Rüqəyyə.*

*Didarə dilbər gəlmədi,*
*Qardaşun Əkbər gəlmədi.*
*Ey vay, Rüqəyyə, laylay, Rüqəyyə.*

*Qaldi Hüseynim qumlar üstə pirəhənsiz,*
*Kərbübəladə nuri-çeşmim qaldı mənsiz.*

*Sən də gedürsən, vay mənə, qəbrə kəfənsiz,*
*Öz köynəgün oldi kəfən, laylay, Rüqəyyə.*

*Qəlbim sənə peyvəstədi,*
*Yay, xırda cismün xəstədi.*
*Ey vay, Rüqəyyə, laylay, Rüqəyyə.*

*Məndən nə gördün, daşimi atdun, əzizim,*
*Ulduz kimi viranədə batdun, əzizim.*
*Küsdün, yatan bəxtim kimi yatdun, əzizim,*
*Qaldı çıraqsız əncümən, laylay, Rüqəyyə.*

*Qoydun məni dünyadə tək,*
*Düşmən içində bikömək.*
*Ey vay, Rüqəyyə, laylay, Rüqəyyə.*

*Gördün fəqət üç il, qızım, qəm macərasın,*
*Zeynəb bibün çəkdi vəli dünya bəlasın.*
*Allah yetimin müstəcab eylər duasın,*
*Dərgahi-Həqqdən istə sən, laylay, Rüqəyyə.*

*Versin mənim dərmanimi,*
*Qəmdən qutarsın canimi.*[16]
*Ey vay, Rüqəyyə, laylay, Rüqəyyə..*

***

*Ey can verən viranədə, Rüqəyyə, Rüqəyyə,*
*Ağlar sənə biganə də, Rüqəyyə, Rüqəyyə.*

---

[16] Hüseyn Ğəffari Ərdəbili

*Ey qəm bağında nəğməli həzarə, həzarə,*
*Od tutdu damanun çəkib şərarə, şərarə.*
*Getdün kəfənsiz, Şamidə məzarə, məzarə,*
*Batdun qəmə qəmxanədə, Rüqəyyə, Rüqəyyə.*

*Kərbübəladə düşmüsən bəlayə, bəlayə,*
*Ellər kimi gəldin o gün nəvayə, nəvayə.*
*Əfğan səsin yerdən çıxıb səmayə, səmayə,*
*Batdın o çöldə qanə də, Rüqəyyə, Rüqəyyə.*

*Tab etmədin viranədə fəraqə, fəraqə,*
*Gəldi baban, baxdın təzə qonağə, qonağə.*
*Qanlı başı alammadın qucağə, qucağə,*
*Can verdin ol kaşanədə, Rüqəyyə, Rüqəyyə.*

*Qaytarmayın, ey sailü gədasin, gədasin,*
*Var dərdimiz, sən vergilən dəvasın, dəvasın.*
*Mərizimiz var, lütf elə şəfasın, şəfasın,*
*Bax Şamidən mərizlərə də, Rüqəyyə, Rüqəyyə.*

*Ey kaş, edək biz qəbrivi ziyarət, ziyarət,*
*Səndən, xanım, çox görmüşük kəramət, kəramət.*
*Eylə bizə məhşər günü şəfaət, şəfaət,*
*Çək rovzeyi-rizvanədə, Rüqəyyə, Rüqəyyə.*

*Verrəm qəsəm səni mahi-munirə, munirə,*
*Meydanidə qolsuz qalan vəzirə, vəzirə.*

*Bax keşeyi-çeşmilə bir Bəşirə, Bəşirə,*
*Lütf eylə növhəxanə də, Rüqəyyə, Rüqəyyə.*[17]

***

*Ey qəlbimin qərari, laylay Rüqəyyə, laylay,*
*Aşiqlərin nigari, laylay Rüqəyyə, laylay.*

*Sinəm sənin yeründi,*
*Torpaqlar üstə yatma.*
*Dildən düşən qənari,*
*Laylay Rüqəyyə, laylay .*

*Göz yaşların axardi, ğəm sayəsin salanda,*
*Oxşardun, ağlayardun mənlə oyaq qalanda.*

*Heç bilmədün nə çəkdim,*
*Min yol ölüb dirildim.*
*Qarət güni Hüseynim*
*Guşvarəvi alanda.*

*Olmaz bibün ölüncək, bir saniyə mühənsiz,*
*Aya, necə gedim mən Kərbübəlayə sənsiz?*

*Olsaydı fürsət əldə,*
*Saçdan kəfən toxurdum.*
*Nisgildi, getsə qəbrə*
*Gül peykərün kəfənsiz.*

[17] Növhəxan Bəşir

*Yoldaşalrun gəliblər, viransəraya mehman,*
*Dil yarəsi vurub kim, əlan olub peşiman.*

*Dur, eybi yoxdi, neynək,*
*Bu qızlari bağışla.*
*Qoyma ola, əzizim,*
*Yoldaşların peşiman.*

*Ey dəşti-Kərbəlanın yorğun marali, laylay,*
*Qəlbin kimin olubdu qəlbim yarali, laylay.*

*Qoy bir öpüm doyuncaq,*
*Sili dəyən üzündən.*
*Qəbrə gecə gedirsən,*
*Zəhra misali, laylay.*

*Hər sən tökəndə göz yaş, min lalə oldu pərpər,*
*Hər sən deyəndə baba beş, qəmçi açdı şəhpər.*

*Qollaruvi öpəndə,*
*Yollarda taziyanə,*
*Ağlardı yanə-yanə*
*Sər nizə üstə Əkbər.*[18]

***

*Viranədə nazlı balam can verdi, dincəldi,*
*Bu duxtəri-şirinzəban can verdi, dincəldi.*

[18] Hüseyn Ğəffari Ərdəbili

*Bəxti o tiflin ovcidən düşdü sərazirə,*
*Yeksər ata-qardaşların çəkdilər şəmşirə.*
*Kərbuübəladən Şaməcan bağlandı zəncirə,*
*Yatmaq ona oldu haram, can verdi, dincəldi.*

*Qaldı orada bikəfən, Allah, balam öldü,*
*Bir kimsənə yox dəfn edə, Allah, balam öldü.*
*Asudə oldu zülmüdən, Allah, balam öldü,*
*Hər zəhmətə etdi davam, Allah, balam öldü.*

*Hər bir gecə Əkbər boyun oxşardı, yatmazdı,*
*Şimri görən gün ol gecə qorxardı, yatmazdı,*
*Çox yalvardım ki, yat qızım, ağlardı, yatmazdı.*

*Qüslün verən yoxdu nədən, öldü balam, öldü,*
*Öz məcərində dəfn edin, öldü balam, öldü,*
*Sönməz odun yandım dedin, öldü balam, öldü.*[19]

[19] Əldə qələm qan ağlar (toplayanı Mübariz Əlizadə)

## İstifadə olunmuş ədəbiyyat

1)Qurani-Kərim

2) Ayətullah-Uzma Nasir Məkarim Şirazi. Qurani-Kərimin Azərbaycan dilində tərcümə və izahı. Azərbaycan dilinə tərcümə edən: Famil Şirvanov. Bakı, "Nurlar" - (Nəşriyyat Poliqrafiya Mərkəzi)-2017.

3)Ayətullah Möhsün Qiraəti. "Nur" Təfsiri 7-8 cild. Tərcümə edəni Hacı Arzu. Bakı, "Nurlar" NPM-2015.

4) M Füzuli "Hədiqətüs-sühada" Bakı,Gənclik nəş.1983.

5)Seyyid Zahir. "Həzrət Rüqəyyə". 2008, Can Növhəsi.

6)Kəlami Zəncani. "Kəlaminin naləsi". (Mərsiyələr və növhələr) Toplayan: Durəfşan "Beytul-Əhza"

7)Ustad Hüseyn Ğəffari Ərdəbili. Aşura, fikir damlaları (qəzəllər, növhələr, mərsiyələr). 1-cild, Bakı "Zərdabi LTD" MMC- 2014.

8)S. Məhəmməd Təqi Müqəddəm. "Zikrlərin xətmi". "Cəngəl" Nəşriyyatı- 1385.

9)İbrət jurnalı №2, Bakı-2012.

10)Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə. "Allah eşqi, insan eşqi, söz eşqi. Bakı, " Ozan" nəşriyyat - 2003.

11) Hacı Həsən Hüseyni " Xuda Hüseynin(ə) aşiqi" Bakı, Nurlar- 2007.

12)Əldə Qələm qan ağlar, yaxud Əhli-beytin (ə) matəmində. 1-cild Toplayan: M.Əlizadə

**Hacı Həsən Hüseyni**

**Həzrəti-Rüqəyyə (s.ə.)**

*Naşir:*
*Mətni yığdı: İlkin Ağayev, Nail Əliyev*
*Cild və dizayn: Azər Həsənov*
*Operator:*

*Yığılmağa verilmişdir: 12.01.2017*
*Çapa imzalanmışdır: 4.01.2018*
*Tiraj 250 nüsxə, ş.ç.v. 16*
*“ ” mətbəəsində çap olunmuşdur.*